SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# AZƏRBAYCANDA UŞAQLARIN AİLƏ-CƏMİYYƏT MÜNASİBƏTLƏRİNDƏ YERİ VƏ ROLU

## ANALİTİK HESABAT



## TƏDQİQAT ÜZRƏ TƏRƏFDAŞLAR:

### AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə yaradılmış Komitə 1998-ci ildən etibarən qadın problemləri ilə iş sahəsində fəaliyyət göstərmiş başqa bir dövlət orqanını - Qadın Problemləri üzrə Dövlət Komitəsini əvəz etmişdir. “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın (CEDAW) yerinə yetirilməsi ilə yanaşı AQUPDK qadın hüquqları və səlahiyyətlərinin genişləndirilməsinə aid bütün aspektlər üzrə dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinə məsuliyyət daşıyan yeganə milli mexanizm hesab olunur.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

### SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır. STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu

## ANALİTİK HESABAT

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti
Sosial-iqtisadi təhlil departamenti

Bakı - 2021

**Redaktor:** Aqşin Məmmədov

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2021

# MÜNDƏRİCAT


**GİRİŞ**....................................................................................................................4

**TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ**..........................................................................7

**RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ**...................................................9

**I BÖLMƏ. ŞƏXSİ İNKİŞAF VƏ ASUDƏ VAXTIN TƏŞKİLİ**.........................................................11
- I.1. Uşaqların asudə vaxtını keçirdiyi fəaliyyət sahələri və valideynin üzərinə düşən məsuliyyət..........13
- I.2. Müasir dövrdə yeniyetmələr/gənclər kimə bənzəmək istəyir?..................................26

**II BÖLMƏ. İNTERNETDƏN İSTİFADƏ**.......................................................................30
- II.1. Uşaqlar üzərində informasiya texnologiyalarının təsiri.............................................31

**III BÖLMƏ. AİLƏ İLƏ MÜNASİBƏTLƏR**..................................................................35
- III.1. Valideyn və övlad münasibətlərində ailə və ətraf mühitin təsiri................................36
- III.2. Uşaqlar xoşbəxtdirlərmi?..........................................................................42

**IV BÖLMƏ. TƏDRİS**..........................................................................................45
- IV.1. Səriştələrə yönəlik təhsil mühitinin yaradılması: məktəbə bağlılıq, təlim prosesinə uyğunlaşma, sosial-psixoloji adaptasiya problemləri..............................46
- IV.1.1. Orta məktəblərdə psixoloji işin təşkili və ona münasibət......................................49
- IV.2. Ailə və məktəb arasında qarşılıqlı münasibətlər: ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemi, səriştəli valideyn paradiqmasının yaradılması..........................................................55
- IV.3. Pandemiya dövründə təhsil..........................................................................63

**V BÖLMƏ. UŞAQ ƏMƏYİ**......................................................................................68
- V.1. Azərbaycanda əmək fəaliyyətinə cəlb olunan uşaqlar və onların iş qrafiki................69
- V.2. Uşaqları erkən yaşda işləməyə vadar edən səbəblər...............................................75
- V.3. Son 6 ayda respondentlərin həyat dinamikası........................................................77

**VI BÖLMƏ. UŞAQ HÜQUQLARI**.............................................................................80
- VI.1. Azərbaycanda uşaq hüquqlarına dair mövcud vəziyyət ..........................................81
- VI.2. Uşaq hüquqlarının milli və beynəlxalq aspektlərinə dair məlumatlılıq səviyyəsi......82
- VI.3. Son 3 ildə uşaqlara qarşı baş verən mənfi tendensiyaların dinamikası...................87
- VI.4. Son 3 il ərzində məktəbdə fiziki xəsarətin yetirilməsi halları...................................89
- VI.5. Zərərli vərdişlərə meyillilik səviyyəsi..................................................................97

**NƏTİCƏ**.............................................................................................................100

**TƏKLİFLƏR**.........................................................................................................105

# GİRİŞ

Bu gün dünyada yüz milyonlarla uşaq öz uşaqlıq və yeniyetməlik haqlarını yaşamaqdan məhrum olub. Uşaqların hüquqları onların səhiyyəyə, təhsilə, sağlam qidalanmaya əlçatanlığının istənilən səviyyədə olmaması, əməyinin istismar olunması, erkən nikahın, erkən hamiləliyin və insan alverinin qurbanına çevrilmələri, həmçinin müxtəlif münaqişə ocaqlarında müharibə zorakılıqlarına məruz qalmaları ilə daha çox pozulur. Hər bir dövlət öz ərazisində yaşayan uşaqları yoxsulluq, ayrı-seçkilik və baxımsızlıqdan xilas etmək üçün öz strategiyasını, fəaliyyət planlarını hazırlayır və prioritetlər üzrə layihələr həyata keçirməyə çalışır. Müasir dövrdə uşaq hüquqlarından danışılarkən dövlətlərin qarşısında əsasən aşağıdakı prinsiplər öncəlik təşkil edir:

- Milli, cinsi və etnik ayrı-seçkiliyə yol verilməməsi;
- Hökumətlər tərəfindən verilən hüquqi və büdcə qərarlarında uşaqların müdafiəsinin əsas olması;
- Uşaqların yaşamaq, təhsil, səhiyyə və sosial müdafiəsinin cinsindən və fiziki imkanlarından asılı olmayaraq bərabər şəkildə təmin olunması;
- Uşaqların ailədə və cəmiyyətdəki münasibətlərdə tutduqları mövqe, şəxsiyyət kimi tam formalaşması və davranışların hüquq çərçivəsində tənzimlənməsi.

Bu sahədə görülən işlərdə hələ ki inkişaf etmiş ölkələr öndə gedir. Uşaq Hüquqları Fondunun (KidsRights Foundation) hazırladığı "KidsRights Index"inə (2020)[1] nəzər yetirsək, ilk beşlikdə olan ölkələrin İslandiya, İsveçrə, Finlandiya, İsveç və Almaniya olduğunu görmək olur. Bu, o inkişaf etmiş ölkələrdir ki, uşaq və qadın hüquqları qanunvericilik üzərindən sərt tətbiq edilir, dövlət səviyyəsində  bu istiqamətdə konkret strategiyalar mövcuddur, uşaqların və yeniyetmələrin şəxsi  və fiziki inkişafı prioritetdir.

"İndeks"də sonuncu pillələrdə Çad Respublikası və Əfqanıstanın yer alması münaqişələrin və yoxsulluğun uşaqların həyatında nə qədər böyük təsirə malik olduğunu göstərir. Dövlət tərəfindən uşaqların hüquqlarının qorunmasının zəif təşkili onların sağlamlığını və həyat şəraitini ağırlaşdırır.

Qeyd edək ki, Azərbaycan sözügedən indeksdə 182 ölkə arasında 60-cı yerdə qərarlaşıb. "İndeks" səhiyyə, həyat səviyyəsi, təhsil, müdafiə və ətraf mühit indikatorları üzrə qiymətləndirilib. "İndeks"ə görə, Azərbaycanda təhsil, səhiyyə və həyat səviyyəsi indikatorları üzrə uşaqların əlçatanlıq göstəriciləri yüksəkdir, ətraf mühit və müdafiə üzrə isə ən aşağı reytinqləri alıb (müvafiq olaraq 64-57 və 79).

Əlbəttə, ötən əsrin 90-cı illərindən etibarən Ermənistanın təcavüzkar siyasəti nəticəsində 1 milyondan çox insanın qaçqın və məcburi köçkün düşməsi, cəbhə bölgəsində daim yaşanan gərginlik uşaqların fiziki və psixoloji müdafiəsi baxımından risklər yaradıb. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə hərbi təcavüzü nəticəsində xeyli sayda uşaq və gəncin sosial yaşayışı, keyfiyyətli təhsil və səhiyyə xidməti almaq imkanları məhdudlaşdırılıb, evindən didərgin düşən insanların mülkiyyət hüququ pozulub, onlarla uşağın ailə himayəsindən kənar böyüməsinə səbəb olub. İkinci Qarabağ müharibəsində də ermənilər tərəfindən Tərtər, Gəncə və Bərdəyə atılan raketlər nəticəsində içində azyaşlı uşaqlar da daxil olmaqla onlarla mülki vətəndaş həyatını itirib və ağır yaralanıb, yüzlərlə vətəndaşın isə evi dağıdılıb.

Bunlara rəğmən, ölkədə yaradılan uşaq institutlarının 30 ilin müharibə yükünü peşəkarcasına qaldırmağı bacardığını demək olar. Hazırda Azərbaycanda uşaqların hüquqlarının təminatına Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), müvafiq

[1] *https://kidsrights.org/research/kidsrights-index/*

icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları nəzarət edir.

Bu gün böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafı Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Vətən müharibəsindən sonra qazanılan qələbə, torpaqlarımızın işğaldan azad edilməsi, cəbhə xəttinin ləğvi, sərhəd kəndlərinin daim atəş altında qalmasından qurtulması Azərbaycan uşaqları üçün də yeni bir dönəm yaradır, onların müdafiəsini daha da gücləndirir.

Ölkə əhalisinin yaşa görə statistikası Azərbaycanı əhalisi cavan olan ölkələrə aid etməyə imkan verir. 2020-ci ilin əvvəlinə 18 yaşadək olan uşaqların sayı 2.636.700 olmuşdur. Bu, dövlətin uzunmüddətli perspektivdə insan potensialının göstəricisi olmaqla bərabər, hazırkı dövrdə bir sıra sosioloji, psixoloji və pedaqoji məsələləri aktuallaşdırır, hansı ki, onlar da uşaq hüquqları problemləri ilə üzvi surətdə əlaqəlidir. Uşaq hüquqları geniş mövzu dairəsini əhatə edir. Bura ən ümumi şəkildə uşaq şəxsiyyətinin inkişafına zəmin yaradan bütün şərtlər aiddir.

Sosial Tədqiqatlar Mərkəzi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilmiş "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" tədqiqat layihəsində uşaq hüquqlarının təminatı və böyüməkdə olan gənc nəslin inkişafı ilə bağlı genişmiqyaslı məsələlər əhatə olunmuşdur.

Tədqiqatın əsas məqsədi ölkədə uşaq hüquqlarının təmin edilməsinə, onların marağının qorunmasına, bu sahələrdəki problemlərə və müsbət təcrübələrə dair ölkədə ümumi vəziyyətin təsvirini sosioloji tədqiqat vasitəsilə öyrənməkdir.

**Tədqiqatda qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı bölmələr üzrə vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:**

- *Şəxsi inkişaf və asudə vaxtın təşkili;*
- *İnternetdən istifadə;*
- *Ailə ilə münasibətlər;*
- *Tədris;*
- *Uşaq əməyi;*
- *Uşaq hüquqları.*

Yuxarıda qeyd olunan mövzular hər biri ayrı-ayrılıqda tədqiqatın vəzifəsi olmaqla, bir sıra metodların kompleks istifadəsi ilə öyrənilmişdir. Bura həm kəmiyyət sorğusu, həm keyfiyyət müsahibələri, eyni zamanda müvafiq elmi ədəbiyyatın təhlili aiddir.

"Şəxsi inkişaf və asudə vaxtın təşkili" bölməsində valideynlər tərəfindən uşaqların məktəbdənkənar vaxtının necə təşkil edilməsi sosioloji sorğu üzərindən təhlil edilib. Eyni zamanda uşaqların maraqlarının təmin olunmasında, habelə asudə vaxtının təşkilində ailələrin maddi vəziyyəti ilə uzlaşdırılması araşdırılıb. Yeniyetmə və gənc məktəblilərin şəxsiyyət kimi formalaşmasında, gələcək peşə seçimində ailənin və ətraf insanların təsirləri təhlil edilib.

"İnternetdən istifadə" bölməsində müasir dövrün informasiya-kommunikasiya tələbatının uşaqlar üzərindəki təsirlərindən bəhs edilir. İnternetin yaratdığı asılılıq, uşaqların internet resurslarından istifadə etmək bacarıqları, informasiya-kommunikasiya sahəsində yeniyetmə və gəncləri cəlb edən məqamlar yer alıb. Sorğunun nəticələrinə görə, məktəbli respondentlərin 93,5%-i internetdən istifadə edir. Onların 10,1%-i gün ərzində 5 saatdan çox internetdə vaxt keçirir.

"Ailə ilə münasibətlər" bölməsində valideynlərin uşaqlar üzərindəki təsirlərinə dair sosioloji tədqiqat aparılıb. Burada uşaqlara ailədə verilən tərbiyədən, onlara qarşı davranışlardan, diskriminasiyalardan bəhs edilir. Sorğu vasitəsilə ailə daxilində ünsiyyət formaları, ailə üzvləri ilə psixoloji yaxınlıq və sair bu kimi sosioloji məqamlar təhlil edilib.

"Tədris" bölməsində şagirdlərin səriştələrə yönəlik təhsil mühitinin yaradılması, məktəbə bağlılıq, təlim prosesinə uyğunlaşma, psixoloji-sosioloji adaptasiya məsələləri tədqiq edilib. Burada orta məktəblərdə psixoloji işin təşkilində valideyn-müəllim münasibətlərinin təşkili də

yer alıb. Eyni zamanda COVID-19 pandemiyasının yaratdığı gerçəkliklər ölkədə tədris sistemində distant təhsillə bağlı yeni baxış formalaşdırıb.

Tədqiqatın bu bölməsində distant təhsil dövründə uşaqların onlayn təhsilə əlaçatanlığı, yaranmış problemlər araşdırılıb. Sorğuya görə, respondentlərin 46.9%-i karantin dövründə bütün onlayn dərslərdə iştirak etdiyini, 19.9%-i gündə bir neçə dərsdə iştirak etdiyini, 8.7%-i həftədə bir neçə dəfə iştirak etdiyini, 8.8%-i nadir hallarda iştirak etdiyini bildirib.

“Uşaq əməyi” bölməsində beynəlxalq təşkilatları da narahat edən uşaq əməyinin istismarından bəhs edilir. Aparılan tədqiqat çərçivəsində Azərbaycanda uşaq əməyinin vəziyyəti təhlil edilib. Eyni zamanda ölkədə əməyə cəlb edilən uşaqların klassifikasiyası müəyyən edilib. Sorğuda iştirak edən məktəblilərin 3,6%-i müxtəlif sahələrdə işlədiyini bildirib.

“Uşaq hüquqları” bölməsində isə milli və beynəlxalq hüququn tələbinə uyğun uşaqların müdafiəsinin təşkilindən bəhs edilir. Buraya Azərbaycan Respublikasının Konstitusiyası, uşaq hüquqlarına dair qanunvericilik bazası, BMT-nin Uşaq hüquqlarına dair Konvensiyası və sair sənədlər daxildir. Sözügedən bölmədə yeniyetmə və gənc məktəblilər arasında qanunla onlara verilən hüquqlarla bağlı maarifləndirmə işinin nə dərəcədə olması təhlil edilib. Uşaqların bu hüquqlardan məlumatlı olub-olmaması, özlərini müdafiə edə bilib-bilməməsi soruşulub. Eyni zamanda, məişət zəminində onlara edilən psixoloji və fiziki təsirlər, zərərli vərdişlərə meyillilik səviyyəsi tədqiq edilib.

# TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

## 1.1. Tədqiqat əraziləri

Sorğu Bakı şəhərini və Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran iqtisadi rayonlarını əhatə edib. Ümumilikdə 2400 respondentin və 24 ekspertin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş regionlar sorğuda əhatə edilməyib.

## 1.2. Respondentlərin seçimi

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin ehtimal ölçüyə mütənasib çoxpilləli klaster seçməsindən istifadə edilib ki, bu da hər bir uşağa bərabər səviyyədə iştirak imkanı verib. İlk mərhələdə sorğuda əhatə ediləcək 40 rayon seçilib. Növbəti mərhələdə seçilmiş rayonlardan 200 yaşayış məntəqəsi seçilib və hər məntəqədən 12 respondent ilə sorğu keçirilib. Seçilmiş yaşayış məntəqəsində sorğuda iştirak üçün intervüyerlərin yaxınlaşacağı evlərin təyin edilməsi tərtib edilmiş təsadüfi gəzinti təlimatına əsasən aparılıb. Yaxınlaşılan evdə sorğuda iştirak etməyə uyğun respondentlərin sayı birdən artıq olanda son ad günü prinsipinə əsasən aparılıb.

Sorğuda şagirdlərin yaş və gender üzrə müxtəlifliyi təmin edilib. Belə ki, rəyi soruşulanların 50.4%-i oğlan, 49.6%-i qızlardan ibarət olub. Yaş qrupları üzrə tədqiqatda iştirak etmiş respondentlərin paylanması aşağıdakı kimi olub:

| Yaş qrupları | Faiz |
|---|---|
| 12-13 yaş | 17.5% |
| 14-15 yaş | 44% |
| 16+ yaş | 38.5% |

Sorğuda əhatə edilmiş respondent sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.0% təşkil edir.

## 1.3. Tədqiqat metodu

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində uşaqlarla anket sorğusundan, keyfiyyət metodologiyası çərçivəsində isə hədəf qrupuna daxil olan müxtəlif sahələrdən olan mütəxəssislərlə dərinləşdirilmiş müsahibə məlumat toplama metodundan istifadə edilib.

## 1.4. Sorğu anketi

Sorğu anketinin sualları yerli vəziyyət nəzərə alınmaqla yanaşı, beynəlxalq təcrübəyə istinadən hazırlanıb. Anket tərtibi mərhələsində suallar hazırlanarkən uşaqların dərrakə səviyyəsinə uyğunlaşdırılıb. Sorğu anketi 68 (59 spesifik və 9 sosial-demoqrafik) sualdan ibarətdir. Suallar aşağıdakı istiqamətlər üzrə olub:

- Uşaqların fərdi və ailə ilə birlikdə asudə vaxtının təşkili
- Uşaqların gələcək planları və arzuları
- İnternetdən istifadə davranışları
- Uşaqların ailədə onunla bağlı qərarlarda iştirakı
- Məktəbə münasibət və dərslərdə iştirakçılıq
- Valideynlərin uşaqlarla münasibəti
- Distant təhsilə münasibət
- Uşaqların öz hüquqları barədə məlumatlılığı, hüquqlarından istifadə davranışları
- Uşaqların hər hansı formada işləyib-işləməməsi; işləyən uşaqların işinə dair əlavə məsələlər (işləmə səbəbi və s.)
- Uşaqların özünün və yaxın ətrafındakı uşaqların deviant və qanunazidd davranışları
- Uşaqların vərdişləri.

Genişmiqyaslı tədqiqatdan öncə 60 respondentlə sınaq sorğusu keçirilib. Sınaq sorğuları məktəblərin tam formada fəaliyyət göstərməməsi səbəbindən onlayn anket ilə keçirilib. Sınaq tədqiqatının nəticələrinə əsasən respondentlərin seçmə dizaynında və anket suallarında müvafiq dəyişikliklər edilib.

## 1.5. Sahə işi

Sorğu 2020-ci ilin aprelin 12-dən mayın 6-dək olan dövrdə keçirilib. Sorğunun orta keçirilmə müddəti 14 dəqiqə, standart sapması isə 4 dəqiqədir.

## 1.6. Sorğunun aparılması üsulu

Sorğu karantin rejiminin tələblərini nəzərə almaq şərtilə üzbəüz şəraitdə keçirilib. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı SurveyToGo proqramından istifadə edilib, bu isə həm sahə işinə nəzarət üçün əlavə imkanlar yaradır, həm də məlumatların toplanılması zamanı insan faktorunun təsirini əhəmiyyətli dərəcədə azaldır.

## 1.7. Etik prinsiplər

Tədqiqatda uşaqların iştirakı nəzərə alınaraq, bir sıra xüsusi etik prinsiplər gözlənilib. İlk olaraq, yaşları 18-dən aşağı olduğuna görə uşaqların valideynlərindən sorğu üçün icazə alınıb. Valideynlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqqında tam məlumat verilib. Valideynin razılığı alındıqdan sonra uşaqla sorğu keçirilib.

Uşaqlara da həmçinin sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqqında tam məlumat verilib. Respondentlər sorğuda iştirakın könüllü olması, istənilən anda sorğunu dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək hüququnun olması barədə ətraflı məlumatlandırılıblar.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

## 1.8. Təlimat

Sorğunun keçirilməsində 15 intervüyer və 2 koordinator iştirak edib. İntervüyerlər üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təlimat qaydaları hazırlanıb.

İntervüyerlər işə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimdə iştirak ediblər. Təlimdə keçirilən sorğunun məqsədi, respondentlərə ünvanlanan suallar və respondentin seçilməsi üsulu barədə geniş izahatlar verilib.

## 1.9. Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün $X^2$ və korrelyasiya testindən istifadə edilib.

**Qeyd: Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.**

## 1.10. Prosesə nəzarət

Keçirilən sorğuların keyfiyyətinə nəzarət etmək üçün hər bir intervüyerin gün ərzində keçirdiyi sorğuların sayı, keyfiyyəti təhlil edilib. Həmçinin, proqramın GPS funksiyası vasitəsilə intervüyerlərin getdiyi ünvanlar, bir ünvanda qalma müddəti gündəlik yoxlanılıb. Bundan əlavə, hər bir sorğuya və sorğuda olan bütün suallara ayrı-ayrılıqda sərf olunan vaxtın müddətinə nəzarət edilib.

# RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ













Valideynin harada işləyir?
Dövlət qurumu
24.7
23.5
Özəl şirkət
13.2
4.1
Kənd təsərrüfatı
10.7
2.9
Sahibkar (biznesi var)
12.8
2.0
Digər
27.1
3.4
İşləmir
9.2
62.9
Rəhmətə gedib
2.4
1.2
0%
20%
40%
60%
80%
Ata
Ana


Valideynin təhsil səviyyəsini qeyd edin
Ali təhsil
24.4
22.2
Peşə-ixtisas təhsili / kollec
9.6
12.0
Tam orta təhsil
48.9
48.4
Ümumi orta təhsil
7.4
9.2
Təhsili yoxdur
1.9
3.2
Bilmirəm
7.8
5.1
0%
10%
20%
30%
40%
50%
Ata
Ana

# I BÖLMƏ.

# ŞƏXSİ İNKİŞAF VƏ ASUDƏ VAXTIN TƏŞKİLİ

**I.1. Uşaqların asudə vaxtını keçirdiyi fəaliyyət sahələri və valideynin üzərinə düşən məsuliyyət**

**I.2. Müasir dövrdə yeniyetmələr/gənclər kimə bənzəmək istəyir?**

Asudə vaxt aparıcı fəaliyyət növünə sərf olunan vaxtdan əlavə qalan boş vaxtdır ki, onun da səmərəli təşkili istənilən yaş dövründə əhəmiyyət daşıyır, fiziki və psixi resursların bərpası, habelə şəxsiyyətin inkişafında özünəməxsus funksiyanı yerinə yetirir. Uşaq və yeniyetmələrin sosial-mədəni və yaradıcı inkişafı onların asudə vaxtının necə keçirilməsindən son dərəcə asılıdır. Asudə vaxtının hansı fəaliyyətlərə həsr olunması yeniyetmə şəxsiyyətinin təşəkkülündə mühüm rol oynadığından, psixoloqlar, pedaqoqlar və sosial işçilər tərəfindən bu həssas dövr diqqət mərkəzindədir. Məsələnin mürəkkəbliyi bir sıra amillərlə şərtlənir. Bura şərti olaraq, daxili və xarici amilləri aid etmək olar. Daxili amillərə hər bir yeniyetmənin fərdi xüsusiyyətləri, maraq dairəsi, şəxsi xarakteri, ünsiyyətçillik səviyyəsi, özünəməxsus qabiliyyətləri aiddir. Onlar hər bir halda unikal kompleks yaradaraq, uşaq və ya yeniyetməni bu və ya digər asudə vaxt formasına yönləndirir, bir və ya bir neçə fəaliyyəti onun üçün cəlbedici və müvəffəqiyyətli edir. Məhz asudə vaxt fəaliyyəti zəminində uşaq və yeniyetmələr özlərini nisbi sərbəst fərdiyyət kimi gerçəkləşdirməyə nail olurlar. Xarici amillərə isə onların yaşadığı mühit, ailənin həyat tərzi və maddi imkanı, geniş sosial şərtlər aiddir ki, onlar da asudə vaxt fəaliyyətinin ümumi kontekstini təşkil edir, yönləndirici funksiyanı yerinə yetirirlər.

Asudə vaxtın düzgün təşkil olunmaması həm böyüməkdə olan gənc nəslin şəxsi inkişafının ləngiməsi və ya yanlış məcraya düşməsinə gətirib çıxarır, onları məqsədsiz təsadüfi məşğuliyyətlərə yönəldir, həm də nəticə etibarilə cəmiyyətdə geniş sosial problemlərin yaranması və dərinləşməsinə yol açır.

Asudə vaxtın keçirilmə tərzi digər həyat sahələrinə də öz təsirini göstərir. Yeniyetməlik və erkən gənclik dövrü isə intensiv idraki və şəxsi inkişafla səciyyələndiyindən bu halda asudə vaxtın rolu müstəsna miqyas kəsb edir. Təsadüfi deyil, bu istiqamət elmi-pedaqoji, sosial-psixoloji tədqiqatların predmetinə çevrilmişdir.

Müasir dövrün xüsusiyyətlərindən biri həm də texnoloji vasitələrin bütün həyat sahələrinə sirayət etməsi, yeni texnologiyaların hər bir yaş, o cümlədən həssas uşaqlar üçün daim yenilənən təkliflər irəli sürməsi, nəticədə isə yeni qarşılıqlı münasibət növləri və tələbatların formalaşdırmasıdır. Belə vəziyyət fəaliyyət formalarını daha da rəngarəng edirsə, digər tərəfdən seçim etməkdə çətinlik, konkret vərdişlərin formalaşmasında maneələr, habelə qeyri-sabit maraq dairəsi, “hər şeyi sınamaq” kimi tələskənliyə, səthiliyə meyil formalaşdırır.

Yeniyetməlik dövrünə gəldikdə isə, J.J.Russonun qeyd etdiyi kimi, bu, bir növ insan şəxsiyyətinin yenidən dünyaya gəldiyi dövrdür. Bu zaman mənlik şüuru, özünüdərketmə, tənqidi və yaradıcı təfəkkür təşəkkül tapır və formalaşır. Məhz bu xüsusiyyətlər adı çəkilən dövrü son dərəcə həssas edir.

Bəzən uşaqlar/yeniyetmələr asudə vaxt fəaliyyətini müstəqil surətdə seçməkdə çətinlik çəkirlər. Onlar dar çərçivəli rol modellərinə istinad etməyə, ən əsası yoldaşlar arasında dəb olan fəaliyyət növlərini seçməyə meyilli olurlar. Bu baxımdan, böyüklərin vəzifəsi uşaqları zəngin, rəngarəng mədəni asudə vaxtlarına yönləndirməkdir ki, bunun da son məqsədi böyüməkdə olan gənc nəslin hərtərəfli şəxsi inkişafına nail olmaqdır. Belə ki, şəxsiyyətin inkişafı məhz məqsədyönlü fəaliyyət və cəmiyyətin mənəvi dəyərlərinin mənimsənilməsindən keçir. Belə fəaliyyət imkanlarının yaradılması, mədəni, yaradıcı, əxlaqi dəyərlərin gənc nəslin maraq və tələbatlarına uyğun tərzdə təbliği uşaq və yeniyetmələrin asudə vaxtının təşkilində müstəsna rol oynayır. Ancaq müasir cəmiyyətin son dərəcə dinamik xarakteri, nəsillərarası varislik probleminin kəskinləşməsi, insanların həyat tərzinin əvvəlki dövrlərə nisbətən daha sürətlə dəyişməsi bu vəzifəni olduqca çətinləşdirir.

Düzgün asudə vaxt mədəniyyəti uşaqlarda ünsiyyət mədəniyyətinin də formalaşmasına zəmin yaradır. Məzmunlu asudə vaxt imkanlarının məhdudluğu isə onlarda

ünsiyyət səriştəsinin inkişaf etməməsini və infantilliyi şərtləndirir. Asudə vaxt fəaliyyəti nəinki idraki və psixoloji inkişaf və sosiallaşma, həm də özünügerçəkləşdirmə vasitəsidir. Asudə vaxtın necə keçirilməsi uşaqların öz həyatından məmnunluq hissinə sirayət edir. Bu fəaliyyətlər gələcək peşə seçiminə də öz təsirini göstərə bilər.

Bu baxımdan Sosial Tədqiqatlar Mərkəzi "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" layihəsi çərçivəsində həyata keçirdiyi kəmiyyət və keyfiyyət sorğusu əsasında ölkədə yeniyetmə və erkən gənclik yaşında olanların asudə vaxtının təşkilinin xüsusiyyətlərini, mövcud problemlərini, müasir dövrün tələblərinə nə dərəcədə uyğunlaşmasını tədqiq edib.

### I.1. Uşaqların asudə vaxtını keçirdiyi fəaliyyət sahələri və valideynin üzərinə düşən məsuliyyət

Uşaqların şəxsi inkişafında və asudə vaxtın təşkilində ailə üçün lazım olan iki əsas amil xüsusi əhəmiyyət kəsb edir: valideynlərin təhsil səviyyəsi və kapitala əlçatanlıq. Sorğuda iştirak edən respondentlərin ailənin maddi durumunun dəyərləndirilməsinə əsasən (imtina edənlər istisna olmaqla), 7,24 %-nin "aşağı gəlirli", 74,5%-nin "orta gəlirli" və 18,3%-nin "yuxarı gəlirli" olması müəyyən edilib. Əlbəttə, təhsilin ailənin gəlirlərilə mühüm əlaqəsi mövcuddur. Valideynlərin təhsilinə görə gəlirlərlə bağlı məlumat Diaqram 1-də təqdim edilir ("imtina" edənlər istisna edilib).

Qeyd edək ki, ailələrin maddi vəziyyəti məktəbli respondentlərin "Ailənin maddi durumu necədir?" sualına verilən cavablar əsasında "aşağı gəlirli", "orta gəlirli" və "yuxarı gəlirli" kateqoriyaları üzrə müəyyənləşib. Burada cavablar məktəbli yeniyetmə və gənclər tərəfindən verildiyi üçün ailənin necə yaşadığına, maddi olaraq nələri almaq gücünə malik olduğuna onların gözü ilə baxılıb. Bununla bağlı daha təfərrüatlı məlumat "Uşaq hüquqları" bölməsində yer alıb.

Respondentlərin cavablarından məlum olur ki, məktəbli yeniyetmə və gənclərin 34,9%-nin dərsdənkənar fəaliyyəti yoxdur. Demək olar ki, təqribən hər 3 respondentdən biri əlavə fəaliyyətlə məşğul olmur.

"Heç nə etmirəm" deyən yeniyetmələrin faiz göstəricisi (VII-IX sinif şagirdlərində) 35,4%-dirsə, yuxarı yaşlara doğru uşaqların boş vaxtının daraldığını müşahidə etmək olur. Belə ki, 10-11-ci sinifdə oxuyan gənclər üzrə bu nisbət 33,9 % olub.

**Diaqram 1. Valideynlərin təhsilinə görə gəlirlərlə bağlı məlumat**

| | Hər iki valideyni orta təhsilli olanlar | Yalnız anası ali və ya peşə/kollec təhsilli olanlar | Yalnız atası ali və ya peşə/kollec təhsilli olanlar | Hər iki valideyni ali və ya peşə/kollec təhsilli olanlar | Valideyninin təhsili barədə məlumatı yoxdur |
|---|---|---|---|---|---|
| Aşağı gəlirli | 61.9% | 6.0% | 10.7% | 10.7% | 10.7% |
| Orta gəlirli | 45.0% | 13.0% | 13.7% | 19.0% | 9.4% |
| Yuxarı gəlirli | 35.8% | 10.4% | 11.8% | 33.0% | 9.0% |

**Diaqram 2. Aşağıdakı hansı fəaliyyət sahələrindən müntəzəm qaydada istifadə edirsən?**

| | Ümumi | Yeniyetmə məktəbli (VII-IX sinif) | Gənc məktəbli (X-XI sinif) |
|---|---|---|---|
| Kitabxanaya gedirəm | 15.7% | 17.8% | 11.4% |
| Kitab mağazasına gedirəm | 6.6% | 5.3% | 9.4% |
| Muzeyə gedirəm | 3.1% | 3.1% | 3.2% |
| Musiqi məktəbinə gedirəm | 6.3% | 7.4% | 4.0% |
| Olimpiya idman kompleksinə gedirəm | 5.4% | 4.4% | 7.4% |
| İdman mərkəzinə gedirəm | 12.2% | 11.6% | 13.4% |
| Gənclər evinə gedirəm | 1.0% | 0.4% | 2.2% |
| Heydər Əliyev Mərkəzinə gedirəm | 5.2% | 4.4% | 6.7% |
| Şahmat məktəbinə gedirəm | 1.6% | 1.6% | 1.7% |
| Mədəniyyət mərkəzinə gedirəm | 1.2% | 1.0% | 1.7% |
| Yaradıcılıq evinə gedirəm | 0.7% | 0.7% | 0.5% |
| Dərnəyə gedirəm | 7.3% | 8.3% | 5.2% |
| Dil kurslarına gedirəm | 11.5% | 10.1% | 14.4% |
| Kompüter kurslarına gedirəm | 2.3% | 2.2% | 2.5% |
| Şəxsi inkişaf və motivasiya təlimlərinə gedirəm | 2.3% | 1.7% | 3.5% |
| Müntəzəm olaraq "Onlayn təlim və görüşlərə qoşuluram" | 8.7% | 8.4% | 9.2% |
| Digər | 3.7% | 3.5% | 4.0% |
| Heç nə etmirəm | 34.9% | 35.4% | 33.9% |

Diaqram 2-dən görünür ki, məktəbli respondentlərin müntəzəm qaydada istifadə etdikləri fəaliyyət sahələri dil kursları (14,4 %), olimpiya və digər idman mərkəzləri ( 7,4 % və 13,4 %), kitabxanalar (11,4 %) və digər sahələrdir. Yaradıcı və şəxsi inkişaf mərkəzlərinə maraq və aktivlik aşağıdır. Məsələn, yaradıcılıq evlərinə və mədəniyyət mərkəzlərinə gedən yeniyetmələr/gənclər 0,5% və 1,7% təşkil edir ki, bu da ürəkaçan bir göstərici deyil.

Asudə vaxtın təşkilinə yaşayış yerinin tipi mühüm təsir edir. Aydındır ki, böyük şəhərdə, qəsəbədə və kənd yerlərində uşaqların şəxsi inkişafını təmin edən fəaliyyət növləri üçün kifayət qədər fərqli imkanlar mövcuddur. Müxtəlif dərnəklərin, kursların, idman məktəblərinin mövcudluğu, şübhəsiz ki, onların inkişafı üçün geniş imkanlar açır. Bu baxımdan, öz-özlüyündə yaşayış yerinin tipi deyil, oradakı infrastrukturun inkişafı xüsusi önəm daşıyır.

Müqayisə üçün dərsdənkənar heç bir yaradıcı inkişaf və fiziki aktiv fəaliyyəti olmayan

("heç nə etmirəm" deyənlər) yeniyetmələr şəhər üzrə 29%-dirsə, kənd yerində 40%-dir. Qəsəbə üzrə isə bu göstərici 33,6 %-dir.

Sorğunun nəticələrinə əsasən, şəhər və qəsəbə yerlərində idman mərkəzlərinə və olimpiya idman komplekslərinə gedən məktəblilər şəhər yerində 17,2 % və 6,3%, qəsəbə üzrə 12,6 % və 4%-dir. Kənd yerlərində isə idman mərkəzlərinə cəmi 8%, Olimpiya idman komplekslərinə isə 4,7% yeniyetmə və gənc məktəbli gedir.

Şəhər və qəsəbələrdə şahmata gedənlər 4 %-dirsə, kənd yerində 0,9 %-dir.

Dil kurslarına gedənlər şəhər üzrə 15,5%, qəsəbə üzrə 11,7 %, kəndlərdə isə cəmi 8,3 %-dir.

Kənd və şəhər üzrə göstəricilərin kəskin fərqlənməsi müxtəlif infrastruktura əlçatanlıq, onun təchizatı, idman və yaradıcı mərkəzlərinin keyfiyyətli fəaliyyəti ilə bağlıdır.

Yaş qrupu üzrə təhlil apardıqda görünür ki, yuxarı siniflərə doğru məktəblilərin fəaliyyət sahələri dəyişir, onlar daha çox özlərini gələcək əmək bazarının tələblərinə hazırlayırlar. Belə ki, musiqi məktəbinə (7,4 %), kitabxanaya (17,8%) və dərnəyə (8,3 %) getmək yeniyetmələr arasında daha populyardır. X-XI siniflərdə oxuyan gənc məktəblilərinin marağı gənclər evi (2,2 %), idman və olimpiya mərkəzləri (20,8 %), dil kursları (14,4 %), "onlayn təlimlər" (9,2 %), Heydər Əliyev Mərkəzində açılmış müxtəlif kurslar (6,7 %), şəxsi inkişaf və motivasiya təlimləri (9,2 %) istiqamətlərinə doğru dəyişir. Maraqlıdır ki, uşaqlar arasında ən populyar fəaliyyət kitabxanaya getməkdir -17,8%.

Yeniyetmə və gənc məktəblilərin gender üzrə təhlili isə göstərir ki, valideynlər övladlarının dərsdənkənar vaxtının tənzimlənməsində cinsi fərq qoymurlar. Hətta dərsdənkənar "heç nə etmirəm" deyənlərin gender nisbətində də kəskin fərq yoxdur. "Heç nə etmirəm" deyənlərin 34,7 %-ni oğlanlar, 35,1%-ni qızlar təşkil edir. Lakin fərdi formada fəaliyyət sahələrinin gender təhlilini apararkən ailə stereotiplərinin uşaqların cins tərbiyəsində oynadığı rolu müşahidə etmək olur.

**Diaqram 3. Aşağıdakı hansı fəaliyyət sahələrindən müntəzəm qaydada istifadə edirsən? (gender bölgüsünə görə)**

| | Oğlanlar | Qızlar |
|---|---|---|
| Kitabxanaya gedirəm | 11.7% | 19.8% |
| Kitab mağazasına gedirəm | 5.2% | 8.1% |
| Muzeyə gedirəm | 2.9% | 3.3% |
| Musiqi məktəbinə gedirəm | 4.5% | 8.1% |
| Olimpiya idman kompleksinə gedirəm | 9.2% | 1.5% |
| İdman mərkəzinə gedirəm | 21.1% | 3.1% |
| Gənclər evinə gedirəm | 1.5% | 0.5% |
| Heydər Əliyev Mərkəzinə gedirəm | 5.7% | 4.6% |
| Şahmat məktəbinə gedirəm | 1.9% | 1.3% |
| Mədəniyyət mərkəzinə gedirəm | 1.0% | 1.5% |
| Yaradıcılıq evinə gedirəm | 0.6% | 0.7% |
| Dərnəyə gedirəm | 5.7% | 8.9% |

| | | |
|---|---|---|
| Dil kurslarına gedirəm | 10.0% | 13.0% |
| Kompüter kurslarına gedirəm | 3.7% | 0.8% |
| Şəxsi inkişaf və motivasiya təlimlərinə gedirəm | 2.3% | 2.3% |
| Müntəzəm olaraq "Onlayn təlim və görüşlərə qoşuluram" | 10.2% | 7.1% |
| Digər | 3.6% | 3.8% |
| Heç nə etmirəm | 34.7% | 35.1% |

Diaqram 3-dən göründüyü kimi, oğlanlar arasında dərsdənkənar asudə vaxtını təşkil etmək üçün getdikləri əsas məkanlar olimpiya idman kompleksləri (9,2 %) və idman mərkəzləri (21,1 %), kitabxana və kitab mağazaları (11,7 % və 5,2 %), dil kursları (10 %), onlayn təlimlərdir (10,2 %). Qız məktəblilər arasında da kitabxana və kitab mağazası (19,8 % və 8,1 %), dil kursları (13,0 %), musiqi məktəbi (8,1%), dərnəklər (8,9 %) üstünlük təşkil edir. Təəssüf ki, qızların fiziki aktivliyi oğlanlarla müqayisədə aşağıdır. Gender bölgüsünün təhlilində statistik əhəmiyyətli fərqi məhz idman məşğuliyyətində müşahidə etmək olur. Oğlan respondentlər arasında idman mərkəzinə və olimpiya idman kompleksinə gedənlər 21,1 % və 9,2 %-dirsə, qızlar arasında bu göstərici cəmi 3,1 % və 1,5% təşkil edir. Bu, oğlan və qız tərbiyəsində gender stereotiplərinin bariz nümunəsidir. Fiziki çəldlik, möhkəmlik ilk növbədə oğlanlara şamil olunduğundan bu fəaliyyətlər məhz onlar üçün təşviq edilir. Əlavə olaraq, idman mərkəzi öz-özlüyündə ictimai məkandır, hansı ki, belə məkanlar da bəzi təsəvvürlərə əsasən, məhz oğlanlar üçün nəzərdə tutulur. Ancaq eyni zamanda kitabxana, kitab dükanı, dil kursları, muzeylərə getmək kimi fəaliyyət sahələrində biz ciddi statistik əhəmiyyətli fərqlər müşahidə etmirik. Yəni burada cins amilinə əsasən fərqli yanaşma sezilmir. Bu, bir daha Azərbaycan ailələrində gender stereotipləri və gender bərabərliyinin bir növ sintezinin gerçəkləşməsini, bəzi hallarda valideynlərin məhz cins amilini əsas tutaraq övladlarını yönləndirməsi, digər hallarda isə əksinə eqalitar təsəvvürlərə uyğun yanaşmasını göstərir.

Yuxarıda yeniyetmə və gənc məktəblilərin asudə vaxtını təşkil etmək üçün valideynlər tərəfindən yönləndirilən fəaliyyət sahələrinin hansının daha öndə olması, bu yöndə valideyn-övlad münasibətlərində önə çıxan bəzi məqamlar yer alıb. Bununla yanaşı, yeniyetmə və gənclərin öz baxışları fonunda asudə vaxtının necə dəyərləndirməsi maraq kəsb edir. Uşaqların boş qalan vaxtlarını necə keçirməsi, maraq dairəsinin nələr olması mühüm məqamlardan biridir.

"Dərsdənkənar vaxtlarında daha çox nə edirsən?" sualına respondentlərin böyük hissəsi dərsdən əlavə boş qalan vaxtlarını kitab oxumaqla keçirdiyini qeyd edib. Məktəbli respondentlərin 43,5%-i kitab oxuduğunu, 38,5%-i dostları ilə görüşdüyünü, 37,5%-i sosial şəbəkələrdə/internetdə vaxt keçirdiyini qeyd edib.

**Diaqram 4. Dərsdənkənar vaxtlarında daha çox nə edirsən? (yaş qrupuna görə)**

| | Ümumi | Yeniyetmə məktəbli (VII-IX sinif) | Gənc məktəbli (X-XI sinif) |
|---|---|---|---|
| Kitab oxuyuram | 43.5% | 46.4% | 37.6% |
| Oyun oynayıram | 19.5% | 23.8% | 10.9% |
| Kompüter oyunları oynayıram | 7.5% | 8.5% | 5.4% |
| İdman edirəm | 23.7% | 22.2% | 26.7% |
| Dostlarımla görüşürəm | 38.5% | 38.9% | 37.6% |
| Cizgi filminə və ya kinoya baxıram | 15.7% | 18.1% | 10.9% |
| Sosial şəbəkədə/internetdə vaxt keçirirəm | 37.5% | 36.3% | 40.1% |
| Parkda gəzintiyə gedirəm | 13.1% | 12.5% | 14.4% |
| Digər | 11.9% | 11.6% | 12.6% |

Diaqram 4-dən görünür ki, yeniyetmələr yuxarı sinifdə oxuyan gənclərə nisbətən asudə vaxtlarında daha çox kitab oxumağa zaman ayıra bilir. VII-IX sinifdə oxuyan respondentlərin 46,4%-i asudə vaxtlarında kitab oxuyurlarsa, X-XI sinifdə oxuyan respondentlərdə bu nisbət 37,6%-ə bərabərdir. Aşağı siniflərdə oxuyan uşaqlar oynamağı (23,8%), dostları ilə görüşməyi (38,9%), cizgi filminə və kinoya baxmağı (18,1%), idmanla məşğul olmağı (22.2%) xoşlayırlar. Yuxarı sinifdə oxuyan məktəblilərin isə həyata baxışı daha çox rəqəmsallaşdığı, informasiya-kommunikasiya texnologiyalarına meyillərinin artdığı hiss olunur. Məsələn, "oyun oynamaq" (10,9 %), "cizgi filminə və ya kinoya baxmaq" (10,9 %) bəndlərinə verilən cavablar uşaqlara nisbətən yeniyetmələrdə aşağıdır. Amma sosial şəbəkədə/internetdə keçirilən vaxt yeniyetmələr arasında daha yüksəkdir - 40,1 %.

Asudə vaxtlarında "parkda gəzintiyə çıxıram" deyən respondentlər cəmi 14,4%-dir. Sorğuda iştirak edən uşaqların verdiyi cavablar əsasında onu demək olar ki, uşaqlar gəzintiyə az çıxır, internet, sosial media asılılığı isə yüksəkdir, yalnız öz çevrəsinə aid dostları ilə məhdud ünsiyyətə sahibdirlər. Beləliklə, məktəblilərin qapalı məkanlarda daha çox, açıq məkanlarda, təmiz havada isə kifayət qədər az olması nəticəsi də üzə çıxır. Bu məqam geniş mənada uşaqların rutin həyat tərzinin təşkili ilə bağlı suallar ortaya çıxarır. Parkların bu qədər qeyri-populyar olmasının səbəbləri nədən ibarətdir? Bu, sadəcə ailə tərbiyəsinin nəticəsi, yoxsa yaşayış məntəqələrində əhali sayına uyğun rahat park və gəzinti yerlərinin çatışmamasından qaynaqlanır? Bu və bu kimi suallar onların sağlam həyat tərzinin təşkilinə dair növbəti, daha spesifik tədqiqatlara yol açır.

Bu bölmənin gender təhlilini apardıqda qızların oğlanlara nisbətən ətraf mühitlə daha zəif kommunikasiya yaratdıqlarını, dostları ilə az vaxt keçirdiklərini, fiziki olaraq daha passiv fəaliyyət göstərdiklərini görmək olur. "Oyun oynayıram" və "Dostlarımla görüşürəm" deyən qız məktəblilərin göstəricisi 11,7%-ə və 27,1%-ə dəyişir. Oğlar məktəblilərdə isə müvafiq göstərici 27,2% və 49,8%-dir.

İdmanla məşğul olan qız uşaqları isə 9,1% təşkil edir. Qız məktəblilər asudə vaxtlarını kitab oxumaqla keçirməyə üstünlük verirlər. "Kitab oxuyuram" deyən qızların nisbəti 55,8%-dir. Oğlanların isə 31,4 %-i kitab oxuduğunu qeyd edib.

İnternet və sosial mediadan asılılıq cinsindən asılı olmayaraq bərabər səviyyədədir. Sorğuda iştirak edən oğlanlarda bu cavab üzrə göstərici 37,9 %, qızlarda 37,1 %-dir.

**Diaqram 5. Dərsdənkənar vaxtlarında daha çox nə edirsən? (gender bölgüsünə görə)**

| | Oğlanlar | Qızlar |
|---|---|---|
| Kitab oxuyuram | 31.4% | 55.8% |
| Oyun oynayıram | 27.2% | 11.7% |
| Kompüter oyunları oynayıram | 11.2% | 3.8% |
| İdman edirəm | 38.1% | 9.1% |
| Dostlarımla görüşürəm | 49.8% | 27.1% |
| Cizgi filminə və ya kinoya baxıram | 13.1% | 18.3% |
| İnternetdə vaxt keçirirəm | 37.9% | 37.1% |
| Parkda gəzintiyə gedirəm | 16.0% | 10.1% |
| Digər | 8.6% | 15.3% |

Respondentlərdən alınan cavablara görə valideynlər uşaqları ilə daha çox televizor qarşısında vaxt keçirir. "Evdə olarkən valideynlərinlə birlikdə vaxtınızı necə keçirirsiniz?" sualına gələn cavablardan məlum olur ki, 64,5 %-i "televizora baxırıq" cavabını seçir, 42,0 %-i "birlikdə ev işləri görürük" cavabını qeyd edir. 3,8 % məktəbli valideyni ilə birlikdə vaxt keçirmədiyini bildirir. 45,5 %-i isə evdə valideynləri ilə müxtəlif müzakirələrdə iştirak etdiyin qeyd edib. "Digər" bölməsinə gələn cavabların 1,1 % olması onu deməyə əsas verir ki, ailələrdə valideynlər övladlarına səmərəli vaxt ayıra bilmir.

**Diaqram 6. Evdə olarkən valideynlərinlə birlikdə vaxtınızı necə keçirirsiniz? (yaş qrupuna görə)**

| | Ümumi | Yeniyetmə məktəbli (VII-IX sinif) | Gənc məktəbli (X-XI sinif) |
|---|---|---|---|
| Televizora baxırıq | 64.5% | 65.6% | 62.4% |
| Masaüstü oyun oynayırıq | 18.4% | 21.0% | 13.1% |
| Kompüter oyunları oynayırıq | 3.3% | 4.2% | 1.5% |
| Kitab oxuyuruq | 12.2% | 12.6% | 11.4% |
| Müxtəlif mövzularda müzakirələr edirik | 45.5% | 43.2% | 50.0% |
| Birlikdə ev işləri görürük | 42.0% | 44.6% | 36.9% |
| Digər | 1.1% | 1.0% | 1.2% |
| Valideynlərimlə birlikdə vaxt keçirmirik | 3.8% | 3.1% | 5.2% |

Valideynlərin övladları ilə müxtəlif mövzularda müzakirələri gənclik dövrünə qədəm basan məktəblilər arasında daha intensivdir. Belə ki, yeniyetmə respondentlərin 43,2%-i valideynləri ilə müzakirələrə qoşulursa, gənc məktəblilərdə bu göstərici 50 % təşkil edir.

Qızların 60,2%-i, oğlanların isə 68,7%-i valideynləri ilə televizor qarşısında vaxt keçirirlər.

**Diaqram 7. Evdə olarkən valideynlərinlə birlikdə vaxtınızı necə keçirirsiniz? (gender bölgüsünə görə)**

| | Oğlanlar | Qızlar |
|---|---|---|
| Televizora baxırıq | 68.7% | 60.2% |
| Masaüstü oyun oynayırıq | 19.9% | 16.8% |
| Kompüter oyunları oynayırıq | 5.2% | 1.3% |
| Kitab oxuyuruq | 14.1% | 10.2% |
| Müxtəlif mövzularda müzakirələr edirik | 42.9% | 48.0% |
| Birlikdə ev işləri görürük | 35.2% | 49.0% |
| Digər | 1.0% | 1.2% |
| Valideynlərimlə birlikdə vaxt keçirmirik | 3.7% | 3.8% |

Beləliklə, birgə məşğuliyyətlər arasında faktiki olaraq passiv fəaliyyət - televizora baxmaq ön sıradadır. Bu, təqdirəlayiq hal olmasa da, müxtəlif mövzuların müzakirəsinin heç olmasa ikinci yerdə olması bir qədər kompensasiyaedici amildir. Belə ki, məhz birgə müzakirələr vasitəsilə yeniyetmələrdə özünəhörmət, öz fikrini ifadə etməkdən çəkinməmək, özünəinam formalaşır. Lakin qeyd edək ki, burada öz-özlüyündə müzakirələrin olub-olmaması deyil, onların emosional tonu, böyüklərin yeniyetmənin fikir və mülahizələrinə yanaşma tərzi həlledici rol oynayır.

Məlumdur ki, yeniyetməlik dövründə yaşıdlarla ünsiyyət mühüm yer tutur. Lakin bu o demək deyil ki, böyüklərlə ünsiyyət heç bir önəm daşımır. Psixoloqlar qeyd edir ki, hər bir halda yeniyetmə ilə kommunikasiyanın qorunub-saxlanılması ailədaxili münasibətlərdə ən önəmli yer tutur. Məhz kommunikasiyanın keyfiyyəti yeniyetməlik böhranını ziyansız adlamağa yardım etmiş olur. Kommunikasiya isə ən çox birgə fəaliyyət zəminində qurulur, cərəyan edir. Bu baxımdan, yeniyetmələrin valideynləri ilə birlikdə hər hansı fəaliyyətlərlə məşğul olmasının xüsusi əhəmiyyəti vardır.

Qeyd etmək lazımdır ki, yeniyetmənin valideynləri ilə hər iki tərəfə xoş olan birgə məşğuliyyətləri təşəkkül prosesində olan yeniyetmə şəxsiyyətinin özünüqiymətləndirməsinin adekvat, eyni zamanda onun emosional təhlükəsizliyə tələbatının ödənməsini təmin edir.

Burada diqqət çəkən məqamlardan biri “birlikdə ev işləri” görürük bəndinə verilən cavabdır. Respondentlərin 42%-i valideynləri ilə birlikdə ev işləri gördüklərini bildiriblər. VII-IX sinifdə təhsil alan məktəblilərin 44,6%-i, X-XI sinifdə təhsil alan məktəblilərin isə 36,9 %-i ev işlərinə cəlb olunduğunu deyib.

Respondentlərin maddi vəziyyəti, gender və regional təsnifatlarına uyğun təhlil apardıqda bəzi narahatedici məqamlar özünü göstərir. Beləliklə, “Birlikdə ev işləri görürük” bəndi üzrə nəticələr:

Maddi duruma görə:
- ağaşı gəlirli ailələrdə - 52,4 %
- orta gəlirli ailələrdə - 42,1 %
- yüksək gəlirli ailələrdə - 38,2%

Cins bölgüsünə görə;
- qızlar - 49 %
- oğlanlar - 35,2 %

Regional bölgüyə görə
- şəhər yerində - 32,3%
- qəsəbə yerində - 40,4 %
- Kənd yerində - 51,5%.

Bu üç təsnifata uyğun olaraq, demək olar ki, yoxsul ailələrdə uşaqların ev işlərinə cəlb olunması yüksəkdir. Bu da gözlənilən haldır. Belə ki, maddi cəhətdən yük-

sək yaşayışlı ailələrdə ev işlərinin yerinə yetirilməsinə muzdlu ev xidmətçilərinin cəlb olunması praktikası yayılmaqdadır. Maddi cəhətdən orta təbəqəyə gəldikdə isə, adətən, bu təbəqə övladlarının təhsil uğurlarında daha maraqlı olduğundan onların vaxtını həddən artıq ev işlərinə sərf etməməyə çalışırlar.

Lakin kənd yerlərində bu rəqəmin çox yüksək olması ($X^2(2)=37.447$, $p<0.01$) uşaqların fərdi təsərrüfat işlərinə cəlb edilməsi risklərini göstərir. Fərdi təsərrüfatlarda oğlanlar risk qrupuna daxildirsə, statistik nəticələrdən göründüyü kimi, ev işlərində valideynlərə yardım edilməsində qızlara qarşı ayrı-seçkilik müşahidə olunur $X^2(1)=24.034$, $p<0.01$). Bu göstəricilər "ev işləri daha çox qadın işidir" kimi gender stereotiplərinə uyğundur və bir daha bu stereotipin müasir ailələrdə tərbiyə prosesində gələcək nəsillərə ötürülməsini göstərir.

Əlbəttə, burada "ev işləri"nin cəlbindən söhbət gedərkən hansı kateqoriyaya aid olduğunu müəyyən etmək bir qədər çətindir. Nəzərə alsaq ki, məktəbli respondentlərin cəmi 3,6%-i işlədiyini bildirib, o zaman ölkədə uşaq əməyinin yüksək istismarından danışa bilmərik. "Uşaq əməyi" bölməsində bu haqda daha ətraflı təhlil yer alıb. Bütün hallarda sözügedən bənd Azərbaycanın da qoşulduğu beynəlxalq uşaq hüquqlarına dair konvensiyalara uyğun olaraq "uşaq əməyinin istismarı" kimi də tövsif edilə və müəyyən qədər həyəcanverici bir siqnal ola bilər. Digər beynəlxalq əmək təsnifatında ev işləri "qarşılıq ödənişi olmayan iş" hesab edilir. Uşaqların ev və fərdi təsərrüfat işlərinə cəlbi uşaq əməyinin istismarı ilə yanaşı, təhsildən yayınma risklərini artırır, səmərəli, intellektual inkişafa yönələn asudə vaxtının təşkilində əngəllər yaradır.

Lakin yuxarıda qeyd edilənlərlə yanaşı, valideynlər tərəfindən uşaqların ev işlərinə cəlb olunmasını onlarda hər hansı bir əmək vərdişinin yaranması kimi də dəyərləndirmək olar. Yəni bu bənd üzrə hər iki kateqoriyadan olan ailələrin mövcud olması istisna deyil.

Ümumiyyətlə isə uşaqların problemlərinin həlli ilə bağlı məsələlərdə sahə müvəkkili amili xüsusilə önə çıxıb. Ekspertlər sahə müvəkkili institutunun inkişafı sayəsində dövlətin aidiyyətı orqanlarının problemli, yaxud potensial problemli uşaqların müəyyən edilməsi imkanlarının güclənəcəyini düşündüklərini müxtəlif formalarda ifadə ediblər.

*"Regionlarda bu gün təkcə istismar olunan deyil, fiziki zorakılıq, sosial asılılığa gətirib çıxaran şəraitdə yaşayan və təhsildən yayınan yetərincə uşaqlarımız var. Onlar potensial insan alveri qurbanlarıdır. Təhsil Nazirliyi, müvafiq qurumlar bununla bağlı ciddi ölçü götürməlidirlər. Bu, icra hakimiyyətləri yanında birgə komissiya formasında həyata keçirilməlidir. Sahə müvəkkilləri uşaqlarını təhsildən yayındıran ailələrlə işləyə bilər". /Kəmalə Ağazadə/*

*"Valideynlərdə məsuliyyət hissini artırmaq üçün onlarla işləyəcək sosial işçilər lazımdır, polisin işi isə azaldılmalıdır. Məsələlər qanunvericilik çərçivəsində tənzimlənməlidir. Dövlətin ailələrdəki uşaqlardan xəbəri olmalıdır, valideyn uşağa baxır, yoxsa baxmır, məktəbə gedir, yoxsa getmir". /Rafiq Alışov/*

Yeri gəlmişkən, ailədə valideynlərin təhsil səviyyəsi və gəlirləri övladlarının asudə vaxtının təşkili üçün vacib amillərdən sayılır. Valideynlərin təhsil səviyyəsinə uyğun aparılan korrelyasiyadan aydın olur ki, hər iki valideyn ali təhsillidirsə, onları digər kateqoriyalardan olan valideynlərlə (orta təhsilli və ya valideynlərdən biri ali təhsilli olan) müqayisədə uşaqlarının asudə vaxtını daha səmərəli təşkil etdiyini müşahidə etmək olur.

Dərsdənkənar heç bir fəaliyyət sahəsilə məşğul olmadığını deyən respondentlərin 40,2%-nin hər iki valideyni orta təhsilli, 21,6%-nin isə hər iki valideyni peşə/kollec və ali təhsillidir. Hər iki valideyni ali təhsilli

olan ailələrdə uşaqlarını daha çox idmana, musiqiyə, əqli və şəxsi inkişaf üçün yaradıcılıq mərkəzlərinə qoyduğu, muzeylərə və müxtəlif gəzintilərə çıxarması müşahidə olunur. Hər iki valideynin orta təhsilli olan məktəblilər arasında ən yüksək müsbət göstərici yalnız kitab oxumaqla bağlıdır - 46,0%. Qeyd edək ki, asudə vaxtımda "kitab oxuyuram" deyən və hər iki valideyni ali təhsilli olan məktəblilərin göstəricisi 39,6 %-dir.

**Diaqram 8. Aşağıdakı hansı fəaliyyət sahələrindən müntəzəm qaydada istifadə edirsən? (valideynlərin təhsil səviyyəsinə görə)**

| | Hər iki valideyni orta təhsilli olan | Hər iki valideyni peşə/kollec və ali təhsilli olan |
|---|---|---|
| Kitabxanaya gedirəm | 17.8% | 11.0% |
| Kitab mağazasına gedirəm | 4.9% | 11.4% |
| Muzeyə gedirəm | 2.9% | 4.3% |
| Musiqi məktəbinə gedirəm | 5.6% | 6.3% |
| Olimpiya idman kompleksinə gedirəm | 4.5% | 7.8% |
| İdman mərkəzinə gedirəm | 11.2% | 15.3% |
| Gənclər evinə gedirəm | 0.7% | 1.6% |
| Heydər Əliyev Mərkəzinə gedirəm | 3.6% | 7.5% |
| Şahmat məktəbinə gedirəm | 0.9% | 2.0% |
| Mədəniyyət mərkəzinə gedirəm | 1.3% | 1.6% |
| Yaradıcılıq evinə gedirəm | 0.2% | 1.6% |
| Dərnəyə gedirəm | 7.4% | 5.9% |
| Dil kurslarına gedirəm | 7.8% | 20.8% |
| Kompüter kurslarına gedirəm | 1.3% | 4.7% |
| Şəxsi inkişaf və motivasiya təlimlərinə gedirəm | 1.3% | 4.3% |
| Müntəzəm olaraq "Onlayn təlim və görüşlərə qoşuluram" | 7.1% | 14.5% |
| Digər | 3.4% | 3.1% |
| Heç nə etmirəm | 40.2% | 21.6% |

**Diaqram 9. Dərsdənkənar vaxtında daha çox nə edirsən? (valideynlərin təhsil səviyyəsinə görə)**

| | Hər iki valideyni orta təhsilli olan | Hər iki valideyni peşə/kollec və ali təhsilli olan |
|---|---|---|
| Kitab oxuyuram | 46.0% | 39.6% |
| Oyun oynayıram | 19.0% | 17.6% |
| Kompüter oyunları oynayıram | 7.6% | 8.6% |
| İdman edirəm | 23.2% | 25.1% |
| Dostlarımla görüşürəm | 37.7% | 40.0% |
| Cizgi filminə və ya kinoya baxıram | 14.5% | 13.7% |
| İnternetdə vaxt keçirirəm | 34.6% | 42.4% |
| Parkda gəzintiyə gedirəm | 11.6% | 16.9% |
| Digər | 9.8% | 13.3% |

Hər iki valideyni ali təhsilli olan ailələrdə bütövlükdə asudə vaxt təşkilinin göstəricilərinin yüksək olmasına rəğmən, “kitab oxuyuram” variantının orta təhsilli valideynlərin övladları üçün yüksək müsbət göstərici olması, zənnimizcə, təsadüfi deyildir. Birincisi, ali təhsilli valideynlərin maddi vəziyyəti və sosial çevrəsinin xüsusiyyətləri övladlarını daha fərqli, müxtəlif fəaliyyət sahələrinə cəlb etməyə imkan verir. Ümumiyyətlə, bütün qlobal trendlər təhsil səviyyəsi artdıqca uşağı hərtərəfli inkişaf etdirməyin tərbiyə məqsədinə çevrilməsini göstərir. Digər tərəfdən, biz orta təhsilli valideynlərin övladlarının dərsdənkənar inkişafına laqeyd olması nəticəsinə gələ bilmərik. Ancaq bir qayda olaraq təhsil səviyyəsi sosial kapitalı, çevrədəki insanların təlqin etdiyi məqsədləri və eyni zamanda maddi resursları şərtləndirir. Bu mənada bu valideynlər ola bilsin ki, övladlarının asudə vaxtını daha rəngarəng etmək istəyirlər, ancaq bunun yol və vasitələri onlar üçün daha məhduddur. Digər tərəfdən, məhz “kitab oxuyuram” variantının yüksək faiz toplamasını da təsadüfi hesab etmək olmaz. Kitab oxumaq nisbətən az məsrəf tələb edən məşğuliyyətdir, həm də dolayı yolla valideynlərin öz övladlarını savadlı görmək kimi arzusunu və tələbini ifadə edə bilər.

“Hər iki valideyni ali təhsilli olan” və “valideynlərdən yalnız atanın peşə/kollec və ya ali təhsilli” olan respondentlərin göstəricilərini digər kateqoriyalarla müqayisəli təhlil etdikdə maraqlı nəticələr müşahidə olunur. Belə ki, valideynlərin, xüsusilə atanın ali təhsil alması ailənin gəlirlərində öz müsbət töhfəsini verir. Belə ki, yalnız ananın təhsili ali və peşə/kollec yönümlü olan respondentlərin 36,3%-i bildirib ki, dərsdənkənar heç bir fəaliyyətlə məşğul olmur. Yalnız atanın təhsili ali və peşə/ixtisas yönümlü olan respondentlərin isə 29%-i qeyd edib ki, dərsdənkənar heç bir fəaliyyətlə məşğul olmur.

Bundan başqa, kitabxanaya, idman mərkəzinə, Heydər Əliyev Mərkəzində təşkil olunan müxtəlif kurs və dərnəklərə, dil və kompüter kurslarına, müxtəlif yaradıcılıq mərkəzlərinə gedən məktəblilərin təhsilinə görə müqayisəsini apardıqda, yalnız atanın təhsili ali və kollec/peşə yönümlü olan ailələrin göstəriciləri nisbətən yüksəkdir.

**Diaqram 10. Aşağıdakı hansı fəaliyyət sahələrindən müntəzəm qaydada istifadə edirsən? (valideynlərdən yalnız birinin təhsilinin ortadan yuxarı olmasına görə)**

| | Yalnız ananın təhsili peşə/kollec və ali olan | Yalnız atanın təhsili peşə/kollec və ali olan |
|---|---|---|
| Kitabxanaya gedirəm | 12.3% | 20.0% |
| Kitab mağazasına gedirəm | 6.8% | 7.1% |
| Muzeyə gedirəm | 3.4% | 2.6% |
| Musiqi məktəbinə gedirəm | 8.2% | 7.7% |
| Olimpiya idman kompleksinə gedirəm | 4.1% | 9.7% |
| İdman mərkəzinə gedirəm | 11.0% | 12.9% |
| Gənclər evinə gedirəm | 0.7% | 1.9% |
| Heydər Əliyev Mərkəzinə gedirəm | 2.7% | 9.0% |
| Şahmat məktəbinə gedirəm | 2.1% | 3.2% |
| Mədəniyyət mərkəzinə gedirəm | 0.7% | 1.9% |
| Yaradıcılıq evinə gedirəm | 1.4% | 0.6% |
| Dərnəyə gedirəm | 7.5% | 7.7% |
| Dil kurslarına gedirəm | 11.6% | 13.5% |
| Kompüter kurslarına gedirəm | 1.4% | 3.9% |
| Şəxsi inkişaf və motivasiya təlimlərinə gedirəm | 3.4% | 1.9% |
| Müntəzəm olaraq “Onlayn təlim və görüşlərə qoşuluram” | 8.2% | 7.7% |
| Digər | 5.5% | 4.5% |
| Heç nə etmirəm | 36.3% | 29.0% |

**Diaqram 11. Dərsdənkənar vaxtında daha çox nə edirsən? (valideynlərdən yalnız birinin təhsilinin ortadan yuxarı olmasına görə)**

| | Yalnız ananın təhsili peşə/kollec və ali olan | Yalnız atanın təhsili peşə/kollec və ali olan |
|---|---|---|
| Kitab oxuyuram | 35.6% | 51.6% |
| Oyun oynayıram | 19.9% | 20.0% |
| Kompüter oyunları oynayıram | 6.8% | 6.5% |
| İdman edirəm | 20.5% | 25.2% |
| Dostlarımla görüşürəm | 41.1% | 36.1% |
| Cizgi filminə və ya kinoya baxıram | 16.4% | 16.1% |
| İnternetdə vaxt keçirirəm | 34.9% | 34.8% |
| Parkda gəzintiyə gedirəm | 14.4% | 12.3% |
| Digər | 12.3% | 16.1% |

Statistik təhlillərdən aydın olduğu kimi, valideynlərin malik olduqları təhsil səviyyəsi uşaqların asudə vaxtının təşkilində daha rahat kapital yönəltmək şansını artırır. Yuxarıda diaqram 1-də təqdim edilən ata və ananın təhsil səviyyəsinə görə ailənin maddi durumu arasında korrelyasiyadan da görmək olur ki, ali və peşə təhsili alan fərdlərin dolanışığını yüksək qurması şansı çox olur. Kapital əldə etmək imkanlarının genişlənməsi ailələrdə uşaqların intellektual və fiziki inkişafına yönələn fəaliyyət sahələrinə cəlb etməyə imkan verir.

Beləliklə, dərsdənkənar heç bir fəaliyyəti olmayan məktəblilər arasında özünü aşağı gəlirli hesab edənlərin nisbəti digərlərindən daha yüksəkdir ($X^2(2)=11.068$, $p<0.01$). "Heç nə etmirəm" deyənlərdən 46,4 %-i "aşağı gəlirli", 35,5 %-i "orta gəlirli", 26,9 %-i "yuxarı gəlirli" ailələrdir.

**Diaqram 12. Aşağıdakı hansı fəaliyyət sahələrindən müntəzəm qaydada istifadə edirsən? (ailələrin maddi vəziyyətinə görə)**

| | Aşağı gəlirli | Orta gəlirli | Yüksək gəlirli |
|---|---|---|---|
| Kitabxanaya gedirəm | 15.5% | 16.2% | 15.1% |
| Kitab mağazasına gedirəm | 6.0% | 6.9% | 7.5% |
| Muzeyə gedirəm | 2.4% | 3.5% | 2.4% |
| Musiqi məktəbinə gedirəm | 7.1% | 6.5% | 5.7% |
| Olimpiya idman kompleksinə gedirəm | 0.0% | 5.2% | 8.0% |
| İdman mərkəzinə gedirəm | 10.7% | 11.7% | 15.1% |
| Gənclər evinə gedirəm | 0.0% | 0.9% | 1.9% |
| Heydər Əliyev Mərkəzinə gedirəm | 6.0% | 4.1% | 9.0% |
| Şahmat məktəbinə gedirəm | 1.2% | 1.7% | 1.4% |
| Mədəniyyət mərkəzinə gedirəm | 1.2% | 1.2% | 1.9% |

| | | | |
|---|---|---|---|
| Yaradıcılıq evinə gedirəm | 0.0% | 0.7% | 0.9% |
| Dərnəyə gedirəm | 4.8% | 7.3% | 7.1% |
| Dil kurslarına gedirəm | 4.8% | 10.6% | 17.0% |
| Kompüter kurslarına gedirəm | 2.4% | 2.4% | 2.4% |
| Şəxsi inkişaf və motivasiya təlimlərinə gedirəm | 1.2% | 2.3% | 3.3% |
| Müntəzəm olaraq "Onlayn təlim və görüşlərə qoşuluram" | 4.8% | 8.7% | 10.4% |
| Digər | 3.6% | 3.4% | 3.3% |
| Heç nə etmirəm | 46.4% | 35.5% | 26.9% |

Diaqram 12-dən də göründüyü kimi, maddi durumu orta və yüksək göstəriciyə sahib olan respondentlər idman mərkəzlərinə, əqli və şəxsi inkişaf mərkəzlərinə, müxtəlif dərnəklərə, dil kurslarına aşağı gəlirli ailələrdən daha çox vaxt ayıra bilir.

Asudə vaxtının keçirilməsindəki imkan məhdudluğunu fokus qrupunda iştirak edən ekspertlər başlıca problem olaraq görürlər. Onlar uşaqların şəxsi inkişafını və asudə vaxtını səmərəli təşkil etmək üçün müəyyən təkliflər səsləndiriblər. Ekspertlər əlavə olaraq maddi imkanları məhdud ailələrdəki uşaqların sırf maddi problemlər və onların yaratdıqları öhdəlikləri (məsələn, təhsili dayandıraraq uşaq əməyi ilə məşğul olmaq) asudə vaxtının səmərəli keçirilməsindəki əngəl kimi gördüyünü bildiriblər.

*"Uşaqlar asudə vaxtlarını səmərəli keçirə bilmirlər. Onlar daha çox bütün gün dərs oxuyurlar hazırlığa gedirlər. Məncə, onların asudə vaxtlarınn təşkilində problem var. İkincisi, oyun meydançaları, xüsusən də fiziki inkişafla bağlı olan oyun yerləri demək olar ki, yoxdur. Çox təəssüf ki, biz bu problemləri daha çox Bakıda görürük. 440.000-ə yaxın uşaq var. O resurslardan istifadə edə bilmirlər, mənə görə, asudə vaxtın səmərəli istifadəsi üçün xüsusi kitab mərkəzləri olmalıdır. Stadion, üzgüçülük zalları olmalıdır. Bu kimi xidmətlərə pulsuz şəkildə əlçatanlıq təmin edilməlidir. Aidiyyəti qurumlar yetərli işlər görmürlər. Hündürmərtəbəli binalar tikiləndə mütləq uşaqların asudə vaxtlarını keçirməsi üçün yerlər təşkil edilməlidir. Bu, əslində bütün binalarda qeydə alınmalıdır. Uşaq düşərgələri yaradılmalıdır". /Kamran Əsədov/*

*"Azərbaycan Respublikası qanunvericiliyində istirahət hüququ ilə bağlı maddə var. İstirahət hüququ insan haqlarının başlıca predmetidir. Bizdə az gəlir olduğundan ailələrin istirahət anlayışı yoxdur. Az gəlirlə həyatda qalmaq mübarizəsi apara bilirlər. Digər hüquqlara zaman ayırmağa imkan olmur. Asudə vaxta nəzarət etmək çətindir. Sovet dövründə klublar, teatrlar, dərnəklər və s. vardı. Hazırda bazar iqtisadiyyatı olduğundan hər kəs özü öz üzərində işləməlidir. Biz də postsovet ölkəsi olduğumuza görə bir az bu məqamda toqquşmalar var". /Fərid Cəfərov/*

*"Uşaqların istirahətinin təşkil edilməsi üçün uşaq turizmi inkişaf etdirilməlidir. Ölkəmizdə belə təcrübə nisbətən zəifdir, xarici təcrübəni öyrənib, bu istiqamətdə addımlar atmaq lazımdır". /Elşad Mirbəşiroğlu/*

## I.2. Müasir dövrdə yeniyetmələr/ gənclər kimə bənzəmək istəyir?

Yeniyetmələrin və erkən gənc yaşda olanların özünüdərketməsinin inkişafı, həmçinin ətrafdakılarla ünsiyyətdə müəyyən oriyentirlərə bələd olmasında onların seçdiyi, şəxsiyyətini və davranışını nümunə kimi gördüyü insanların kimliyi önəmlidir. Bu insanlar ailə çevrəsindən və ailədən kənar insanlar ola bilər. Ailədəki “kumir”lər ailə strukturu və münasibətlərin xarakterindən asılıdırsa, ailədən kənar, xüsusilə məşhur şəxslərin kumir kimi seçilməsi böyüməkdə olan gənc nəslə kütləvi informasiya vasitələrinin necə təsir etdiyini göstərir. Bu baxımdan aşağıdakı ikihissəli suala verilən cavablar maraq doğurur.

İlk növbədə, ailə daxilində nümunə kimi görülən şəxslərin respondentlər tərəfindən necə seçilməsinə nəzər salaq. Ümumi faiz göstəricilərində nəzərəçarpan əsas məsələ ata və ananın qazandığı faiz göstəricilərinin digər ailə üzvlərinin qazandığı faizlərdən kəskin fərqlə irəlidə olmasıdır. Bu, öz-özlüyündə labüd görünsə də, eyni zamanda dolayı yolla uşaqların məhz nuklear ailə üzvlərinə yönümlü olmasının göstəricisi ola bilər. Ancaq diqqəti cəlb edən digər məsələ ailədə heç kimi nümunə kimi görməyən respondentlərin statistik əhəmiyyətli 8,1% toplamasıdır, yəni təqribən hər 10 məktəblidən biri ailəsindəki heç kimin davranışı və şəxsiyyətini nümunə kimi görmür.

**Diaqram 13. Ailə üzvləri və qohumlarından daha çox kimi özünə nümunəvi şəxs kimi götürmüsən?**

| | Ümumi | Oğlanlar | Qızlar |
|---|---|---|---|
| Ata | 32.8% | 44.2% | 21.1% |
| Ana | 27.6% | 12.5% | 43.1% |
| Qardaş | 3.8% | 5.7% | 2.0% |
| Bacı | 3.9% | 2.3% | 5.6% |
| Baba | 4.2% | 6.2% | 2.1% |
| Nənə | 3.4% | 2.4% | 4.3% |
| Əmi | 4.0% | 6.2% | 1.8% |
| Dayı | 4.7% | 7.0% | 2.5% |
| Xala | 2.1% | 0.8% | 3.5% |
| Bibi | 2.1% | 0.6% | 3.6% |
| Digər | 3.1% | 3.2% | 3.0% |
| Heç kimi | 8.2% | 8.9% | 7.4% |

Diaqram 13-dən göründüyü kimi, bütün göstəricilər yeniyetmənin ailədə kimi özünə nümunə seçməsini gender amili ilə bilavasitə şərtləndiyini sübut edir. Məsələn, atanı oğlanların 44,2%-i, qızların isə 21,1%-i seçib. Əksinə, ananı nümunə kimi göstərənlərin 43,1%-i qız, 12,5%-i oğlandır. Eyni qanunauyğunluğu babanı daha çox oğlanların, nənəni qızların seçməsini, daha sonra bibi, xala, əmi, dayı seçimində də görə bilərik. Bu, bir daha sübut edir ki, nümunə kimi seçilən şəxs yetişməkdə olan şəxsiyyətin özünü identifikasiya etdiyi, davranışlarını ona nəzərən qurduğu insandır.

Ailədən kənar, müxtəlif peşələrə aid olan şəxslərin seçimi isə aşağıdakı kimidir:

**Diaqram 14. Məşhur şəxslərdən daha çox kimi özünə nümunəvi şəxs kimi götürmüsən?**

| | Ümumi | Oğlanlar | Qızlar |
|---|---|---|---|
| Film qəhrəmanı | 4.3% | 4.1% | 4.6% |
| İdmançı | 13.5% | 25.0% | 1.8% |
| Müğənni | 5.4% | 2.3% | 8.6% |
| Alim | 5.5% | 3.4% | 7.6% |
| Aktyor | 4.2% | 2.8% | 5.6% |
| Hərbçi | 11.0% | 16.0% | 5.8% |
| Dövlət adamı | 3.1% | 1.9% | 4.3% |
| Həkim | 4.3% | 1.5% | 7.3% |
| Biznesmen | 1.9% | 2.9% | 0.8% |
| Jurnalist | 1.6% | 0.5% | 2.8% |
| Bloger | 2.9% | 3.1% | 2.6% |
| Digər | 5.2% | 3.9% | 6.6% |
| Heç kimi | 37.1% | 32.7% | 41.6% |

İlk növbədə diqqəti cəlb edən məqam respondentlərin böyük bir hissəsinin ailədən kənar heç kimi nümunə kimi görməməsidir. Ümumi faiz göstəricilərində hərbçi və idmançı peşələrindən olan şəxslər üstünlük təşkil etsə də, sualın gender bölgüsünə əsaslanan göstəriciləri daha aydın mənzərəni ortaya çıxarmağa imkan yaradır.

Gender bölgüsündə aydın olur ki, idmançı və hərbçi peşələrindən olan insanlar əsasən məhz oğlanlar tərəfindən seçilir. İdmançıları oğlanların 25%-i, qızların cəmi 1,8%-i seçibsə, hərbçiləri 16% oğlanlar, 5,8% qızlar seçiblər. Belə faiz fərqləri anlaşılan və tərbiyəyə gender yanaşmasına uyğundur. Yuxarıdakı suallarda da biz oğlanların idmana daha çox yönəldildiklərinin bir növ ənənə olduğunu qeyd etmişdik. Bu sualda məhz idmançıların nümunə (kumir) kimi oğlanlar tərəfindən seçilməsi də belə yanaşmanın labüd nəticəsidir. Güclü və cəld olmaq, qalib gəlib çempion olmaq kimi məqsədlər tərbiyə prosesində məhz oğlanlara daha çox aşılanır. Odur ki, elə oğlanlar da müvafiq qəhrəmanları nümunə seçirlər. Hərbçi peşəsindən olan şəxslərin əsasən oğlanlar tərəfindən nümunə kimi seçilməsi də anlaşılandır. Belə ki, hərb sahəsi ənənəvi olaraq oğlanlara şamil olunan sahədir. Ona görə də bu sahədə oğlan və qızların göstəricilərində statistik əhəmiyyətli fərqlər aşkar olunub.

Nəzərəçarpan statistik fərq respondentlər arasında ailədən kənar heç kimi nümunə kimi görməyən qızların oğlanlardan daha çox olmasıdır. “Heç kimi” bəndini oğlanların 32,7%-i seçibsə, qızlar arasında bu göstərici 41,6%-dir. Güman etmək olar ki, bu da ümumən qızlar və oğlanlara tərbiyədə fərqli yanaşmadan irəli gəlir. Belə ki, qızlar əvvəlcədən özəl sferaya, ailə mühitinə yönəldildiklərindən onların ailədən kənarda nümunə, kumir kimi kimisə seçmə ehtimalı da daha azdır.

Bəs hansı sahələrdən olan insanlar əsasən qızlar tərəfindən seçilib? Ciddi statistik fərqləri müğənni və həkim variantlarında görürük. Müğənni peşəsindən kumir seçən oğlanlar 2,3%-dirsə, qızlar 8,6%-dir. Həkim peşəsindən olan insanları oğlanların 1,5%-i seçibsə, qızların 7,3%-i seçib. Birinci halda biz əyləncə sənayesinin müasir dövrdə ciddi təsir gücünün olmasını, habelə yetişməkdə olan gənc nəslin zövqlərinə sirayət etməsini görürük. Həkim peşəsindən olan insanların qızlar arasında daha populyar olması isə bu peşənin qızlar üçün münasib, arzuolunan olması haqqında ənənəvi təsəvvürlərin (“həkim qız”) davam etdiyini göstərir.

Yeniyetmə və erkən gənclik dövründə baş verən mühüm bioqrafik hadisələrdən biri peşə seçimidir. Peşə seçimi bir tərəfdən yeniyetmənin maraq dairəsi və qabiliyyətləri ilə bağlıdırsa, digər tərəfdən cəmiyyə-

tin konkret dövrdə dəyərlərinin, “dəb” olan peşələrinin təsirinin nəticəsidir. Azərbaycan ailələrinə xas cəhətlərdən biri övladların peşə seçiminə təsir göstərmək cəhdidir. Bir sıra hallarda bu, sonrakı dövrlərdə gəncin təhsil motivasiyasının qeyri-qənaətbəxş və həyatdan məmnunluğun aşağı səviyyədə olmasına, gələcək peşəsinə marağın çatışmazlığına səbəb olur. Ona görə də psixoloqlar peşə seçimi dövründə yeniyetmələrin öz maraq və yönümlərini nəzərə almağı tövsiyə edirlər. Ancaq nəzərdən qaçan daha bir məsələ bu və ya digər konkret dövrdə əmək bazarının tələbləridir. Aydındır ki, müxtəlif peşələr üçün ayrılan yerlər bu tələbə müvafiq olmalıdır. Ancaq fərdi səviyyədə heç də həmişə əmək bazarının gələcək tendensiyalarını proqnozlaşdırmaq mümkün olmur. Bu da gələcəkdə müvafiq ixtisaslı kadrların qeyri-proporsional nisbətinə, işsizlik probleminin kəskinləşməsinə gətirib çıxarır.

Sorğuda respondentlərin maraq göstərdikləri peşələrə dair sual yer alıb. Bu suala ayırdığımız respondent qruplarının cavabları aşağıdakı kimi olub:

Diaqram 15-dən görünür ki, peşə seçimində əsas dominantlıq 19,5%-lə müəllimlik, 12,0%-lə həkimlik, 11,5%-lə polis, 8,2%-lə həbçi kimi peşələr təşkil edir. Peşə seçiminin əsasən erkən gənclik dövründə formalaşan bir hadisə olduğunu nəzərə alsaq, X-XI sinif şagirdlərinin cavabları daha mühüm əhəmiyyət kəsb edir. Maraqlıdır ki, “həkim”i seçənləri çıxmaq şərtilə digər peşə seçimlərində VII-IX siniflərlə X-XI sinifdə oxuyanlar arasında kəskin fərq yoxdur. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda məktəblilər artıq yeniyetməlik yaşlarından peşə seçimində qərarlı mövqe sərgiləyirlər. Əlbəttə, yuxarıda da qeyd etdiyimiz kimi, burada uşaq, yeniyetmə və erkən gənclik yaşlarında əmək bazarının tələbinə uyğun olan peşələrlə yanaşı, valideynlərin onlara etdikləri seçimin təsirindən də söhbət gedə bilər.

Respondentlərin 7,4%-nin “qərar verməmişəm” deməsi, xüsusilə artıq təhsilini başa vurub özü üçün peşə seçimi qarşısında qalan X-XI sinif şagirdlər üzrə bu göstəricinin 7,9% olması o qədər də nikbin bir göstərici sayıla bilməz. Xüsusilə, gender üzrə təhlil apardıqda peşə seçmində qərar verməyənlərin nisbətində oğlanlar üstünlük təşkil edir. Bu göstərici oğlanlarda 8,9%, qız məktəblilərində isə cəmi 5,8%-dir. Ümumiyyətlə, məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəyənlərin gen-

**Diaqram 15. Özünü gələcəkdə hansı peşədə görmək istəyirsən? (yaş qrupuna görə)**

| | Yeniyetmə məktəbli (VII-IX sinif) | Gənc məktəbli (X-XI sinif) | Ümumi |
|---|---|---|---|
| Müəllim | 19.8% | 19.1% | 19.5% |
| Həkim | 14.0% | 8.9% | 12.3% |
| Polis | 11.7% | 11.1% | 11.5% |
| Mühəndis | 5.3% | 7.2% | 5.9% |
| Yanğınsöndürən | 1.6% | 1.5% | 1.6% |
| Hakim | 2.8% | 1.2% | 2.3% |
| Hərbçi | 8.1% | 8.4% | 8.2% |
| Pilot | 1.1% | 1.2% | 1.1% |
| İdmançı | 4.8% | 3.0% | 4.2% |
| Musiqiçi | 0.5% | 1.0% | 0.7% |
| Aktyor | 1.2% | 2.2% | 1.6% |
| Psixoloq | 1.5% | 1.7% | 1.6% |
| Sosioloq | 0.2% | 1.0% | 0.5% |
| Siyasətçi | 1.2% | 2.0% | 1.5% |
| Digər | 19.2% | 22.5% | 20.3% |
| Qərar verməmişəm | 7.1% | 7.9% | 7.4% |

der təhlili də göstərir ki, qızlarla müqayisədə oğlanların peşə seçimində qeyri-müəyyənlik göstəricisi daha yüksəkdir. Sorğuya görə, qız məktəblilərin təqribən 95%-i orta ümumtəhsil məktəbini bitirdikdən sonra təhsilini davam etdirməkdə qərarlıdır. Oğlanlarda isə bu göstərici 89%-dir. Bu haqda daha geniş təhlil "Tədris" bölməsində yer alıb.

**Diaqram 16. Özünü gələcəkdə hansı peşədə görmək istəyirsən? (gender bölgüsünə görə)**

| | Oğlan məktəbli | Qız məktəbli |
|---|---|---|
| Müəllim | 4.1% | 35.3% |
| Həkim | 7.5% | 17.3% |
| Polis | 19.4% | 3.5% |
| Mühəndis | 8.3% | 3.5% |
| Yanğınsöndürən | 3.1% | 0.0% |
| Hakim | 1.5% | 3.1% |
| Hərbçi | 14.6% | 1.7% |
| Pilot | 1.8% | 0.5% |
| İdmançı | 7.3% | 1.0% |
| Musiqiçi | 0.5% | 0.8% |
| Aktyor | 1.6% | 1.5% |
| Psixoloq | 0.0% | 3.1% |
| Sosioloq | 0.3% | 0.7% |
| Siyasətçi | 1.5% | 1.5% |
| Digər | 19.8% | 20.8% |
| Qərar verməmişəm | 8.9% | 5.8% |

Diaqram 16-dan göründüyü kimi, oğlanların ən çox seçdiyi peşələr 19,4%-lə polis, 14,6%-lə hərbçi, 8,3%-lə mühəndislik gəlir. Hazırda ölkədə bəzi peşələrin işçi heyətində qadınların kəskin fərqlə üstünlük təşkil etməsi hallarının yaxın gələcəkdə də davam edəcəyini proqnozlaşdırmaq o qədər də çətin deyil. Buraya müəllim, həkim və digər sosial yönümlü peşələr aiddir. Belə ki, müəllim olmaq istəyən qız respondentlər 35,3 % təşkil edirsə, oğlan respondentlər cəmi 4,1%-dir. Həkimlik üzrə müvafiq bölgü 17,3%-in 7,5%-i nisbətindədir. "Psixoloq" peşəsi üzrə seçim isə oğlan məktəblilər arasında heç yoxdur, qızlar arasında isə 3,1%-dir. Başqa sözlə, adı çəkilən peşələrin feminizasiyasının davam edəcəyini proqnozlaşdırmaq olar.

# II BÖLMƏ.

# İNTERNETDƏN İSTİFADƏ

II.1. Uşaqlar üzərində informasiya texnologiyalarının təsiri

Müasir dövrdə sosial münasibətlərin böyük bir hissəsi virtual aləmə keçib. Əgər əvvəllər internet informasiya mübadiləsi vasitəsi hesab olunurdusa, hazırda o, faktiki olaraq, insanın həyat fəaliyyətinin ayrılmaz hissəsi, müxtəlif həyat sferalarının gerçəkləşdirilmə məkanıdır. Uşaqlar və ya yeniyetmələr də bu sahədə istisna deyil. Qlobal şəbəkə olan internet imkanlar məkanı olduğu kimi, həm də təhlükə və risklərin mövcud olduğu yerdir. Yeniyetmə və erkən gənclik dövrü həssas dövr olduğundan bu təhlükələr tədqiq olunan yaş dövrləri üçün xüsusilə aktualdır. Bu təhlükələrə uşaq, yeniyetmə və gənclərin internet asılılığı, kiberbullinq, hüquqa zidd, asosial davranışa cəlb etmə, intihara təhriketmə, şəxsi məlumatların istifadəsi və s. aiddir.[2] İnternet bəzi hallarda cinayətkar qrupların da fəaliyyət məkanına çevrilə bilər. Sözügedən yaş dövrünün internet istifadəsi zamanı müxtəlif təhlükələrə müqavimətsiz olmasını şərtləndirən bir sıra psixofizioloji, sosial-psixoloji və psixopedaqoji səbəblər mövcuddur. Bura şəxsiyyətdaxili ziddiyyətlərin olması, kənar fikirlərə qarşı həssaslıq, tənqidi təfəkkürün hələ zəif inkişaf etməsi, bəzi hallarda ifrat qətiyyətlilik, tərslik, emosional dəstəyə tələbat, ilk dəfə həyatın mənası, ölüm və s. kimi ekzistensial suallara görə gərginolma aiddir. Bütün bunlarla yanaşı, yeniyetmələrin həyat təcrübəsi hələ ki, məhdud, ünsiyyət səriştəsi isə inkişaf etməmiş olur. Maraqlıdır ki, bəzi tədqiqatlar yalnız uşaq və yeniyetmələrin deyil, həm də onların valideynlərinin internetdəki təhlükələrə münasibətdə təcrübəsiz olduğunu göstərib.[3]

Uşaq və yeniyetmələrin internetdən istifadəsinin riskli tərəflərini aydınlaşdırarkən burada üç amili qeyd etmək yerinə düşər:

**1.** İnternetin fərqli davranış mədəniyyətini formalaşdırması;

**2.** Şəbəkə texnologiyalarının əsasən səthi şəxsiyyətlərarası münasibətləri təşfiq etməsi;

**3.** İnternet məkanının müxtəlif səpkili ictimai rəy formalaşdırması.[4]

Yuxarıda qeyd olunan risklər arasında yeniyetmələrin internet asılılığına düşməsi xüsusi yer tutur. İnternet asılılığı cəmiyyət üçün təhlükəli olan artan psixi xəstəlikdir. Artıq amerikan psixoloqlarının terminologiyasında “internetdən patoloji istifadə” anlayışı mövcuddur. Onun əsas simptomları yeniyetmənin maraq dairəsinin daralması, apatiyadır. İnternetdə bu və ya digər fəaliyyətlər insana çətinliklərlə qarşılaşdığı real aləmdən uzaqlaşmağa, fantaziyalar aləminə baş vurmağa imkan verir. İnternet asılılığı sayəsində yeniyetmənin dərkolunan və dərkolunmayan tələbatları qarşılanır.

İnternet asılılığını müəyyən edən meyarlar aşağıdakılardır:

- tam olaraq internetə yönəlmə;
- şəbəkədə getdikcə daha çox vaxt keçirməyə tələbat;
- internetdə keçirilən vaxtı azaltmaq cəhdlərinin uğursuzluğu;
- ətrafdakılarla ünsiyyət problemlərinin yaranması;
- internetdəki vaxtı idarə etməklə bağlı problemlərin olması;
- bu haqda yalan danışma;
- internetlə əlaqəli kəskin emosional reaksiyaların baş verməsi.[5]

Lakin istənilən internet istifadəsinin aludəçilik olmasını düşünmək də yalnış olardı. İnternet həm də bötüvlükdə uşaqların zəruri yeni informasiyaya çıxışını, faydalı əlaqələr yaratmasını təmin edir.

### II.1. Uşaqlar üzərində informasiya texnologiyalarının təsiri

Layihə çərçivəsində Azərbaycan məktəbliləri arasında keçirilən sorğu əsasında yeniyetmə və gənc məktəblilərin internet asılılığı tədqiq edilib. Bu bölmədə onların internetdə keçirdikləri vaxt, sosial şə-

[2] *Патраков Э.В. Подростки и интернет: реакции родителей. Сибирский психологический журнал. 2019. N7. с129-144:130*
[3] *Magdilova, L.V. (2017) The legal basis for ensuring of information security of minors. Yuridicheskiy vestnik Dagestanskogo gosudarstvennogo universiteta–Law Herald ofDagestan State University. 23(3). pp. 104–108. (In Russian).*
[4] *Yenə orada, s.131*
[5] *Янг К. С. Диагноз - Интер- нет-зависимость // Мир Интернет. 2000, № 2, с. 24-29*

bəkələrdən necə istifadə edilməsi və sair məsələlər təhlil edilib.

Sorğunun nəticələrinə əsasən, məktəbli respondentlərin 93,5%-i internetdən istifadə edir. Bu göstərici VII-IX siniflər üzrə 91,6%, X-XI siniflər üzrə 97,3%-dir. Beləliklə, yuxarı siniflərə doğru məktəblilər internetin daha aktiv istifadəçisinə çevrilirlər. Azərbaycanda yeniyetmə və gənc məktəblilərin 10,1%-i gün ərzində 5 saatdan çox internetdə vaxt keçirir. 5,2% respondentin internetdə keçirdiyi vaxt 4-5 saat arasıdır.

Sonuncu siniflərdə oxuyan şagirdlərin internetdən asılılığının aşağı sinif şagirdləri ilə müqayisədə yüksək olduğunu müşahidə etmək olur. Belə ki, VII-IX sinif şagirdlərinin 8,9%-i vaxtının 5 saatdan çoxunu internetdə keçirirsə, X-XI siniflərdə bu nisbət 12,5%-ə bərabərdir. Ehtimal ki, bunun əsas səbəblərindən biri uşaqların aşağı yaşlarında valideynlər tərəfindən internetdən istifadə ilə bağlı nəzarətin yuxarı siniflərə nisbətən daha güclü olması, internet şəbəkəsinin qoşula bildiyi cihazlara əlçatanlığın aşağı olmasıdır. Burada söhbət telefon və planşetdən gedir ki, valideynlər övladları üçün bu cihazları əsasən yuxarı yaşlarda alır.

**Diaqram 17. Gün ərzində internetdə, adətən, nə qədər vaxt keçirirsən? (yaş qrupuna görə)**

| | Yeniyetmə məktəbli (VII-IX sinif) | Gənc məktəbli (X-XI sinif) | Ümumi |
|---|---|---|---|
| 0-1 saat | 30.0% | 20.9% | 26.9% |
| 1-2 saat | 30.8% | 31.8% | 31.1% |
| 2-3 saat | 15.3% | 18.3% | 16.4% |
| 3-4 saat | 9.5% | 12.0% | 10.3% |
| 4-5 saat | 5.5% | 4.6% | 5.2% |
| 5 saatdan çox | 8.9% | 12.5% | 10.1% |

Diaqram 17-dən görünür ki, Azərbaycan uşaqlarının internetdən istifadə etdiyi ortalama vaxt 1-3 saat aralığıdır. 1-2 saat aralığında 31,8 %, 2-3 saat aralığında 18,3% təşkil edir.

Məktəbli respondentlərin internet asılılığını gender üzrə təhlil etdikdə qızların oğlanlara nisbətən internetdə daha qısa vaxt keçirdiklərini demək olar. Belə ki, əgər oğlanların 17,6 %-i internetdə 4 saatdan çox vaxt keçirirsə, qızlarda bu nisbət 12,9%-dir.

**Diaqram 18. Gün ərzində internetdə, adətən, nə qədər vaxt keçirirsən? (gender bölgüsünə görə)**

| | Oğlan məktəbli | Qız məktəbli |
|---|---|---|
| 0-1 saat | 23.9% | 29.9% |
| 1-2 saat | 31.3% | 31.0% |
| 2-3 saat | 16.1% | 16.7% |
| 3-4 saat | 11.1% | 9.5% |
| 4-5 saat | 6.0% | 4.3% |
| 5 saatdan çox | 11.6% | 8.6% |

Qeyd edək ki, şəhər və qəsəbələrdə infrastruktura əlçatanlıq, internetin sürəti və ailələrin gəlirlərinin nisbətən yüksək olması uşaqların internet asılılığını artıran amillərdən biridir. Əgər gün ərzində 5 saatdan çox internetdən istifadə edən respondentlərin nisbəti şəhər yerində 15,8 %, qəsəbədə 10,9 %-dirsə, kənd yerlərində bu göstərici 4,5 %-dir.

**Diaqram 19. Gün ərzində internetdə, adətən, nə qədər vaxt keçirirsən? (yaşayış yerinə görə)**

| | Şəhər | Qəsəbə | Kənd |
|---|---|---|---|
| 0-1 saat | 17.3% | 22.3% | 37.4% |
| 1-2 saat | 28.9% | 30.8% | 34.0% |
| 2-3 saat | 18.2% | 16.6% | 14.4% |
| 3-4 saat | 12.4% | 15.2% | 6.2% |
| 4-5 saat | 7.3% | 4.3% | 3.6% |
| 5 saatdan çox | 15.8% | 10.9% | 4.5% |

Müasir informasiya dünyasında uşaq, yeniyetmə və gəncləri internetə cəlb edən, ondan asılı vəziyyətə salan sosial şəbəkələr və sosial mediadır. "Youtube", "Facebook", "Tiktok" kimi sosial şəbəkələr informasiyanı ən çevik və müxtəlif baxış prizmalarından yayan mənbələr olduğuna görə onlar alternativ informasiya (məsələn, televiziya verilişləri və. s.) və əyləncə vasitələrindən daha çox maraq cəlb edir.

Tədqiqat çərçivəsində aparılan kəmiyyət sorğusunda da internet istifadəçiləri olan respondentlərin 77,7%-i sosial şəbəkə istifadəçisidir. Aşağı sinifdə oxuyan yeniyetmələrlə müqayisədə gənc məktəblilər arasında sosial şəbəkələrdən asılılıq daha yüksəkdir. "Sosial şəbəkədən istifadə edirsənmi?" sualına cavab verənlərin 82,7%-ni X-XI sinif, 75,1%-ni VII-IX sinifdə oxuyan respondentlər təşkil edib.

Məktəblilər sosial şəbəkələrdə vaxtlarını daha çox "Youtube"- 67,0%, "Instagram" da - 56,5 % "və "Tiktok"da - 30,6 % keçirir. Yalnız 12,6 % respondent "digər" sosial media növlərindən istifadə edir.

**Diaqram 20. Hansı sosial şəbəkədən istifadə edirsən? (yaş qrupuna görə)**

| | Yeniyetmə məktəbli (VII-IX sinif) | Gənc məktəbli (X-XI sinif) | Ümumi |
|---|---|---|---|
| Facebook | 13.7% | 15.1% | 14.2% |
| Instagram | 50.4% | 67.1% | 56.5% |
| Youtube | 68.9% | 63.7% | 67.0% |
| Tiktok | 33.7% | 25.2% | 30.6% |
| Snapchat | 17.6% | 19.7% | 18.4% |
| Twitter | 4.1% | 6.8% | 5.1% |
| Digər | 7.5% | 12.6% | 9.3% |

Sonrakı yerlərdə "Facebook" (14,2%), "Snapchat" (18,4 %), "Twitter" (6,8%) gəlir. Azərbaycanda "Facebook" və "Twitter" istifadəçiləri əsasən siyasi, ictimai fəalların platforması olduğuna görə uşaqlar bu şəbəkədən az istifadə edirlər. Cavablardan aydın olur ki, məktəbliləri daha çox əyləncə tipli informasiya məkanı maraqlandırır, eyni zamanda "Tiktok", "İnstagram" kimi platformalarda özlərini daha rahat ifadə edə bilirlər.

Sorğunun gender təhlilinə əsasən, oğlanlar sosial şəbəkələrdən qızlarla müqayisədə daha çox istifadə edir. Oğlanlarda bu göstərici 85,1%, qızlarda isə 69,9%-dir.

**Diaqram 21. Hansı sosial şəbəkədən istifadə edirsən? (gender bölgüsünə görə)**

| | Oğlan məktəbli | Qız məktəbli |
|---|---|---|
| Facebook | 21.3% | 5.1% |
| Instagram | 68.3% | 41.5% |
| Youtube | 68.5% | 65.1% |
| Tiktok | 35.3% | 24.6% |
| Snapchat | 8.2% | 31.3% |
| Twitter | 6.8% | 2.8% |
| Digər | 5.8% | 13.8% |

Diaqram 21-dən görünür ki, oğlanlar arasında ən populyar sosial media növləri "İnstagram" (68,3 %), Youtube (65,1%), "Tiktok"dur (35,3 %). Qızlar arasında sadalananlarla yanaşı "Snapchat"a (31,3 %) maraq çox yüksəkdir. Maraqlıdır ki, oğlanlar qızlara nisbətən daha çox "Facebook" və "Twitter" istifadəçiləridir.

Fokus qrupunda iştirak edən ekspertlərin müsahibələrini təhlil etdikdə, bu mövzuda onların istifadə etdikləri əsas açar sözlər internetdən asılılığın uşaqlarda yaratdığı aqressivlik və nitq inkişafının ləngiməsidir. Ekspertlər xüsusilə kompüter oyunlarının, internet üzərindən uşaqlara təklif edilən cizgi filmlərinin, yutuberlərin hazırladıqları buraxılışların uşaqların həssaslaşmasına, daha aqressiv olmasına, empatiya çatışmazlığının yaranmasına gətirib çıxardığını qeyd ediblər. Həddən artıq çox qəbul edilən informasiyanın yükü altında uşaqlarda depressiv vəziyyət yaranır və intihara meyillilik artır.

*"Sosial şəbəkələrin, baxılan oyunların və cizgi filmlərinin uşaqlar üzərində mənfi təsiri onların davranışlarında öz əksini tapır. Məsələn, uşaqlar və yeniyetmələrin hansısa sosial platformalarda tanışlıq və ünsiyyət zamanı xoşagəlməyən tərzdə münasibət qurmaları onları bir-birinə qarşı yanlış davranmaq, zərərli əməl törətmək vəziyyətinə gətirib çıxara bilir". /Gülşən Əliyeva/*

*"Uşaqlar internetdə həddindən artıq çox vaxt keçirirlər. Gənclərdə tənbəlləşmə gedir, daha rahata qaçırlar. Xarici cizgi filmlərində aqressiya çoxdur, bu isə istər-istəməz beyinaltı şüura uşağa nələrisə təbliğ edir". /Jalə Əhmədova/*

Ekspertlərin bu istiqamətdə əsas təklifləri budur ki, müvafiq təşkilatlar tərəfindən internet resurslarındakı informasiyalar milli düşüncəyə uyğun materiallarla tənzimlənməlidir. Eyni zamanda, dövlət uşaq və yeniyetmələrin xarici resurslardakı informasiya savaşına qarşı qollarını çırmalamalıdır.

# III BÖLMƏ.

# AİLƏ İLƏ MÜNASİBƏTLƏR

**III.1. Valideyn və övlad münasibətlərində ailə və ətraf mühitin təsiri**

**III.2. Uşaqlar xoşbəxtdirlərmi?**

## III.1. Valideyn və övlad münasibətlərində ailə və ətraf mühitin təsiri

Uşaqların şəxsiyyətinin təşəkkülündə ailə ilə münasibətlər mərkəzi yer tutur. Məlumdur ki, münasibət ünsiyyət prosesində cərəyan edir. Ünsiyyət fundamental psixoloji kateqoriya olmaqla, özündə üç mühüm tərəfi ehtiva edir. Kommunikativ tərəf – informasiya mübadiləsini, interaktiv tərəf – qarşılıqlı təsiri, perseptiv tərəf isə insanların ünsiyyət zəminində bir-birini qavraması və anlamasını nəzərdə tutur.[6] Bunu yeniyetmələrin ailə ilə münasibətlərinə tətbiq etsək, qeyd edə bilərik ki, ailədaxili ünsiyyət prosesində böyüməkdə olan gənc nəsil gerçəklik haqqında məlumat və bilik əldə edir, şəxsiyyətlərarası kommunikasiya prosesində sosial aləm haqqında topladığı zəruri informasiyalar onun geniş çevrədə uyğunlaşmasını təmin edir. Uşaq və yeniyetmələr davamlı olaraq ailə üzvləri ilə qarşılıqlı təsirdə olur, bu təsirin nəticəsində onların şəxsiyyətində dərin kök salan xüsusiyyətlər formalaşır. Eyni zamanda, başqa insanları anlamaq vərdişləri inkişaf edir. Ünsiyyət insanın tələbat və fəaliyyət formasıdır. Ünsiyyət və münasibət arasında dialektik əlaqə mövcuddur. Ailə özəl həyat sahəsi olduğundan burdakı ünsiyyət və münasibətlər şəxsiyyətlərarası səciyyə daşıyır. Bu zaman böyüklərin rəftar tərzi əhəmiyyət kəsb edir. Məhz rəftar tərzi vasitəsilə münasibət və hisslər ötürülmüş olur. Ailədə ünsiyyət və münasibətin əlaqəsini qeyri-formal şəxsiyyətlərarası ünsiyyətin təhlili vasitəsilə dərk etmək olar, yəni bu zaman diqqət mərkəzində:

- Birgə fəaliyyətin təşkili;
- Ailə üzvlərinin bir-birini dərk etməsi;
- Ailədaxili şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafı olacaqdır.

Ancaq qeyd olunmalı mühüm məsələ həm də budur ki, ailədaxili münasibətlərin cərəyan etdiyi ünsiyyət yalnız qeyri-formal ünsiyyət növü olmayıb, idealda etimadlı münasibətlər kateqoriyasına aiddir. Ailə daxilində yüksək etimad səviyyəsi bütün kiçik qruplarda olduğu kimi bir sıra müsbət nəticələrə gətirib çıxarır: vacib məsələlər üzrə fikir və baxışlar açıq şəkildə müzakirə olunur; ailədaxili vəzifələr daha konkret olur; birgə işlərdə iştirakdan məmnunluq və həmrəyliyin təmin olunması baş verir; ailə işlərində yüksək motivasiya müşahidə edilir.[7]

Belə ünsiyyətin ən vacib xüsusiyyəti insanın həqiqi fikir və hisslərini başqa insanla bölüşə bilməsidir. V.Safonova görə, etimadlı ünsiyyətin əsas funksiyaları aşağıdakılardır:

- Psixoloji yüngülləşmə;
- Özünüdərketmə prosesində əks əlaqənin təmin olunması;
- Psixoloji yaxınlıq, insanlar arasındakı münasibətlərin dərinləşməsi.[8]

Başqa insana etimad dünyaya etimadın bir hissəsidir, bunun sayəsində insan həm də özünə etibar etməyi və öz həyatını planlaşdırmağı öyrənir.[9]

Yeniyetməlik və erkən gənclik dövründə həmyaşıdlarla ünsiyyətin xüsusi əhəmiyyət kəsb etməsinə baxmayaraq, 11-ci sinif şagirdləri arasında aparılmış psixoloji tədqiqat onu göstərmişdir ki, əsas insani keyfiyyətlər üzrə yuxarı sinif şagirdləri özlərini daha çox həmyaşıdları ilə deyil, məhz öz valideynləri ilə eyniləşdirirlər. Məsələn, xeyirxahlıq xüsusiyyəti çox zaman heç yaxın dostlara belə şamil edilmir.[10]

Ailə daxilində baş verən qeyri-formal etimadlı ünsiyyətin özünəməxsus cəhəti həm də psixoloji yaxınlığın təmin olunmasıdır. Məhz ailə üzvləri ilə psixoloji yaxınlıq əsnasında yeniyetmə özünü onlarla eyniləşdirir, onlara bənzəməyə çalışır, ümumən dünyaya etimad edib-etməmək haqqında qərar vermiş olur. Ancaq bu, məhz ailə ilə münasibətlərdə həqiqi bağlılıq, emosional tələbatların ödənilməsi zamanı mümkündür.

Psixoloji yaxınlıq mürəkkəb sosial-psixoloji fenomen olmaqla, ailədaxili münasibətlərin müstəsna əhəmiyyətli aspektləridir. Yetiş-

*[6] Андреева Г. М. Социальная психология //М.: Аспект Пресс. – 2016.*
*[7] Казаринова Н. В., Куницына В. Н., Погольша В. М. Межличностное общение //СПб.: Питер. – 2003. с. 277.*
*[8] Сафонов В.С. О психологии доверительного общения // Проблема общения в психологии. – М. 1981.*
*[9] Скрипкина Т.П. Психология доверия. – Ростов на Дону. 1997.*
*[10] Yenə orada, s.114*

məkdə olan gənc nəslin şəxsiyyətinin ahəngdarlığı bu amildən olduqca asılıdır. Onun aşağıdakı komponentləri fərqləndirilir:

1. Qarşılıqlı anlayış;
2. Etimad – maksimal səmimiyyət, sərbəst və qorxusuz ünsiyyət;
3. Emosional yaxınlıq – simpatiya, ünsiyyətdən məmnunluq, empatiya, başqasının vəziyyəti hiss etmək bacarığı;
4. Qəbuletmə - başqasının çatışmazlıqlarına qarşı dözümlülük, onu olduğu kimi qəbul etmək, yardım etmək istəyi;
5. Həmrəylik, məqsəd, ideal, fikir yaxınlığı, dəyərlərin üst-üstə düşməsi.[11]

Aydındır ki, adı çəkilən cəhətlərin heç də hamısı bütün ailələrə aid olmadığından bu şərtlər heç də bütün yeniyetmələrin yetkinləşməsinin ailə kontekstini təşkil etmir. Ancaq məhz bu cəhətlər sosial adaptiv, müstəqil həyata qədəm qoyarkən çətinliklərə sinə gərməyə qadir olan iradəli, özünə və adekvat dərəcədə ətrafdakılara inanan şəxsiyyətlərin formalaşmasının əsasını təşkil edir.

Qeyd etmək lazımdır ki, yuxarıda təsvir olunan etimadlı və psixoloji yaxınlığı təmin edən ailədaxili münasibətlərə əngəl törədən səbəblərdən biri yeniyetmə və böyüklər arasında münaqişələrdir. Bu münaqişələrin əsasında duran fikir ayrılığını aşağıdakı cədvəldə əyani şəkildə görmək mümkündür.[12]

| Yeniyetmənin mövqeyi | Valideynin mövqeyi |
|---|---|
| Mən artıq uşaq deyiləm. | O, hələ balacadır. |
| Mənim hüquqlarım böyüklərin hüquqları kimi olmalıdır. | Onun hüquq və vəzifələrini böyüklər müəyyən etməlidir. |
| Mən müstəqil davrana bilərəm. | Ona daim nəzarət etmək lazımdır. |
| Mən özüm geyimim, görünüşüm haqqında qərar verə bilərəm. | O, mənim bəyəndiyim tərzdə geyinməlidir. |
| Valideynlər mənimlə əvvəlkindən fərqli davranmalıdırlar. | Bizim münasibətlərdə nəyisə dəyişməyə ehtiyac yoxdur. |
| Mən özüm münasibətlərimizin dəyişməsinə və haqqımın təmin olunmasına nail olacağam. | Onun təhlükəsizliyi xatirinə çalışmaq lazımdır ki, bizim münasibətlərimiz dəyişməz qalsın. |

Mükafatlandırma tərbiyə üsullarından biridir. Erkən yaşlardan etibarən mükafatlandırma uşaqda müəyyən arzuolunan davranışları, onlara canatma motivasiyasını formalaşdırmaq məqsədi daşıyır. Mükafatın davranış və nailiyyətə adekvatlığı bu tərbiyə üsulunda həlledici rola malikdir. Hər kiçik nailiyyətin mütləq olaraq maddi mükafatlandırılması uşaqlarda davamlı motivasiyanın, məqsədəçatmada zəruri iradi keyfiyyətlərin inkişaf etməsini əngəlləyir. Həddən artıq tez-tez mükafatlandırma eyni zamanda mükafatın dəyərini azaldır, onun bəxş edə biləcəyi məmnunluq hissini zəiflədir. Ümumən respondentlərin uğur qazandıqları situasiya - hər hansı formada mükafat alıb-almadıqları haqqında suala cavabları belədir:

"Uğur qazandıqda (yüksək qiymətlər alanda, imtahandan uğurla keçəndə və s.) valideynlərin səni hər hansısa formada mükafatlandırırmı?" sualına ümumən respondentlərin 88,6%-i "bəli", 11,4%-i isə "xeyr" cavabını verib.

**Diaqram 22. Uğur qazandıqda valideynlərin səni hər hansısa formada mükafatlandırırmı?**

| | Ümumi | Oğlanlar | Qızlar |
|---|---|---|---|
| Bəli | 88.6% | 87.7% | 89.4% |
| Xeyr | 11.4% | 12.3% | 10.6% |

[11] Казаринова Н. В., Куницына В. Н., Погольша В. М. Межличностное общение //СПб.: Питер. – 2003. с. 287
[12] Дубровина, И. В., Андреева, А. Д., Гуткина, Н. И., Данилова, Е. Е., Лубовский, Д. В., Прихожан, А. М., & Толстых, Н. Н. (2007). Практическая психология образования.- с.402

"Bəli" cavabını verənlərə dəqiqləşdirici növbəti sualda bu mükafatın nədən ibarət olması soruşulub. Bütün uyğun variantların seçilməsinin mümkün olduğu bu sualda ümumi nəticələr aşağıdakı kimidir:

**Diaqram 23.**




Respondentlərin 58,1%-i onlara istədikləri əşyanın alındığını, 18,2%-i hər hansısa istirahət və ya əyləncə mərkəzinə aparıldıqlarını, 16,1%-i sadəcə sözlə tərifləndiklərini, 15,5%-i dərsdənkənar işlərə (məsələn, oyun oynamaq, dostlarla görüşmək) daha çox vaxt ayırmağa icazə verildiyini, cəmi 7,4%-i kitab alındığını qeyd edib.

Bu suala verilən cavablarla diqqətçəkən gender fərqləri mövcuddur. Onları ayrıca nəzərdən keçirək. "Hər hansı istirahət/əyləncə mərkəzinə aparmaq" variantını oğlanlara nisbətən qızlar daha çox seçib (qızlar 21,2%, oğlanlar 15,2%). Əksinə, dərsdənkənar işlərə icazə (dostlarla görüşmək, oyun oynamaq) variantını isə oğlanlar daha çox seçib (Oğlanlar 21,6%, qızlar 9,0 %). Bu iki mükafat üsulu arasında əsas fərq nəzarət mexanizmindədir. Birincidə, göründüyü kimi, məktəbliləri valideyn özü əyləncə mərkəzinə aparır, bu mükafat isə daha çox qızlara şamil olunur. Dostlarla görüşmək, oyun oynamaq isə daha çox sərbəstliyi, müstəqilliyi nəzərdə tutur və bu məsələdə oğlanlara daha çox imkanlar yaradılır. Belə faiz fərqləri Azərbaycan cəmiyyətində qızlar və oğlanların tərbiyəsində rəhbər tutulan gender yanaşması, oğlanların əvvəlcədən daha çox sərbəstliyə, qızların isə nəzarət olunmağa uyğunlaşdırıldığı yanaşma ilə məntiqi olaraq üst-üstə düşür.

**Diarqam 24. Bu mükafat nədən ibarətdir? (gender bölgüsünə görə)**

| | Oğlanlar | Qızlar |
|---|---|---|
| Kitab alırlar | 5.9% | 8.7% |
| Hər hansı bir istirahət/əyləncə mərkəzinə aparırlar | 15.2% | 21.2% |
| İstədiyim əşyanı alırlar | 57.3% | 58.5% |
| Dərsdənkənar işlərə daha çox vaxt ayırmağa imkan verirlər | 21.6% | 9.0% |
| Digər | 6.3% | 3.9% |
| Heç nə almırlar, sadəcə sözlə tərifləyirlər | 16.1% | 16.4% |

Mükafatın nədən ibarət olması ailənin maddi durumu ilə müəyyən korrelyasiyalara malikdir. Göründüyü kimi, aşağı gəlirli ailələrdən olan respondentlər arasında maddi sərfiyyat tələb edən mükafat aldığını göstərənlər daha az, yalnız sözlə

tərifləndiklərini söyləyənlər isə digərlərinə nisbətən daha çoxdur.

**Diaqram 25. Bu mükafat nədən ibarətdir? (maddi vəziyyətə görə)**

| | Aşağı gəlirli | Orta gəlirli | Yüksək gəlirli |
|---|---|---|---|
| Kitab alırlar | 6.8% | 7.2% | 8.4% |
| Hər hansı bir istirahət/əyləncə mərkəzinə aparırlar | 17.8% | 18.0% | 20.9% |
| İstədiyim əşyanı alırlar | 47.9% | 58.3% | 60.2% |
| Dərsdənkənar işlərə daha çox vaxt ayırmağa imkan verirlər | 8.2% | 16.9% | 13.6% |
| Digər | 5.5% | 4.8% | 4.7% |
| Heç nə almırlar, sadəcə sözlə tərifləyirlər | 20.5% | 16.3% | 13.6% |

Təlim-tərbiyə prosesində bəzi hallarda cəzalandırma, danlama kimi üsullar da istifadə olunur. Onların tətbiq səviyyəsi bir sıra amillərlə şərtlənir. Bu, amillərdən ən vacibi ailənin tərbiyə üslubudur. Avtoritar tərbiyə üslubunda daha çox danlama və müxtəlif sərt cəzalar tətbiq olunursa, demokratik tərbiyə üslubu səhvin izahı, müzakirəsi kimi üsulları üstün tutur.

"Hər hansı səhvin olduqda valideynlərin səni danlayırmı?" sualında respondentlər bəzən danlandıqlarını daha çox seçiblər (40,2%), nadir hallarda danlandıqlarını 32,4%, tez-tez danlandıqlarını 12% seçib. Heç vaxt danlanmadığını söyləyənlər sonunculardan daha çox - 14,5%-dir.

**Diaqram 26. Hər hansı səhvin olduqda valideynlərin səni danlayırmı?**

| | Ümumi | Oğlanlar | Qızlar |
|---|---|---|---|
| Bəli, tez-tez | 12.0% | 14.7% | 9.2% |
| Bəli, bəzən | 40.2% | 41.3% | 39.1% |
| Bəli, çox nadir hallarda | 32.4% | 30.6% | 34.2% |
| Xeyr, heç vaxt | 14.5% | 12.3% | 16.7% |
| Cavab vermək istəmirəm | 0.9% | 1.0% | 0.8% |

Gender bölgüsünə görə çıxarılan faiz göstəricilərində maraqlı məqam tez -tez və bəzən danlandığını söyləyən oğlanların qızlardan çox olması, əksinə çox nadir hallarda və heç vaxt danlanmadığını deyən qızların oğlanlardan daha çox olmasıdır. Bu da ehtimal ki, oğlanlara tətbiq olunan tərbiyə metodlarının qızlara nisbətən daha sərt olması, yəni burada da tərbiyəyə genderləşmiş yanaşma ilə bağlıdır.

Yeniyetmə və gənclərin şəxsiyyətinin inkişafının mühüm aspektlərindən biri subyektlik hissinin və vərdişlərinin formalaşmasıdır. Yəni uşaq şəxsiyyətini yetkin insanın şəxsiyyətindən fərqləndirən cəhətlərdən biri onun özü ilə bağlı qərarlar qəbul etmək bacarığındadır. Bu bacarığın formalaşması isə yalnız tədricən müəyyən situasiyalarda yeniyetmənin özü ilə bağlı qərar qəbuletmədə iştirakı ilə əlaqədardır. Məhz qərar qəbulu zərurəti müvafiq iradi keyfiyyəti - qətiyyətliliyi formalaşdırır. Bu isə yeniyetmələrin özünəinamını möhkəmləndirir. Əks halda isə özünü gücsüz hissetmə, özünəinamsızlıq, konformizm, daha güclü və yaşlı olanlara münasibətdə avtomatik olaraq tabeliyə meyil kimi cəhətlər təşəkkül edir.

Sözügedən məsələ ilə bağlı sorğuda "Ailədə səninlə bağlı qərar verilərkən fikrin nəzərə alınırmı?" sualına respondentlərin cavabları Diaqram 27-də göstərilib. Məktəblilərin mütləq əksəriyyəti ailədə onlarla bağlı qərar qəbul edilərkən onların fikrinin

həmişə və ya bəzən nəzərə alındığını qeyd ediblər ("həmişə nəzərə alınır" - 72,8%, “bəzən nəzərə alınır” deyənlər 21,2%-dir). Fikri nəzərə alınmadığını söyləyənlər isə respondentlərin cüzi hissəsini təşkil edir (nadir hallarda - 3,8%, heç vaxt - 2,2%).

**Diaqram 27. Ailədə səninlə bağlı qərar verilərkən fikrin nəzərə alınırmı?**

| | Ümumi | Oğlanlar | Qızlar |
|---|---|---|---|
| Həmişə nəzərə alınır | 72.8% | 69.0% | 76.6% |
| Bəzən nəzərə alınır | 21.2% | 23.7% | 18.6% |
| Nadir hallarda nəzərə alınır | 3.8% | 4.7% | 3.0% |
| Heç vaxt nəzərə alınmır | 2.2% | 2.6% | 1.8% |

Gender bölgüsündə müvafiq suala verilən cavablar fikrin həmişə nəzərə alındığını qeyd edənlər arasında qızların üstünlük təşkil etdiyini göstərir. Bu cavab üzrə oğlanlar və qızlar arasında statistik əhəmiyyətli fərqlər aşkar olunub (oğlanlar- 69%, qızlar - 76,6%). Fikri bəzən nəzərə alındığını qeyd edənlər arasında oğlanlar qızlara nisbətən bir qədər üstünlük təşkil edir (23,7% - oğlanlar, 18,6% - qızlar). Digər cavab variantlarında, yəni fikri nadir hallarda nəzərə alınanlar və heç nəzərə alınmadığını söyləyənlərin cins amilinə görə bölgü statistik əhəmiyyətli fərqlər üzə çıxarmır.

Valideynlərin təhsil səviyyəsinin yeniyetmə və gənc məktəblilərlə ünsiyyətə, birgə müzakirələrdə iştiraka təsirini yuxarıda qeyd etmişik. İrəli sürülən bu mülahizə aparılan sorğuda da təsdiqini tapır.

**Diaqram 28. Ailədə səninlə bağlı qərar verilərkən fikrin nəzərə alınırmı?**

| | Hər iki valideyni orta təhsillidir | Ancaq anasının təhsili orta təhsildən yuxarıdır | Ancaq atasının təhsili orta təhsildən yuxarıdır | Hər iki valideyni ali və ya peşə/kollec təhsillidir |
|---|---|---|---|---|
| Həmişə nəzərə alınır | 74.5% | 75.3% | 74.2% | 73.7% |
| Bəzən nəzərə alınır | 18.8% | 19.2% | 21.9% | 22.7% |
| Nadir hallarda nəzərə alınır | 4.2% | 2.1% | 2.6% | 2.7% |
| Heç vaxt nəzərə alınmır | 2.5% | 3.4% | 1.3% | 0.8% |

Hər iki valideyni orta təhsilli olan respondentlərin 74,5%-i “həmişə nəzərə alınır”, 18,8%-i “bəzən nəzərə alınır” deyib. Hər iki valideyni ali və peşə/kollec təhsilli olanların isə 73,7%-i “həmişə nəzərə alınır”, 22,7%-i “bəzən nəzərə alınır” qeyd edib. Görünür, ali təhsilli ailələr uşaqların fikrini dinləməklə yanaşı, onu həmişə deyil, müəyyən vaxtlarda bəzən nəzərə alır. Belə ki, hər iki valideyni ali və ya peşə/kollec təhsilli olan ailələrdə “heç vaxt nəzərə almır” cavabının 0,8% olması yuxarıdakı fikri bir qədər də gücləndirir. O ki qaldı valideynlərdən yalnız birinin təhslinin ali və ya peşə/kollec təhsilli olan ailələrdə övladları ilə ünsiyyətdə və fikirlərinə önəm verilməsində yanaşmaya, maraqlıdır ki, burada da atanın təhsil səviyyəsi öz dominatlığını göstərir. Bu kateqoriya üzrə “heç vaxt nəzərə alınmır” cavabını seçənlər cəmi 1,3%-dir.

Növbəti sual bacı-qardaş münasibətlərinə həsr olunub. Siblinqlər, yəni bacı və qardaşlar ailədaxili münasibət və tərbiyədə özünəməxsus rola malikdirlər. Onlar ilk növbədə, uşaqların şəxsiyyətlərarası münasibət vərdişlərinin formalaşmasına təsir göstərirlər. Bu qarşılıqlı təsirdir. Bir sıra tədqiqatlar uşaqların valideynlərinə nisbətən daha çox öz bacı və qardaşları ilə ünsiyyətdə vaxt keçirməsini üzə çıxarıb.[13]

Bacı-qardaşların əsas rolu ünsiyyət kontekstini yaratmaqlarındadır. Bu məsələdə valideynlərə daha çətin olan tərəf – bərabərhüquqlu münasibətlərin yaradılmasıdır. Məhz bacı və qardaşlarla ünsiyyətdə bu tip münasibətlərdə adekvat ünsiyyət vərdişləri inkişaf edir. Bu münasibətlərin xarakterində, ümumiyyətlə, ailə daxilindəki sosial-psixoloji mühit, tərbiyə üslubu, eyni zamanda, gender amili, uşaqların doğum sıralanması, yaş fərqi önəm daşıyır. Psixoloqlar uşaqların anadanolma intervalını xüsusilə qeyd edirlər.[14] Valideynlərin tərbiyə üslubu, fərdi xüsusiyyətləri, o cümlədən uşaqların ailədəki mövcud münasibətlər sisteminə baxış tərzi bacı-qardaş arasında həm müsbət, həm də mənfi emosiya və hisslərin yaranmasına səbəb olur. Mənfi hiss və emosiyalardan söz açarkən, qısqanclıq, qəzəb, paxıllıq və s. hissləri qeyd edə bilərik. Bu hisslər valideynlərin sevgi və qayğısının qeyri-bərabər paylanması (uşağın perspektivinə görə), mövcud vəziyyəti şəxsinə qarşı ədalətsiz kimi qiymətləndirməkdən irəli gələr bilər. Nəticədə uşaq ailə daxilində özünü gərəksiz, tənha hiss edə, bu isə onun özünüqiymətləndirməsi və geniş çevrə ilə münasibətlərinə təsir göstərə bilər.

Növbəti suallar respondentlərin bacı və qardaşları ilə müqayisədə valideynlərindən gördükləri münasibəti necə dəyərləndirmələrinə, həmçinin ümumiyyətlə ailədəki mövqelərinə verdikləri qiymətləndirməni əhatə edir.

Birinci sualda məktəbli respondentlər valideyn sevgisinin bərabər, yoxsa qeyri-bərabər paylandığını dəyərləndirirlər. Bacı və qardaşlarına nisbətən valideynlər tərəfindən çox və ya az sevildiklərini qeyd edirlər. Bu sualda əksər respondentlər, yəni 69,9% bacı və qardaşının daha çox sevildiyi fikri ilə razılaşmasa da, ümumən 20,1% bu fikirlə tamamilə (9,4%) və ya qismən (10,7%) razılaşıb. Üstəlik, 3,6% cavab verməkdən imtina edib ki, bu da dolayı yolla qeyd olunan məsələnin emosional aktuallığına işarədir.

Bacı və qardaşı ilə müqayisədə valideynlərin şəxsinə qarşı ədalətsiz davrandığını hesab edən respondentlər ümumən 12,7%-dir, onlardan 3,4% bu fikirlə tamamilə, 9,3% qismən razıdır. Heç razı olmayanlar kifayət qədər çoxdur (78,3%). Respondentlərin cüzi bir qismi (2,6%) bu sualı cavablandırmaqdan imtina edib.

**Diaqram 29.**




"Məncə, valideynlərim bacı/qardaşımla müqayisədə mənə ədalətsiz davranır" bəndinin ailənin maddi durumu ilə korrelyasiyası bir daha bu amilin təsirini aşkarladı. Belə ki, Diaqram 30-dan göründüyü kimi, maddi durumu yoxsul kimi qiymətləndirilən respondentlər digərləri (orta və yüksək gəlirli) ilə müqayisədə özlərinə qarşı ədalətsiz davranıldığı fikri ilə daha çox (10,7%) razılaşıblar, orta və yüksək gəlirə malik olan respondentlərdə bu göstərici 2,8%-dir. Analoji olaraq qismən razılaşanlar arasında da aşağı gəlirli ailələrdən olan respondentlər üstünlük təşkil edir (14,3%).

[13] Чупахина Ю.А. Влияние иррациональных убеждений родителей на иррациональные убеждения детей, формирующиеся к юношескому возрасту //М.,2003,–24 с., – 2003.
[14] Андреева Т. В. Психология семьи. – 2010, с. 278.

**Diaqram 30. Məncə, valideynlərim bacı/qardaşımla müqayisədə mənə ədalətsiz davranır (maddi vəziyyətə görə)**

| | Aşağı gəlirli | Orta gəlirli | Yüksək gəlirli |
|---|---|---|---|
| Tamamilə razıyam | 10.7% | 2.8% | 2.8% |
| Qismən razıyam | 14.3% | 9.4% | 7.1% |
| Heç razı deyiləm | 65.5% | 78.9% | 80.2% |
| Cavab vermək istəmirəm | 3.6% | 2.4% | 2.8% |

Ailədə heç kim tərəfindən başa düşülməməsi fikri ilə respondentlərin böyük hissəsi razılaşmayıb (80,7%). Ancaq burada 5,4% tamamilə razı olan, 9,6% isə qismən razı olan respondentlər vardır.

Yuxarıda qeyd olunan hər üç sualın gender amilinə görə təhlili statistik əhəmiyyətli fərqləri üzə çıxarmadı. Lakin ailənin maddi durumu ilə korrelyasiya yenə də əhəmiyyətli statistik fərqləri üzə çıxarır.

**Diaqram 31. Mən elə düşünürəm ki, məni ailəmdə heç kim başa düşmür**

| | Aşağı gəlirli | Orta gəlirli | Yüksək gəlirli |
|---|---|---|---|
| Tamamilə razıyam | 10.7% | 5.3% | 3.3% |
| Qismən razıyam | 16.7% | 9.0% | 10.4% |
| Heç razı deyiləm | 71.4% | 81.4% | 82.1% |
| Cavab vermək istəmirəm | 1.2% | 0.9% | 1.4% |
| Aid deyil | 0.0% | 3.4% | 2.8% |

## III.2. Uşaqlar xoşbəxtdirlərmi?

Ev qeyri-formal ünsiyyət məkanı olmaqla, oradakı dominant emosional mühit hər bir ailə üzvünün psixi halətləri və fəaliyyətinə təsir göstərir. Bu baxımdan qeyd etmək lazımdır ki, yeniyetmə şəxsiyyətinə emosional labillik, impulsivlik, oyanıqlıq xas olduğundan onun evdəki emosional durumu digər psixi proseslərə dərindən nüfuz edir və aparıcı fəaliyyət növü olan təhsil prosesini dolayı olaraq şərtləndirir.

Tədqiqat çərçivəsində “Evdə özünü daha çox necə hiss edirsən?” sualına məktəbli respondentlərin 85,5%-i özünü xoşbəxt hiss etdiyini cavabını verib. 6,8% respondent "əsəbi", 4,5%-i "digər" cavabını seçib. 1,6% respondent qəmgin olduğunu, 1,3% cavab vermək istəmədiyini qeyd edib. 0,3% isə evdə daha çox qorxu hissi keçirdiyini etiraf edib. Bu suala verilən cavabların gender bölgüsünə görə təhlili əsasən statistik əhəmiyyətli fərqlər üzə çıxarmasa da, evdə daha çox əsəbi olduğunu qeyd edən qızlar oğlanlara nisbətən 3% daha çoxdur ( 5,4% və 8,4%).

**Diaqram 32.**




Bu sualın ailənin maddi durumu ilə korrelyasiyası ciddi məqamın aşkar olunmasını şərtləndirdi. Belə ki, evdə özünü daha çox xoşbəxt hiss etdiyini söyləyən yeniyetmə və gənc məktəblilər arasında maddi vəziyyəti yoxsul olanlar azlıq təşkil edir. Maddi vəziyyət yüksəldikcə xoşbəxt olduğunu söyləyənlərin də faiz göstəriciləri artır. Aşağı gəlirli ailələrdən olanların 71,4%-i evdə əsasən xoşbəxt olduğunu qeyd edibsə,

maddi səviyyəsi orta və yüksək olan ailələrdə bu göstərici uyğun olaraq 86% və 87,3%-dir. Əsəbi olduğunu söyləyənlər arasında isə əksinə, yoxsul ailələrdən olan uşaqlar üstünlük təşkil edir, ailənin maddi durumu yüksəldikcə, bu göstərici azalır: aşağı gəlirli ailələrdən olanların 15,5%-i, orta maddi duruma malik olanların 6,5%-i, yüksək gəlirli olanların isə 5,7%-i evdə əsasən əsəbi olduğunu qeyd edib. Digər emosional halətlərin ifadəsində statistik fərqlər bir o qədər böyük deyil.

**Diaqram 33. Evdə özünü daha çox necə hiss edirsən? (gender bölgüsünüə görə)**

| | Aşağı gəlirli | Orta gəlirli | Yüksək gəlirli |
|---|---|---|---|
| Xoşbəxt hiss edirəm | 71.4% | 86.0% | 87.3% |
| Əsəbi oluram | 15.5% | 6.5% | 5.7% |
| Qorxuram | 1.2% | 0.3% | 0.0% |
| Qəmgin hiss edirəm | 2.4% | 1.5% | 1.9% |
| Digər | 8.3% | 4.4% | 4.7% |
| Cavab vermək istəmirəm | 1.2% | 1.3% | 0.5% |

Ailə cəmiyyətin ən mühüm sosial institutu sayılır. Ata-ana-övlad üçlüyü cəmiyyətin kiçik modelidir və böyük mütəfəkkir R.Taqorun da dediyi kimi, istənilən sivilizasiyanın və cəmiyyətin əsas özəyi sayılır. Bu baxımdan uşaqların yetişməsində hər iki valideynin mövcudluğunun öz rolu var. Natamam ailədə (ata və ya ananın olmadığı) yetişən uşaqlarda yaranan komplekslər onların gələcəkdə bir şəxsiyyət kimi formalaşmasına da təsirini göstərir. Keçirilən sorğudan çıxan nəticədə də natamam ailələrdə olan uşaqların daha çox əsəbi və özlərini daha çox qəmgin hiss etdiklərini müşahidə etmək olur. Ancaq qeyd olunmalı mühüm məqam həm də odur ki, uşaqların subyektiv məmnunluq hissi sadəcə ailə strukturunun özü ilə deyil, həm də bu ailə strukturuna ətrafdakıların münasibəti ilə şərtlənir. Yəni təkvalideynli ailələrdə valideyn bir çox hallarda rol konflikti yaşasa da (həm ailənin maddi dolanışığını təmin etməli, həm də birbaşa qayğı vəzifələrini yerinə yetirməlidir), eyni zamanda ətrafdakıların mənəvi təzyiqi ilə üzləşir. Uşaqların isə ətrafdakı uşaq və böyüklər tərəfindən stiqmatizasiyaya məruzqalma ehtimalı yüksək olur. Məhz bu kənar təzyiq kumulyativ stress yaradan amil kimi, natamam ailənin həm yetkin üzvləri, həm də belə ailələrdə böyüyən uşaqların emosional aləminə mənfi təsir göstərir.

Qeyd edək ki, sorğuda iştirak edən məktəblilərin hər iki valideyni olan 88,7 %, yalnız bir valideyni ilə yaşayan 8 %, öz valideyni ilə yaşamayanlar (başqa şəxslər tərəfindən himayəyə götürülənlər) 3,3% təşkil edir.

Hər iki valideyni olan məktəbli respondentlər özlərini daha çox xoşbəxt (87,6 %) və daha az qəmgin (1,2%) hiss edirlər. Yal-

**Diaqram 34. Evdə özünü necə hiss edirsən?**

| | Hər iki valideyni olanlar | Yalnız bir valideyni ilə yaşayanlar | Öz valideyni ilə yaşamayanlar |
|---|---|---|---|
| Xoşbəxt hiss edirəm | 87.6% | 73.4% | 64.1% |
| Əsəbi oluram | 6.1% | 10.6% | 12.8% |
| Qorxuram | 0.4% | 0.0% | 0.0% |
| Qəmgin hiss edirəm | 1.2% | 5.3% | 5.1% |
| Digər | 3.7% | 9.6% | 15.4% |
| Cavab vermək istəmirəm | 1.2% | 1.1% | 2.6% |

nız bir valideyni ilə yaşayanların 73,4%-i özlərini xoşbəxt, 5,3%-i qəmgin hiss edir, 10,6 %-i əsəbi olduğunu qeyd edib.

Öz valideyni ilə yaşamayanların 64,1%-i özünü xoşbəxt, 12,8%-i əsəbi, 5,1%-i isə qəmgin hiss etdiyini bildirib.

Ailə münasibətlərindəki ümumi problemlərə gəlincə isə ekspertlər aqressiyanın yüksək olduğunu qeyd ediblər. Psixoloqlardan biri uşaqların empatiya bacarığının aşağı düşməsini və daxili aqressiyalarının uşaqlara mənfi təsirini, bağça müdirəsi isə bağçaya gətirilən uşaqlarda əsəbiliyin geniş yayıldığını nəzərə çatdırıb. Xüsusilə, boşanmış ailələrdən olan uşaqlarda aqressiv davranışların daha çox rast gəlindiyini, daim narazı kimi halların müşahidə olunduğunu deyib. Ailələrdə uşaqların sayının az olması (2 və ya 1 uşaq) özünəqapanma, eqoizm hallarının artması ilə müşahidə olunur. Ekspertlər problemin yaranmasının başlıca səbəb kimi ailələrdə, məktəblərdə və uşaq bağçalarında psixoloqların fəaliyyətinin qənaətbəxş olmamasını qeyd edirlər.

# IV BÖLMƏ.

# TƏDRİS

**IV.1. Səriştələrə yönəlik təhsil mühitinin yaradılması: məktəbə bağlılıq, təlim prosesinə uyğunlaşma, sosial-psixoloji adaptasiya problemləri**

**IV.1.1. Orta məktəblərdə psixoloji işin təşkili və ona münasibət**

**IV.2. Ailə və məktəb arasında qarşılıqlı münasibətlər: ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemi, səriştəli valideyn paradiqmasının yaradılması**

**IV.3. Pandemiya dövründə təhsil**

*Azərbaycanda orta təhsil pilləsi üzrə təhsil iki formada həyata keçirilir. Təhsil müəssisələri içərisində əyani ümumi təhsil müəssisələri əsasən üstünlük təşkil etsə də, qiyabi (axşam) təhsil müəssisələri də mövcuddur.*

*2019-cu ilin məlumatlarına əsasən, əyani təhsil müəssisələrinin sayı 4.433-dür. 2018-ci illə müqayisədə təhsil müəssisələrinin sayında azalma (6 ədəd) baş vermişdir. Məktəbəqədər təhsil müəssisələrində olduğu kimi ümumi təhsil müəssisələrində də dövlət müəssisələri üstünlük təşkil edir.*

*2019-cu ildə dövlət ümumi təhsil müəssisələrinin sayı azalsa da, qeyri-dövlət təhsil müəssisələrinin sayı artmışdır. 2019-cu ildə mövcud olan ümumi əyani təhsil müəssisələrinin 99.3%-ni dövlət müəssisələri təşkil etdiyi halda, qeyri-dövlət təhsil müəssisələri üçün bu göstərici 0.7% təşkil edir.*

*2019-cu ildə əyani təhsil müəssisələrinə cəlb olunan uşaqların ümumi sayında həm dövlət, həm də qeyri-dövlət ümumi təhsil müəssisələri üzrə artım qeydə alınmışdır. 2019-cu ildə əyani ümumi təhsilə cəlb olunan uşaqların sayı 54.230 nəfər artaraq 1.616.105 nəfər olmuşdur. Əyani təhsil alanların 99%-i dövlət, 1%-i isə qeyri-dövlət ümumi təhsil müəssisələrində təhsil alır.*

*Təhsilə cəlb olunanlar içərisində də oğlanlar qızlarla müqayisədə üstünlük təşkil edir. 2020-ci ildə əyani təhsilə cəlb olunanların 53.3%-ni oğlanlar, 46.7%-ni qızlar təşkil edir.*

*Əyani ümumi təhsil müəssisələri ilə müqayisədə qiyabi (axşam) təhsil müəssisələrinin sayı dəfələrlə azdır. Ölkə üzrə cəmi 7 qiyabi ümumi təhsil müəssisəsi fəaliyyət göstərir. 2019-cu ildə qiyabi təhsilə cəlb olunanların sayında azalma qeydə alınıb. 2018-ci ildə qiyabi təhsildə 1.480 şagird təhsil aldığı halda 2019-cu ildə bu rəqəm azalaraq 1.033 nəfər olmuşdur. Bu azalma həm oğlan, həm də qız şagirdlər arasında baş verib. Qiyabi təhsilə cəlb olunan şagirdlərin 94.3%-ni oğlanlar, 5.7%-ni qızlar təşkil edir.*[15]

## IV.1. Səriştələrə yönəlik təhsil mühitinin yaradılması: məktəbə bağlılıq, təlim prosesinə uyğunlaşma, sosial-psixoloji adaptasiya problemləri

Uşaq hüquqları ilə bağlı ən vacib istiqamətlərdən biri müxtəlif yaş qrupları üzrə uşaqların təhsil prosesinə cəlb edilməsi və iştirakçılığı məsələsidir. Ümumiyyətlə, bütün dünyada bilik və bacarıqlara, səriştələrə yönəlik təhsilin qurulması müasir dövrün yeni təhsil ideyasına çevrilib. Şagirdlərə və tələbələrə hazır bilikləri mənimsətmək modeli artıq səriştə və bacarıqların yaradılması ilə əvəzlənir. Biliklər səriştələrə keçməli, təcrübədə özünü doğrultmalıdır.

Klassik yanaşmada təhsil insanı həyata hazırlayırdı, indi bu hazırlıq bütün həyat boyu davam edir və “ömürlük təhsil” sistemi formalaşır. 1990-cı ildə Tailandda UNESCO-nun təşəbbüsü ilə keçirilən “Hamı üçün Təhsil - Ümumdünya Konfransında” isə Hamı üçün Təhsil haqqında Ümumdünya Bəyannaməsi qəbul olundu və ölkələrə çağırış edildi ki, “təhsil dünyanın hər yerində hamının, yaşından asılı olmayaraq bütün qadın və kişilərin təməl hüququdur”.[16]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”nda ümumi təhsilin məzmununa dair ümumi tələblər sırasına fərdin, dövlətin, cəmiyyətin dövrə uyğun sosial sifarişinin, maraq və tələbatlarının nəzərə alınması; təhsilalanların yaşına, fizioloji-psixoloji xüsusiyyətlərinə uyğun olaraq,

---

*[15] Təhsilin əsas göstəriciləri. /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi/ -https://www.stat.gov.az/source/education/; Uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin məlumatları əsasında ANALİTİK HESABAT. / Tədqiqat qrupu: Sosial Tədqiqatlar Mərkəzinin İctimai rəyin öyrənilməsi departamenti/. Bakı, 2021*

*[16] World Declaration on Education for All and Framework for Action to meet basic learning need/ - https://www.humanium.org/en/world-declaration-on-education-for-all/*

onların əqli, fiziki, mənəvi, estetik inkişafının, müstəqil əmək və təhsil həyatına hazırlanmasının, cəmiyyətin fəal və təşəbbüskar üzvü kimi formalaşdırılmasının təmin olunması; təhsilalanların zəruri nəzəri və praktik biliklərlə yanaşı, şəxsiyyətin formalaşdırılmasına yönəldilmiş səriştələrə yiyələnməsinin prioritet hesab edilməsi; ümumi təhsil pilləsində formalaşdırılmış səriştələrin müstəqil həyatda təhsilalanlar üçün faydalı olmasının təmin edilməsi; potensialın reallaşdırılması və inkişafı üçün etibarlı zəmin yaradılması və s. amillər daxildir. Ümumi təhsilin məzmunu milli və ümumbəşəri dəyərləri əks etdirməklə dünyəvilik, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, nəticəyönümlülük, varislik və inteqrativlik prinsipləri əsasında hazırlanır.[17]

Digər bir rəsmi sənəddə - Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əksini tapmış strateji istiqamətlərdə müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun, ömür boyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin yaradılması və tətbiqi nəzərdə tutulur.[18] Həmçinin səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, səriştə əsaslı ümumi təhsil standartları və kurikulumlarının hazırlanması əsas hədəflərdən biri kimi qeyd olunur. Bütün bunlar isə məktəbdə yaradılan şəraitdən və verilən təhsilin keyfiyyətindən asılıdır.

Ümumiyyətlə, məktəb uşaqların gələcək həyatında önəmli yer tutur. Məktəb təhsili insanın şəxsiyyətinin və ümumiyyətlə həyatının təməlidir. Yüksək keyfiyyətli təhsil hər bir insanın həyatının mühərriki və onun vacib hissəsidir. Azərbaycanda hər bir insan təhsil almaq hüququna malikdir. Bu hüquq Azərbaycan Konstitusiyasının 42-ci maddəsində təsbit edilmişdir.[19]

Cəmiyyətdə yaşayan müasir, mədəni bir insanın həyatı təhsil olmadan mümkün deyil. Şəxsiyyət öyrənmənin təsiri altında formalaşır. Təhsil almaqla insan lazımi bilik və bacarıqları qazanır, özünəinam hissini inkişaf etdirir. Şəxsiyyət formalaşmasının hər bir mərhələsində bir insan təhsil anlayışını müxtəlif cür qəbul edir. Uşaqlar və tələbələr bunun yalnız çox şey bilən və oxuyan ən ağıllı insan olduğuna əmindir. Şagirdlər bu anlayışa təhsil nöqteyi-nəzərindən baxırlar, bir təhsil müəssisəsini bitirdikdən sonra savadlı insanlar olacağına inanırlar. Yaşlı nəsil bu obrazı daha geniş və düşüncəli qəbul edir, belə bir insanın öyrənməklə yanaşı, öz bilik deposuna, ictimai təcrübəsinə əsaslanaraq, bilikli, yaxşı oxumalı olduğunu da dərk edir.

Hər şeydən öncə məktəbi uşaqlara sevdirmək lazımdır. Məktəb həyatının fərdin gələcək inkişafında mühüm rol oynadığını nəzərə alıb ilkin addımdan bu amilə ciddi yanaşmaq lazımdır. Birinci sinfə gedən uşaqlar məktəb mühitinə - təlim prosesinə, nizam-intizam qaydalarına və s. uyğunlaşmağa başlayırlar. Bu isə uşaqlarda psixoloji-sosioloji adaptasiya problemləri yaradır. Həmin problem məktəbəqədər hazırlıq qrupunda iştirak etməyən şagirdlərdə daha çox müşahidə olunur. Bu mərhələni uğurla keçən uşaq təhsil aldığı bütün mərhələlərdə məktəbə, təhsil mühitinə bağlı olur.

Heç şübhəsiz, ümumi təhsil müəssisələrində sağlam mühit təhsilin keyfiyyətinin yüksəlməsinə və bununla da nailiyyətlərin artmasına şərait yaradır. Keyfiyyətli təhsil dedikdə isə yalnız yüksək səviyyəli elmi-nəzəri biliklərin məktəbliyə ötürülməsi deyil, şagirdin cəmiyyətdə fəal mövqeyə malik, aldığı bilikləri gündəlik həyatda operativ şəkildə tətbiq etməyi bacaran bir vətəndaş kimi yetişməsinə səbəb olan təhsil nəzərdə tutulur. Həmçinin, keyfiyyətli təhsil yüksək səviyyəli maddi-texniki bazası olan

*[17] Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. / Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmişdir/ - http://e-qanun.az/framework/46052*
*[18] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. / Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://president.az/articles/9779*
*[19] Azərbaycan Respublikasının Konstitusiyası. - http://www.e-qanun.az/framework/897*

məktəbi, səmimi, peşəkar pedaqoji kollektivi, valideynlərin məktəbə, müəllimlərə və texniki işçilərə münasibətini əhatə edir.

Məktəbin, burada verilən keyfiyyətli təhsilin insanın həyatındakı rolunu nəzərə alıb sorğuya cəlb edilmiş şagird respondentlərdən ilk növbədə məktəbi nə dərəcədə xoşladıqları soruşulub. Respondentlərin 54.6%-i çox xoşladığını, 39.7%-i müəyyən qədər xoşladığını bildirib. 5.2% respondent məktəbi heç xoşlamadığını qeyd edib. 0.5% respondent bu suala cavab vermək istəməyib.

**Diaqram 35.**




Cavabların təhlili göstərir ki, pandemiyanın məktəbə, burada çalışan və təhsil alan müəllim-şagird kollektivinə, bütövlükdə təhsil sistemimizə vurduğu mənfi təsirlərə, uşaqların, yeniyetmələrin müəyyən qədər məktəbdən, ənənəvi dərslərdən uzaq düşməsinə baxmayaraq ümumilikdə şagirdlərin məktəbə münasibəti müsbətdir. Şəhərdə yaşayan respondentlərin 46.1%-i, qəsəbədə yaşayan respondentlərin 39.9%-i, kənddə yaşayan respondentlərin 67.6%-i məktəbi xoşladığını qeyd edib.

Məktəbi müəyyən qədər xoşlayanların faiz dərəcəsi müvafiq olaraq belədir: 44.8% (şəhər), 55.2% (qəsəbə), 29.4% (kənd). Məktəbi heç xoşlamayan respondentlərin 9%-i şəhərdə, 4.5%-i qəsəbədə, 2.5%-i isə kənddə yaşayır. Bu suala verilən cavablardan bu qənaətə gəlmək olar ki, kənd məktəbində təhsil alanlar məktəbə daha çox bağlıdırlar ($X^2(6)=82.407$, $p<0.01$).

Ailəsinin maddi vəziyyətindən asılı olmayaraq respondentlərin yarıdan bir az çoxu (54%) məktəbi xoşladığını bildirib. Məktəbi heç xoşlamadığını qeyd edənlər arasında özünü yuxarı gəlirli ailəyə aid edənlər (9.4%) özünü aşağı gəlirli ailəyə aid edənlərə (4.8%) nisbətdə üstünlük təşkil edir.

Valideynlərinin təhsil səviyyəsindən asılı olmayaraq məktəbi xoşlayan respondentlərin faiz göstərisi 50%-dən yuxarı, müəyyən qədər xoşlayanların faiz göstəricisi isə müvafiq olaraq 35-45% arasıdır.

Şagird respondentlərdən ən çox sevdikləri dərsin və ya fənnin adı da soruşulub. Respondentlərin 24.3%-i ən çox xoşladığı fənn kimi Azərbaycan dilini, 15.7%-i cəbri, 13%-i xarici dili, 7.2%-i Azərbaycan tarixini, 6.3%-i biologiyanı, 5.1%-i fizikanı, 4.3%-i fiziki tərbiyəni, 3,5%-i ədəbiyyatı və s. qeyd edib.

**Diaqram 36.**



Heç şübhəsiz, məktəbdə səmimi, yaradıcı və sağlam mühitin formalaşdırılması birbaşa idarəetmənin düzgün təşkilindən asılıdır. Ümumi təhsil müəssisəsinin idarəolunması elə qurulmalıdır ki, orada hər kəs özünü rahat hiss etsin, məktəb rəhbərliyi, müəllim, şagird və valideynlər arasında səmimi münasibət qurulsun. Şagird müəllimlərinin onu valideyni qədər sevdiyini, gələcəyi üçün çalışdığını düşünsün. Məktəbdə şagirdin yüksək bilik əldə etməsi və müasir tələblər səviyyəsində inkişafı üçün şərait yaradılsın. Şagird təhsil aldığı məktəbə həvəslə gəlsin. Yalnız belə mühitdə bilikli, dünyagörüşlü, Vətənini, torpağını, xalqını, o cümlədən məktəbini, müəllimini və valideynini sevən şagird yetişdirmək olar.

Şagirdlər arasında dostluq və yoldaşlıq münasibətlərinin formalaşdırılması da tədrisin keyfiyyətinə, onların məktəbə bağlılığına təsir edən amillərdir. Şagirdlərlə aparılmış sorğunun nəticələrindən aydın olur ki, bu sahədə vəziyyət heç də arzu olunan səviyyədə deyil. Belə ki, oğlan respondentlərin 29%-nin, qız respondentlərin isə 22.7%-nin heç bir dostunun olmadığını qeyd etməsi məktəb-valideyn-şagird münasibətlərində ciddi problemlərin qalması, xüsusilə təhsil işçilərinin ən çox narahat etdiyi məktəb psixoloqu təsisatının ölkənin təhsil sistemində zəif inkişaf etməsi, hətta bəzi hallarda məktəblərdə psixoloqun olmaması və yaxud istiqaməti üzrə fəaliyyət göstərməməsi ilə bağlıdır. Son illər şagirdlər arasında müşahidə edilən intihar hadisələrinin kökünü də bu amillərdə axtarmaq lazımdır. Xüsusilə 10-11-ci sinif şagirdlərinin faiz nisbətilə "heç bir dostunun olmaması" cavabını seçməsi hər bir məktəbdə yetkinlik yaşını yaşayan şagirdlərin psixoloji portretlərinin yaradılmasını zəruri edir.

Sorğunun nəticələrinin təhlili göstərir ki, şəhərdə yaşayan oğlan respondentlərin 28.8%-nin, qəsəbədə yaşayanların 27.8%-nin, kənddə yaşayanların 29%-nin heç bir dostu yoxdur. Qız respondentlər arasındakı müvafiq bölgü belədir: 22.5% (şəhər), 21.5% (qəsəbə), 23.9% (kənd).

**Diaqram 37.**




Ailəsinin maddi vəziyyətinə görə özünü aşağıgəlirli ailəyə aid edən oğlan respondentlər arasında heç dostunun olmadığını qeyd edənlər üstünlük təşkil edir (32.1%).

Ən çox faiz göstəricisi 1-5 dostluq qrupları üzrə müşahidə edilib: oğlan respondentlər üçün 48.2%, qız respondentlər üçün isə 60.2%.

### IV.1.1. Orta məktəblərdə psixoloji işin təşkili və ona münasibət

Aparılan araşdırmalar göstərir ki, son illər məktəb psixoloqları Təhsil Nazirliyi tərəfindən keçirilən müxtəli treninq və məşğələlərdə iştirak etməklə öz peşəkarlıq səviyyələrini artırsalar da, məktəblərdə psixoloji işin təşkili ilə bağlı bir çox ciddi problemlər qalmaqdadır. Müşahidələr göstərir ki, 1000 nəfərdən çox müəllim-şagird kollektivi olan məktəblərdə cəmi 1 nəfər psixoloqun olması səmərəlilik baxımdan yetərli deyil.

Şagirdlərlə aparılan bu genişaspektli sorğuda yuxarıdakı sualın davamı olaraq şagird respondentlərdən təhsil aldıqları məktəbdə psixoloqun olub-olmaması soruşulub. Respondentlərin 70.9%-i təhsil aldıqları məktəbdə psixoloqun olduğunu, 20.8%-i olmadığını bildirdiyi halda, 8.3% respondentin bu məsələ ilə bağlı heç bir məlumatı yoxdur.

**Diaqram 38.**




Respondentlərin cavablarından belə aydın olur ki, şəhər (81.2%) və qismən də qəsəbədə (75.8%) fəaliyyət göstərən məktəblərdə psixoloq var, lakin kənd məktəblərində psixoloq ya yoxdur, ya da çox az saydadır (32.6% “xeyr” cavabını verib) ($X^2(4)=79.899$, $p<0.01$).

Sorğuda iştirak edən respondentlərin 21.9%-nin təhsil aldığı məktəbdə psixoloqun olmadığını, 8.2% respondentin isə bu məsələ ilə bağlı heç bir məlumatının olmadığını bildirməsi bir daha bu məsələdə ciddi problemlərin olmasından xəbər verir.

Özünü yuxarı gəlirli ailəyə aid edənlər (83%) aşağı gəlirli ailəyə aid edənlərə (58.3%) nisbətən “Təhsil aldığın müəssisədə psixoloq varmı?” sualına “bəli” cavabını verib.

Məktəbin tədris və tərbiyə müəssisəsi olduğunu və vətəndaş yetişdirdiyini nəzərə alsaq, psixoloqların təhsil prosesində nə qədər əhəmiyyətli rol oynadığını və onların üzərinə çox çətin, məsuliyyətli iş düşdüyünü deyə bilərik.

Təəssüf doğurucu hal odur ki, ümumilikdə Azərbaycan cəmiyyətində, o cümlədən məktəbdə psixoloqa müraciət etmək ənənəsi hələ ki tam formalaşmayıb. Bu həm bəzi mental xüsusiyyətlərdən, həm də cəmiyyətdə psixoloq institutuna inamın tam formalaşmamasından irəli gəlir. Sorğuya cəlb edilmiş şagird respondentlərin yalnız 10.5%-i (müvafiq olaraq şəhər (11%), qəsəbə (10.1%), kənd (10.6%)) son 3 ildə məktəb psixoloquna müraciət etdiyini və bunun ona faydasının olduğunu, 1.2%-i (müvafiq olaraq şəhər (0.8%), qəsəbə (1.2%), kənd (1.6%)) isə müraciət etsə də, bunun faydasının olmadığını bildirib. 86.4% respondent (müvafiq olaraq şəhər (86%), qəsəbə (87%), kənd (86.2%)) ehtiyac duymadığına görə məktəb psixoloquna müraciət etməyib. 2% respondent (müvafiq olaraq şəhər (2.2%), qəsəbə (1.8), kənd (1.6%)) bir faydasının olacağını düşünmədiyi üçün psixoloqa müraciət etməyib.

**Diaqram 39.**




Ekspertlərlə aparılmış müsahibələrdə də məktəb psixoloqu təsisatının məktəblərdə inkişaf etdirilməsinin zəruriliyi təklif kimi qeyd olunub. Bəzi ekspertlər məktəblərdəki mövcud psixoloji xidmətlərin kadr çatışmazlığından əziyyət çəkdiyini bildirib.

*“Valideyn və şagirdlərə təlimlər keçirilməlidir. Bu təlimlər məktəblərdə və bağçalarda təşkil edilməlidir. Çünki valideynlərin bir çoxu valideyn olmağa psixoloji cəhətdən hazır olmurlar. Məktəblərdə valideyn iclaslarında psixoloqlar da iştirak etməli, uşaqlarla psixoloji alyans yaratmalıdırlar. Psixoloqlar uşaqların psixoloji vəziyyətini təhlil etsələr, onları düzgün yönləndirsələr, daha mükəmməl nəticə əldə edə bilərlər. Efirə çıxıb, 15-20 dəqiqə hər*

*hansı bir valideynin sualına cavab verməklə məktəbdəki təlim-tərbiyə işində heç bir nəticə əldə etmək olmaz. Çünki hərə bir xasiyyətdədir və hər bir ailənin özünəməxsus bir səviyyəsi, alqısı olur. Ona görə də, tədbirlər keçirilməli və məktəblərdə psixoloq ştatları açılmalıdır". /Fərqanə Mehmanqızı/*

*"Məktəblərdə şagirdlərə psixoloji dəstəklə bağlı vəziyyət Azərbaycanda çox gərgindir. Ciddi psixoloq çatışmazlığı müşahidə edilir. Bir çox məktəblərdə ayrıca psixoloq otağı olsa da, psixoloqun özü yoxdur. Yaxud əksinə, psixoloq var, otağı yoxdur. Hərə bir şəkildə özü bir sistem qurmağa çalışır. Fikrimizcə, yalnız mərkəzdə fəaliyyət göstərən məktəblərdə psixoloq var". /Vasif Bəşirov/*

*"Demək olar ki, Bərdə də iki-üç məktəb istisna olmaqla bütün digər məktəblərimizdə psixoloji xidmətlər fəaliyyət gostərir. Psixoloji xidmətləri də psixoloqlar göstərir. Bəzi məktəblərdə hətta iki psixoloq fəaliyyət gostərir. Biz də işləyirik, tədbirlər keciririk. Burada həmçinin psixoloji inkişaf dərsləri var. Pandemiya ilə əlaqədar olaraq, onlayn tədbirlər, seminarlar təşkil edirik. Uşaqlarla intiharla bağlı tədbirlər keciririk. İstər-istəməz elə məktəblər var ki, 700-800 uşaq təhsil alır. Məktəbin isə bir psixoloqu var. Fiziki cəhətdən çatdırmaq mümkün deyil. Psixoloqların sayı artsaydı, ixtisasartırma kurslarına cəlb olunsaydı, daha yaxşı olardı". /Xuraman Qurbanova/*

Bəzi valideynlərin övladlarını böyütməklə bağlı yanaşmasını isə psixoloq və sosial işçilər (3 respondent) problemli olduğunu hesab edirlər. Geniş yayılmış fikir bundan ibarətdir ki, bir çox valideyn övladını böyüdərkən onunla empatiya qurmur. Əvəzində, valideyn öz istək və düşüncələrini övladına yeritməyə çalışır ki, bu da uşaqların psixoloji durumuna, eləcə də gələcək perspektivlərinə mənfi təsir edə bilər;

*"Əksər ailələrdə valideynlər uşaqların psixologiyasının sırf öz maraqlarına uyğun şəkildə formalaşmasında maraqlı olur. Bu da özlüyündə uşaqları hansısa səmtə yönəltməklə manipulyasiya elementi kimi çıxış edir. Bu zaman uşaqların öz arzu və maraqları nəzərə alınmır. Bu gün cəmiyyətdə özünəgüvən çatışmazlığı yaşayan insanların üzləşdikləri problemin kökündə məhz bu kimi amillər dayanır. Belə ki, çox zaman valideynlər kiçik yaşlarından etibarən uşaqların bacarıqlı olduqları istiqamətlərdə deyil, yalnız öz istədikləri tərzdə onları yetişdirməyə çalışırlar". /Gülər Məmmədova/*

*"Müşahidələrimə əsasən, hər hansı psixoloji vəziyyətlə bağlı valideynlər yalnız problemin növbəti səviyyələrində qəsəbədəki uşaq psixoloquna müraciət edirlər. Bu zaman problemə malik əsas qrupu azyaşlılar deyil, nisbətən yuxarı yaşlı yeniyetmələr təşkil edir. Buradan aydın olur ki, valideynlər övladların kicik yaşlı məktəb dönəmində meydana gələn problemləri sezmirlər. Buna görə də olduqca problemli psixoportreti olan uşaq yeniyetməlik dövrunə qədəm qoyur. Bu halda qeyd olunan vəziyyətin düzəldilməsi istiqamətində iş aparılması yüksək səylər tələb edir. Yaranan psixoloji boşluqların tamamlanması üçün geniş dövrü əhatə edən seansların həyata kecirilməsi tələb olunur. Digər problem isə maddi qayğılar və ya laqeyd yanaşma səbəbilə bəzən valideynlərin psixoloji yardım alınmasında maraqlı olmamalarıdır. Digər halda isə valideyn maddi çətinlik və ya məlumatsızlıq səviyyəsinin aşağı olması ilə bağlı olaraq qəbul edilən seansların yarıda saxlanılması və ya sadəcə qısa müddəti əhatə etməsinə yönəlirlər. Müəyyən hallarda bu mövzuda daha təfəkkürlü çıxış edən valideynlər isə övladları üçün psixoloq konsultasiya və seanslarını məqsədəuyğun hesab etsələr və yaranan*

*problemlərin həllində psixoloqla birgə səy göstərilməsində maraqlı olsalar da, əksər hallarda onlar da yenə nisbətən yuxarı yaşda olan (yeniyetmə) övladları üçün bu addımları atırlar. Başqa sözlə, peşəkar müayinə və yardıma gec müraciət edirlər" /Gülər Məmmədova/.*

*"Özündə hər hansı problemləri olan valideynlər çalışırlar ki, problemləri gizlətsinlər, uşaqlarını isə maksimum ideallaşdırmağa can atırlar. Bu isə uşağı, yəni şəxsiyyəti əzmək deməkdir. Əzilmiş şəxsiyyət isə cəmiyyət üçün heç bir önəm daşımayan fərd olaraq yetişəcək. / Fərqanə Mehmanqızı/*

Həm bu sorğunun nəticələri, həm də aparılan araşdırmalar və müşahidələr respublikanın orta ümumtəhsil məktəblərində mövcud olan ciddi problemlərdən birinin psixoloqlarla bağlı olduğunu sübut edir. Təəssüf ki, bu gün orta məktəblərdə mövcud olan psixoloji xidmətə münasibət ürəkaçan deyil və bu iş formal xarakter daşıyır. Məktəblərin hazırlıqlı psixoloqlarla təmin edilməsi üçün yetərincə mütəxəssis yoxdur. Təhsil mühitinin yaradıcı təlim mühitinə çevrilməsi, yaradıcı təfəkkürə malik müstəqil şəxsiyyətin yetişdirilməsini təmin edən yaradıcı müəllimlərin və fəal-interaktiv təlim metodlarının hazırlanması baxımından da psixoloji xidmətin əsaslı şəkildə yenidən qurulması zəruridir.

Ümumiyyətlə, həm paytaxt, həm də respublikanın digər məktəblərində psixoloqların praktik və elmi-metodiki bilik və peşə bacarıqlarının inkişaf etdirilməsi, psixoloqların hazırlığının və psixoloji xidmətin müasir tələblər baxımından təşkili, psixoloji işin aparılması üçün adekvat şəraitin və imkanların yaradılması, həmçinin məktəblərdə psixoloji xidmətin və bu sahədə işin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün psixoloqların xüsusi kabinet və müvafiq alətlərlə təmin edilməsi olduqca vacibdir.

Bundan başqa, bəzi ümumtəhsil məktəblərində kifayət qədər peşəkar və səriştəli kadrlar olsa da, onlar arasında öz işlərini lazımi səviyyədə görməyən psixoloqlar da var. Uşaqlar və yeniyetmələr arasında artan psixoloji problemlər də bunu sübut edir. Məktəblərdə psixoloq ştatlarında çalışanların fəaliyyətinin təyinatı üzrə təşkil edilməsi uşaqlar və yeniyetmələr arasında psixoloji problemlərin həlli baxımından vacibdir. Şagirdlərin psixoloqa olan ehtiyacı ödənilmədiyindən, psixoloji problemləri həllini tapmadığından, aşağı siniflərdən tutmuş, yuxarı siniflərə qədər uşaqlar arasında intiharlar artır. Bu, uşaqların həyata hazır olmaması, çətin məqamlarda çıxış yolu tapa bilməməsi üzündən baş verir. Şagirdlərdə depressiya müşahidə olunur. Bu problemlərin əsas səbəbi bizim məktəblərdə psixoloqların işinin günün tələblərinə cavab verməməsidir.

Bildiyimiz kimi, Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin psixoloji xidmət səviyyəsinin yüksəldilməsi və ixtisaslı psixoloq kadrları ilə təmin olunması istiqamətində zəruri tədbirlər görülür, psixoloqların bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılır. Ümumtəhsil məktəblərinin müasir tələblərə cavab verən psixoloqlarla təmin edilməsinin vacibliyi nazirlik rəsmilərinin açıqlamalarında da tez-tez vurğulanır.

Təhsil Nazirliyinin təklifi əsasında Milli Məclisdə "Təhsil haqqında" Qanuna psixoloji xidmətin təşkili ilə bağlı yeni maddə əlavə edilib, məktəb psixoloqunun fəaliyyətini tənzimləyəcək qaydalar layihəsi hazırlanıb.

Qeyd edək ki, məktəbdə psixolojin işin yüksək səviyyədə təşkili üçün psixoloq tərəfindən vaxtaşırı psixoloji testlər keçirilməli, il boyu məktəb şagirdlərinin (I sinifdən başlayaraq) psixoloji pasportları yaradılmalı, şagirdlərin psixi sağlamlığının profilaktikası üçün psixi profilaktik işlər aparılmalı, müəllim-şagird münasibətlərinin vəziyyətini öyrənmək məqsədilə vaxtaşırı psixoloji sorğular keçirilməli, şagirdlərin emosional davranışlarının və tədris "pozuntuları"nın

zərərsizləşdirilməsi üçün psixoprafilaktik iş aparılmalı, görülən işlərlə bağlı qeydiyyat aparılmalı, çətin tərbiyə olunan və həssas qrupa daxil olan uşaqlarla bağlı zəruri məlumatlar toplanmalı, siniflərdə müxtəlif mövzularda söhbətlər aparılmalı, məktəbin müəllimləri və valideynlərlə də geniş əlaqələr qurulmalı, hətta şagirdlərə peşə və ixtisas seçimində yaxından kömək edilməlidir. Məktəb psixoloqu təkcə şagirdləri deyil, dərs deyən müəllimləri də nəzarətdə saxlamalı, lazım gələrsə, onlara da psixoloji dəstək göstərməlidir. Problemi olan müəllim, təbii ki, keyfiyyətli dərs deyə bilməz. Bu baxımdan pedaqoji kollektiv də daim nəzarətdə saxlanılmalıdır.

Məktəb psixoloqlarının başlıca vəzifələri psixoprofilaktik və psixodiaqnostik iş prosesində təhsildə çətinliklərlə qarşılaşan, inkişafı və davranışında çatışmazlığı olan uşaqların üzə çıxarılması məqsədilə şagirdlərin intellektual və şəxsi emosional inkişafının fərdi-psixoloji xüsusiyyətlərini öyrənmək, siniflərdə və qruplarda sosial-psixoloji mühiti tədqiq etməkdir. Məktəb psixoloqu uşaqların məktəbə psixoloji cəhətdən hazırlığını diaqnostika edərək, onların birinci sinfə qəbul edilməsində iştirak edir. O, şagirdlərin yaş və inkişaf səviyyələrini müəyyənləşdirərək onları ibtidai təhsil pilləsindən ümumi orta, tam orta təhsil pillələrinə və peşə məktəblərinə keçərkən psixoloji müayinə etməli, müəllim, valideyn və mütəxəssislərlə birlikdə uşaqlarla fərdi iş proqramını işləyib hazırlamalıdır. Psixodiaqnostik iş zamanı psixoloq psixi cəhətdən inkişaf edən uşaqları, effektiv-emosional pozuntulara və pis davranışa meyilli olan uşaqları, habelə ümumi və xüsusi istedadlı uşaqları üzə çıxarmalıdır. Alkoqolizmin, narkomaniyanın, cəmiyyətə zidd davranış formalarının qarşısını almaq üçün yeniyetmələrlə, onların valideynləri və müəllimləri ilə profilaktik iş aparmalıdır.

Həmçinin uşaqların təlim-tərbiyəsi problemləri ilə bağlı məktəbin müdiriyyətinə, müəllimlərinə, valideynlərə və tərbiyəçilərə məsləhətlər verməli, təlim, inkişaf, həyatda öz yerini tutmaq problemləri, həmyaşıdları ilə qarşılıqlı münasibətləri, özünütərbiyə məsələləri ilə bağlı uşaqlara məsləhətlər verməlidir. Pedaqoji şuranın iclaslarında, metodbirləşmələrdə, ümumməktəb və valideyn yığıncaqlarında iştirak etməlidir.

Bundan başqa, məktəb psixoloqlarının funksiyaları aydın şəkildə işlənməlidir. Heç şübhəsiz, ali təhsil müəssisəsində çalışan müəllim köhnə ədəbiyyatlarda olan və sırf nəzəriyyəyə əsaslanan məlumatları tələbələrinə çatdırmaqdan başqa iş görə bilmirsə, demək, bu tip ali məktəblər dövrün və zamanın, o cümlədən əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlaya bilməyəcək.

Problemin kökündən və sistemli şəkildə həlli üçün, ilk növbədə, psixologiya ixtisası mövcud olan ali təhsil müəssisələrində çalışan müəllim heyətinə psixologiya elminin müasir dövrdə tələbləri və yeniliklər barədə məlumatlı olmaları üçün mütəmadi olaraq təlim kursları, treninq və seminarlar təşkil edilməlidir. Ali məktəblərdə psixologiya elminin qanunauyğunluqları və günümüzün tələblərinə cavab verə biləcək tədrisin təşkili üçün ciddi addımlar atılmalıdır. Bu işin təşkili məktəb psixoloqlarının və sosial işçilərin yetişməsində çox böyük təsir gücünə malikdir. Belə olan halda, məktəbə gələn psixoloq peşəkar kompetensiyaya malik olacaq və işini dövrün tələblərinə uyğun şəkildə qura biləcək.

Onu da əlavə edək ki, Nazirlər Kabineti 2020-ci il aprelin 30-da 157 saylı qərarı ilə "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili qaydaları”nı təsdiqləyib. Qərarda təhsil psixoloqlarının ilkin professional fəaliyyəti üçün lazım olan əsas istiqamətləndirici qaydalar əksini tapıb.

Qaydalarla tanışlıq psixoloji xidmətin və psixoloqun təhsil müəssisələrindəki əhəmiyyətli, müasir və universal fəaliyyətini bir daha təsdiqləyir. Bu baxımdan qərarda psixoloqun geniş fəaliyyət xüsusiyyətləri, hüquq və vəzifələri əksini tapıb. Bu vəzifə xüsusiyyətləri şagirdləri, pedaqoji heyəti,

valideynləri, birgə komissiyaları (xüsusilə də psixoloji-tibbi-pedaqoji komissiyanı) və ictimai təşkilatları özündə birləşdirən geniş məktəbdaxili və məktəbxarici fəaliyyəti əhatə edir.

Bu da təbiidir, dünyanın inkişaf etmiş bütün təhsil sistemləri işlək halda olan perspektivli psixoloji xidmətə malikdir. Yəni inkişaf etmiş hər hansı bir təhsil sistemi inkişaf etmiş psixoloji xidmət dövrünü də keçib. Qərarda diqqəti cəlb edən ilk müsbət amil psixoloqların professional və əlverişli fəaliyyəti üçün lazım olan psixoloji xidmət kabinetinin yaradılması qaydasıdır.

Qərarda açıq şəkildə yazılıb: "5.2. Psixoloqun işinin təşkili məqsədilə təhsil müəssisəsində təhsilalanlarla, təhsilverənlərlə, valideynlərlə və ya digər qanuni nümayəndələrlə görüşlər keçirmək, konsultasiya və korreksiyaedici tədbirlər aparmaq üçün avadanlıq və didaktik materiallarla təchiz edilmiş psixoloji xidmət kabineti yaradılır".[20]

Sonrakı bənddə (5.3.) isə təhsil müəssisəsinin rəhbərinə tapşırılır ki, psixoloq fəaliyyətinin və psixoloji xidmət kabinetinin maddi-texniki təchizatını təmin etsin.[21] Maddi-texniki təchizat ilk növbədə kargüzarlıq materiallarını, kompüter, audio və video sistemlərini əhatə edir. Qeyd edildiyi kimi, əsasən Bakı şəhərində yerləşən təhsil müəssisələrində bəzi psixoloqların psixologiya kabinetləri var. Amma əksər məktəblərdə, xüsusilə də rayon və kənd məktəblərində işləyən psixoloqların bu cür şəraiti yoxdur. Psixoloji xidmət kabineti psixoloq fəaliyyətinin əsasını təşkil edir, kabinetsiz professional fəaliyyət göstərmək çox çətindir.

Qərarda diqqəti cəlb edən növbəti müsbət amil təhsil müəssisəsində psixoloqun fəaliyyətinin rəsmi sistem çərçivəsinə salınmasıdır. İndiyə qədər psixoloqlar pərakəndə və xüsusi hesabat dövrləri olmadan işləyirdilər. Artıq qərarın 5-ci (Təhsil müəssisələrində psixoloji xidmətin təşkili) və 6-cı (Psixoloqun hüquq və vəzifələri) bənlərində psixoloqun təhsil müəssisəsi daxilindəki planlı işinə və vəzifə xüsusiyyətlərinə aydınlıq gətirilib, hətta onların iş hesabatı verməli olduqları tarix də göstərilib.

Ümumilikdə qərar təhsil müəssisələrində psixoloji xidmətin təşkili qaydalarını tam əhatə edib. İndiki halda bu qərarda irəli sürülənləri həyata keçirməklə təhsildə psixoloji xidmətin ilkin inkişafına nail olmaq mümkündür.

Lakin məktəb psixoloqlarının fəaliyyətini və psixoloji xidmətin inkişafını əsaslandıran əməkhaqqı problemi həll olunmamış qalır: diaqnostik qiymətləndirmədən keçmiş bütün təhsil işçilərinin əmək haqları artırılsa da, diaqnostik qiymətləndirmədən keçmiş məktəb psixoloqlarının maaşı artırılmayıb. Geniş fəaliyyət xüsusiyyətlərinə malik olan psixoloqun peşəkarlığına və iş qabiliyyətinə adekvat maddi təminatı vacibdir. Digər tərəfdən bu, bir təhsil işçisi kimi diaqnostik qiymətləndirmədən keçmiş məktəb psixoloqunun professional və maddi hüquqlarının kobud şəkildə pozulması deməkdir. Artıq diaqnostik qiymətləndirmədən keçmiş psixoloqlar üçün əməkhaqqının artmaması təkcə maddi problem deyil, bu həm də onların professional fəaliyyət statusuna zərbə vuran, onların perspektivli fəaliyyətinin, mənəvi stimulunun qarşısını alan bir problemdir. Bu amil mütləq nəzərə alınmalıdır.

Xatırladaq ki, təhsildə psixoloji xidməti və psixoloqun professional fəaliyyətini əsaslandıran böyük qanunverici baza var. Təhsil qanununa psixoloji xidmətlə bağlı edilmiş dəyişiklikdən əlavə psixoloq fəaliyyətinin arxasında "Psixoloji yardım haqqında" qanun durur. Bu qanuna görə, təhsilin bütün səviyyələrində təhsilalanlar (şagirdlər və tələbələr) ödənişsiz psixoloji yardım almaq hüququna malikdirlər. Bu psixoloji yardım isə təhsil müəssisələrinin psixoloqları tərəfindən həyata keçirilir.

[20] Təhsil müəssisələrində psixoloji xidmətin təşkili QAYDALARI. /Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 157 nömrəli Qərarı ilə təsdiq edilmişdir/ - https://nk.gov.az/az/document/4396/

[21] Yenə orada

Deməli, təhsil (məktəb) psixoloqu ciddi dövlət qanunları ilə – "Təhsil haqqında" və "Psixoloji yardım haqqında" qanunlarla dəstəklənən iki əsas vəzifəni həyata keçirir: təhsilalanların təhsilə əlçatanlığında, təhsilin səmərəliliyində olan problemləri həll edərək onların akademik nailiyyətlərinin artırılmasına kömək edir, digər tərəfdən də psixoloji yardım göstərərək onların psixoloji və əqli sağlamlığını təmin edir [22].

### IV.2. Ailə və məktəb arasında qarşılıqlı münasibətlər: ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemi, səriştəli valideyn paradiqmasının yaradılması

Məlumdur ki, ailə fərdin həm fiziki, həm də mənəvi cəhətdən formalaşması üçün vacib institutdur. Uşaqların dəyərlər sisteminin yaranmasında, ehtiyac və motivlərinin istiqamətlənməsində, dünyagörüşünün təməlinin qoyulmasında, sosiallaşmasında, insana, vətənə, tarixə və mədəni irslərə münasibətinin formalaşmasında ailə mühitinin ciddi rolu var.[23]

Ailə və məktəb arasında qarşılıqlı münasibətlərin artıq kifayət qədər böyük təcrübəsi mövcuddur. Buna qədər təhsillə bağlı istənilən məsələdə məktəb diktə edə biləcək rola sahib idi. Söhbət yalnız sovet dönəmində olduğu kimi, dövlətin təmsilçisi kimi çıxış edən məktəbin üstün mövqeyindən getmir. Məktəb daha hazırlıqlı tərəf idi, müəllimlər təkcə tədris bilikləri ilə deyil, daha geniş dünyagörüşü ilə seçilirdi. Ona görə də məktəb təhsilə aid bütün parametrləri müəyyən edir, çox vaxt bunun üçün valideyn və şagirdlərin rəyinə önəm verilmirdi.

“Zaman dəyişmişdir, yeni təcrübələr, yeni paradiqmalar, o cümlədən valideynlərin dəyişməsi onların rolunun artmasına səbəb olmuşdur. Valideynlər indi daha çox uşaqların təhsilinə təsir göstərir, bununla daha çox maraqlanır, uşaqları yönəltməyə çalışırlar. Ona görə də valideyn-məktəb münasibətlərinin əhəmiyyəti artmışdır. Bu, bir sosial sifarişdir”.[24]

Xüsusilə koronavirus (COVID-19) pandemiyasının zərurətə çevirdiyi distant/məsafədən tədris prosesində valideynlərin təhsil üçbucağındakı yeri aydın şəkildə bəlli oldu. Onlayn təhsil tədris prosesində valideynin vəzifə və məsuliyyət yükünü, ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemini, səriştəli valideyn paradiqmasının yaradılmasını bir daha ortaya qoydu. Evdə valideyn həm birbaşa övladının dərs prosesini canlı izləmək və nəzarət etmək imkanı əldə etdi, həm də valideyn məsuliyəti ilə də qarşı-qarşıya qaldı. Övladının qiymətlərinin aşağı düşməsinə səbəb nədir? Ona məktəbdə münasibət necədir? Hansı fəndən geri qalır və bunun gerçək səbəbi nə ola bilər? Valideynlər bütün bunların əsasında təhsil prosesinin gedişi və keyfiyyəti barədə bəlli qənaətlərə sahib oldular.

Belə bir dövrdə valideyn-məktəb münasibətlərinə yenidən baxmaq obyektiv zərurətdir. Ən müxtəlif ölkələrin təcrübəsi göstərir ki, uşaqların tərbiyəsində və dərslərinə hazırlığında problemləri həll etmək ailənin iştirakı ilə daha asan başa gəlir, eyni zamanda, ailələrlə birlikdə daha ciddi uğurlara imza atmaq mümkündür.

Mütəxəssislər hesab edir ki, məktəb müəllimin avtoriteti üzərində qurulduqda uşaqlar “məktəbli-məktəbli”, “məktəbli-müəllim” münasibətləri çərçivəsində qalır ki, bu da heç vaxt daha emosional və heç bir marağa söykənməyən doğma valideyn-övlad münasibətləri qədər təsirli deyil. Valideynlərin təhsilə cəlb edilməsi bu qədər incə əhəmiyyətə söykənir. Ailə uşaqlara dünyaya göz açdığı andan bağlı olduğuna görə onun təsiri daha sonrakı yaşlarda da güclü olmaqda davam edir. Ailə uşaqların intellektual inkişafında da təsirli rola sahibdir.[25]

---

[22] https://novator.az/2020/05/07/psixoloji-xidm-t-qayda-var-qanun-var-maas-olsun-is-olsun/
[23] Əliyev E. Valideyn səriştəsinin artırılması. /19 aprel 2019/ - https://www.muallim.edu.az/news.php?id=5253
[24] *Yenə orada*
[25] *Yenə orada*

Uşaqların mədəni səviyyəsi, ictimai dəyərlərə sayğısı, şəxsi motivasiya və əzmi də ailədən birbaşa asılıdır. Valideynlər təhsil sisteminin vacib halqasına daxildir. Məhz onların köməyi və iştirakı ilə ailənin təsirini müsbətə doğru və daha yüksəyə çatdırmaq olar. Ona görə də məktəb və müəllim üçün valideynin etimadını qazanmaq və onu müttəfiqə çevirmək çox vacibdir.

İndi bütün dünyada valideynlərlə məktəb arasında münasibətlərin yenidən qurulması ilə bağlı axtarışlar gedir. Ölkəmiz də bu istiqamətdə axtarışlara qədəm qoyub. Məsələn, "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nda məktəb-valideyn əlaqələrinin tənzimlənməsində təhsil müəssisəsinin idarə edilməsində, təlim-tərbiyə prosesinin təşkili ilə bağlı problemlərin aradan qaldırılmasında, müəssisənin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində valideynlərin rolunun təmin edilməsi xüsusi vurğulanır.[26] "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda isə uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədilə valideynlərin sistemli şəkildə pedaqoji-psixoloji maarifləndirilməsi üçün "Səriştəli valideynlər" proqramının hazırlanması, maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin edilməklə təhsil müəssisələrinin dövlət-ictimai xarakterdə (Valideyn–Müəllim Assosiasiyası, İdarəedici Şura, Qəyyumlar Şurası və s.) idarə olunmasının təmin edilməsi strateji hədəflər və tədbirlər sırasında qeyd olunur.[27] Bu sənəddə nəzərdə tutulan "Səriştəli valideyn" Proqramı həmin istiqamətdə fəaliyyətin bazasına çevrilməlidir.

Ailənin-valideynin övladının tədris prosesində rolunu dəyərləndirmək üçün şagird respondentlərdən bir neçə məsələ ilə bağlı fikirləri öyrənilib. Belə ki, rəyi soruşulan respondentlərin 33.1%-i bu fikirdədir ki, valideynləri bəzən ev tapşırıqlarını yerinə yetirməkdə ona kömək edir. 10.4% respondent valideynləri tərəfindən hər zaman, 6.7%-i tez-tez, 17.6%-i nadir hallarda dəstək gördüyünü bildirib. Bu fikirlərin əksinə olaraq 32.2% respondent ev tapşırıqlarının yerinə yetirilməsində valideynləri tərəfindən heç bir dəstək almadığını bildirib.

Şəhərdə yaşayan şagird respondentlərin 38.9%-nin fikrincə, valideynləri ev tapşırıqlarını yerinə yetirməkdə ona heç vaxt kömək etmir. Bu göstərici qəsəbə və kənd respondentləri arasında müvafiq olaraq belə dəyişir: 30.9% və 27.3%.

Respondentlərin 37.8%-i bu fikirdədir ki, valideynləri onu dərslərini yaxşı oxumağa həmişə məcbur edir. 14.3% respondent dərs oxumağa tez-tez, 15.4% respondent bəzən, 7.9% respondent nadir hallarda məcbur edildiyini qeyd edib. Cəmi 24.6 % respondent bu məsələdə heç vaxt məcburiyyətlə üzləşmədiyini vurğulayıb.

Şagirdlərin dərsləri yaxşı oxumağa məcbur edilməsi hallarının şəhər, qəsəbə və kənd üzrə bölgüsü müvafiq olaraq aşağıdakı kimidir: həmişə 38.4% (şəhər), 40.4% (qəsəbə), 36% (kənd); tez-tez 13.3% (şəhər), 15.7% (qəsəbə), 14% (kənd), bəzən 12.9% (şəhər), 17.9% (qəsəbə), 16.3% (kənd); nadir hallarda 9% (şəhər), 6.7% (qəsəbə), 7.8% (kənd); heç vaxt 26.4% (şəhər), 19.3 % (qəsəbə), 25.9% (kənd).

Rəyi soruşulanların 57.2%-i dərslərini etmədikdə valideynləri tərəfindən heç bir cəza almadığını bildirib. 19% respondent dərsini öyrənmədiyinə görə bəzən, 5.5%-i hər zaman, 3.8%-i tez-tez, 14.5%-i nadir hallarda cəza aldığını bildirib.

---

*[26] Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. / Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmişdir/ - http://e-qanun.az/framework/46052*

*[27] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. / Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://president.az/articles/9779*

**Diaqram 40.**




Şəhərdə yaşayan valideynlərin 57.4%-i, qəsəbədə yaşayan valideynlərin 59.6%-i, kənddə yaşayan valideynlərin isə 56.3%-i dərsini öyrənmədiyinə görə övladını heç vaxt cəzalandırmır.

Ekspertlərlə aparılmış dərinləşdirilmiş müsahibələrdə valideyn-məktəb-şagird münasibətləri ilə bağlı maraqlı təkliflər səsləndirilib.

Bəzi ekspertlər valideyn-uşaq münasibətlərində əsas yükün birincilərin üzərinə düşdüyünü, bəzi valideynlərin bu məsuliyyəti tam dərk edə bilmədiklərini, uşaqların dərslərini hazırlamasında valideynin yaxından kömək etməli olduğunu bildirirlər:

*"Hesab edirəm ki, əsas məsələ valideyndən aslıdır. Yəni bir çox hallarda müasir dövrün qayğıları valideyni o qədər yükləyir ki, o, uşağına kifayət qədər vaxt ayıra bilmir. Bu da uşaq tərəfindən, belə demək mümkünsə, anlaşılmazlıqla qarşılanır. Lakin bütün problemlərə rəğmən valideyn uşağına vaxt ayırmalıdır. Uşağın buna ehtiyacı var, onun inkişafı üçün ehtiyacı var. Bu həm də valideynlə uşaq arasındakı münasibətlər üçün də çox vacibdir. İkinci məqam ondan ibarətdir ki, bir çox hallarda valideyn uşağının hüquqlarına həssaslıqla yanaşmır. Belə olan halda həm münasibətlərdə soyuqluq yaranır, həm də uşaqlar daha rahat kənar təsirlərə məruz qalır. Diqqət yetirilləsi əsas məsələ də budur. Valideynlə uşaq arasında müasir dövrdə maraq toqquşmaları da cox müşahidə olunur. Bu cür situasiyalarda valideyn öz iradəsini əmr formasında yeritməməli, sadəcə uşağı başa salmalı və onunla səmimi davranmalıdır". /Elşad Mirbəşiroğlu/*

*"Azərbaycanda valideynlər etno-psixoloji amillərin təsiri altında öz övladlarına kiçik yaşlarından etibarən əmək fəaliyyətini icra edənədək (hətta daha sonra da) hansısa formada dəstək nümayiş etdirirlər. Digər ölkələrin nümunəsinə baxsaq, orada valideynlər övladın nisbətən sərbəst yetişməsinə üstünlük verirlər. Bizim cəmiyyətimizdə isə mühafizəkarlıq prinsipləri və digər aspektlərlə bağlı, valideyn-övlad münasibətlərində övladın bütün qayğı və problemlərinin həlli ifrat səviyyədə olmaqla birbaşa valideynlərə həvalə olunur və ya müdaxilə etmək imkanı yalnız valideyndə olur. Bu, onunla bağlıdır ki, kiçik yaşlardan etibarən valideynlər övladlarının müstəqil şəxsiyyət kimi formalaşmasına deyil, öz istədikləri keyfiyyətlərdə böyüməsinə maraqlı olurlar. Lakin bir qisim valideynlər də vardır ki, onlar bu mənada uşaqlara lazımi dəstəyi göstərməklə müəyyən sərbəstlik imkanı verir. Hal-hazırda onlayn həyata kecirilən dərslər zamanı valideynlər bəzən uşaqların dərsdə fəal iştirakına mane olaraq, şagirdin yorulacağını düşünüb müxtəlif imkanlarla onun dərsdə onlayn qaydada iştirak prosesinə əngəl törədirlər. Bu zaman onlar uşağın "əziyyət" cəkdiyini düşünürlər, halbuki məhz zəhmətlə özünün nəyəsə nail ola biləcəyilə bağlı tərbiyə almaqda ona çətinlik yaradırlar. Bu tip valideynlər uşaqları istənilən nailiyyətin rahat əldə olunacağı ilə bağlı yanlış inanca sövq edir ki, belə uşaqlar gələcəkdə bir çox problemlərlə qarşılaşarkən çıxış yolları axtarmaqda ciddi*

*çətinlik çəkir və stress vəziyyətinə məruz qalırlar. Valideynlər uşaqları cəmiyyətin azad bir fərdi olaraq yetişdirməkdə daha təfəkkürlu olmalı və kiçik yaşdan onlara problemlərin həllində öz səylərini inkişaf etdirməyi öyrətməkdə dəstək olmalıdırlar. Azyaşlı dövrdən etibarən problemlərini (lazımi sağlam dəstək nəzarəti altında) özu həll etməyi öyrənən uşaq həyatının digər mərhələlərində də istənilən stress faktoru ilə müstəqil mübarizə aparmaq qabiliyyətinə malik olur. Bu məsələdə ənənəvi yanaşmaya meyilli olan valideynlər isə kiçik yaşlardan etibarən övladın istənilən davranışlarını onun yerinə idarə etməyə çalışırlar və beləliklə, övladla öz arasında qeyri-sağlam asılı bağlılıq vəziyyəti meydana gətirirlər. Belə uşaqlar gələcəkdə öz həyatlarının bir çox qərarlarına, hətta təhsillə bağlı məqsədlərə nail olunmasında da müstəqil cıxış etmək imkanına malik olmurlar və ya bu halda da valideyn müdaxiləsi ilə üzləşirlər. /Gülər Məmmədova/*

*“Hesab edirəm ki, uşağın gələcəyi üçün valideynlərin uşaqlarının dərslərinə dəstəyi çox vacibdir. Düzdür, əksər hallarda valideynlər uşaqlarını əlavə repetitor yanına hazırlığa göndərirlər. Lakin bu işdə valideynin özü də məsuliyyəti bölüşməlidir. Təbii ki, valideynin uşağına dərslərində kömək edə bilməsi üçün kifayət qədər biliyi, savadı olmalıdır. Əgər bu yoxdusa, onda, təbii ki, kənardan dəstək almaq olar. Valideynin buna imkanı çatırsa, o mütləq şəkildə uşağı ilə özu məşğul olmalıdır. Bu, bir neçə baxımdan vacibdir. Birincisi, valideyn uşağına əlavə vaxt ayırmış olur. İkincisi, uşağı valideynin nüfuzunu qəbul etmiş olur. Adətən, uşaq muəlliminin nüfuzunu qəbul edir. Belə olan halda uşaq görür ki, valideyni ona bilik verə bilir, vərdiş, bacarıqlar aşılıya bilir. Onda onun valideyni haqqında təsəvvürləri də dəyişir. Təbii ki, uşaq valideynin nüfuzunu qəbul edirsə, o zaman valideynin ona verdiyi öyüd və məsləhətləri də qəbul edir. Valideynlər həmişə uşağını düzgün istiqamətləndirməlidirlər” /Elşad Mirbəşiroğlu/*

Ekspertlər Azərbaycandakı bir çox ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemini uşaqlar üçün başlıca ciddi problem olaraq qəbul edir. Onların qənaətinə görə, internetdən həddən artıq çox istifadə edilən ailələrdə ilk növbədə kommunikasiya problemi yaranır:

*“Ailədə hamı öz telefonunda, öz tək həyatını yaşayır. Başa düşürsünüz... mobil telefonlarda, planşetlərdə, notbuklarda, yəni belə deyək, hər kəs öz həyatını, öz dünyasını internet ailəmində yaşayır və bir də ayılırlar ki, bir evin içindədirlər, bir ailənin üzlərinin bir-birinin problemlərindən xəbəri yoxdur. /Jalə Əhmədova/*

İnternetdən həddən artıq çox istifadənin valideynlərdə əvvəlki dövrlərə nisbətən övladlarına qarşı laqeydlik yaratdığını qeyd edən ekspert valideyn və övladların bir-biri ilə açıq və səmimi söhbətlərinin müntəzəm qaydada aparılmasını problemlərdən çıxış yolu kimi görür.

Digər ekspert də internetin ailələrə mənfi təsirini dilə gətirərək, ailədaxili problemlərin tez-tez sosial şəbəkələrə çıxarıldığını ciddi problem kimi görür, bunu ailə daxilindəki kommunikasiya nöqsanları ilə əlaqələndirir. O əlavə edir ki, müasir Azərbaycan ailə institutu keçid dövründə olduğundan onu nə Şərq, nə də Qərb dünyasındakı ailə tiplərinə rahatlıqla aid etmək olur:

*“Son on ildə qadınlar daha mücadiləçi haqqları uğrunda mübarizə aparmaqda aktiv fazaya keçiblər. Düzdür, bəzi istisnalar var. İstisnalar həmişə olur. Cəmiyyətdə düzgün anlaşılmır. Qadını əzməyə çalışan bir mühit bunu həzm edə bilmir. Nəticədə boşanmaların sayı artır. Yəni bir qadın artıq haqqı uğrunda mübarizə aparmağa başlayır. Bu da, təbii ki, daim qadını əzməyə çalışan bir*

*cəmiyyət üçün heç də xoş qarşılanmır. Qadın öz sözünü deməyə başlayır. Bu da ciddi şəkildə fikir ayrılıqlarına gətirib çıxarır. Ailə dəyərləri ifadəsini hər kəs fərqli tərzdə başa düşür. Adicə görürük ki, 7 yaşlı bir uşaq böyüklərə meydan oxuyacaq dərəcədə məsləhətlər verir. Onlar daha demokratik ruhda böyüyürlər. Buna internet, televiziya verlişləri təsir edir. Əsas rolu, təbii ki, qadının dünyagörüşü oynayır. Şərq ailə dəyərlərinin qorunub-saxlanılmasının tərəfdarıyam. Tarixi ailə dəyərlərimizi unutmamalıyıq. Cəmiyyət o zaman irəli gedər ki, öz adət-ənənələrini qorumaqla müasir dövrlə uyğunlaşsın. Yaşlı nəslimizin ətrafında böyüyən yeni nəsil onların sözünü dinləyib qərar versə yaxşıdır. Bu, hər dəfə keçərli olmur, böyük-kiçik yeri bilməyən insanın başı həmişə cəncəldə olar. İndiki ailələr ortaq məxrəci saxlamaqda çətinlik çəkirlər. Ya ümumiyyətlə dəyərlər unudulur, ya da qatı mühafizəkar mövqe tuturlar. Bu qızıl ortanı biz hələ tuta bilməmişik. Ailələrimizdə Qərb dəyərləri dedikdə mən hər birimizin fikrinə önəm verilməli olduğunu düşünürəm. Lakin bəzi şeylərdə dəyişiklik etməyin artıq vaxtı çatıb. Qərb ailə dəyərlərində uşağın da fikrinə önəm verilməsi daim ön plandadır, Şərqdə isə əksinə. Şərqdə daha çox bir şəxs tərəfindən mühafizəkar şəkildə yönləndirmə olur. Vahid hakimiyyət var və hamı bu qaydaya əməl etməlidir. Son dövrlərdə Qərb dəyərləri Qərbin özündən çox bizdə qabardılır. Qərbin uşağı tərbiyə etməsi, sərbəst düşüncəli uşaq yetişdirməsini götürək və tətbiq edək. Qadın və kişi arasında məişətdə hüquq bərabərliyini təyin edək". /Vüsalə Ağayeva/*

Psixoloq və sosial işçilərin (3 respondent) bu yöndə səsləndirdikləri təkliflər arasında ən geniş yayılanı valideynlərə psixoloji xidmətin göstərilməsi ilə bağlıdır. Ailə psixoloqları ilə bağlı layihənin hazırlanmasını ekspertlər təklif edir.

*"Ailə psixoloqu mərkəzləri yaradılmalıdır. Bu mərkəzlər valideynlərə doğru yolu tapmaqda yardımçı olmalıdırlar. Ailə psixoloqlarının sayı artırılmalıdır. Yəni maddi vəziyyətindən asılı olmayaraq hamı üçün əlçatan olmalıdır. Elə ailələr var ki, dağılmağa doğru gedir. Hətta ailə qurmamışdan öncə iki insanın xasiyyətinin bir-birilə uyuşmayacağını biləndə yaxşı mənada müsbət təsir edir". /Vüsalə Ağayeva/*

*Uşaqların yaş xüsusiyyətlərinə uyğun psixoloji konsultasiyasiyalar aparılmır. Biz valideynlərdən bunu gözləməməliyik. Yəni valideynlər uşaqları ilə müasir dövrün tələblərinə uyğun söhbət etməlidirlər. Valideynlər daha çox sərt münasibət quraraq övladlarını tərbiyə etməyə calışırlar. Bunun nəticəsində uşaqlar internetdən aldıqların informasiya ilə "boğulurlar". Ailə Psixoloqu İnstitutu layihəsi həyata keçirilməlidir. Bu isə yoxdur. Uğurları bölüşməli və böhran məsələləri ilə bağlı xususiyyətləri danışmalıdırlar. Bu gün bizim uşaqlar dərsə gedir, hazırlığa gedir, evə gəlir. Bu gün Azərbaycanda kitab oxuyan valideynlərin sayı dəfələrlə aşağıdır. Azərbaycan kitab oxunaqlığına görə dünyada ən aşağı yerlərdən birini tutur. Hesab edirəm ki, biz kitabla bağlı layihələr keçirməliyik". /Kamran Əsədov/*

Bu kontekstdə bir sıra dünya ölkələri üzrə mövcud valideyn-məktəb münasibətlərinə nəzər salmaq yerinə düşər. Məsələn, Amerika Birləşmiş Ştatlarında məktəb-valideyn və cəmiyyət münasibətləri mühüm amillərdən biri hesab olunur. Bu məqsədlə ölkədə valideyn-məktəb dərnəkləri yaradılıb. Həmin dərnəklər isə milli valideyn-müəllim dərnəkləri konfederasiyasına tabedir. Dərnəklərin fəaliyyətinin əsas məqsədi təhsilin keyfiyyətini yüksəltməkdir. ABŞ-da şagirdlərə pedaqoji rəhbər təyin edilməsi üçün valideynlərə xüsusi təhsil verilir. Bu isə özlüyündə "yalnız savadlı valideynlər bilikli rəhbəri seçə bilərlər" anlamı daşıyır. Həmçinin şagirdlərin

sağlam yetişdirilməsi üçün ailə dərnəkləri də fəaliyyət göstərir.

Türkiyədə də valideyn-müəllim əlaqələrinə xüsusi əhəmiyyət verilir. Bunun üçün ildə iki dəfə valideyn-müəllim görüşü təşkil edilir, bu görüşlərdə şagirdlər iştirak edə bilməz. Görüş öncədən müəyyənləşən vaxtda və məktəbdəki sinif otaqlarının birində baş tutur. Hər valideyn övladının müəllimləri ilə 2, yaxud 3 dəqiqə müddətində təkbətək söhbət edir. Digər valideynlər də həmin söhbət zamanı sinifdə ola bilərlər. Görüş zamanı şagirdlə bağlı fikir mübadiləsi aparılır. Bununla yanaşı, ayda bir dəfə olmaqla müəllim-şagirdin fərdi, ayda 2 dəfə isə şagird –valideyn-müəllim görüşü təşkil edilir.

Valideyn-məktəb əlaqələrini araşdıran əksər tədqiqatçıların fikrincə, şagirdin təhsilində əldə etdiyi uğur ailənin təhsilə verdiyi önəmlə əlaqəlidir. Ailənin məktəbə və şagirdə göstərdiyi diqqət gələcək uğura zəmin yaradır. Şagirdin ehtiyaclarını müəyyənləşdirmək və buna uyğun düzgün təhsil proqramı və gələcəkdə düzgün ixtisas seçimi etmək üçün ailənin məktəblə sıx əlaqəsi vacibdir.

Aparılan müşahidələrdən belə nəticəyə gəlmək olar ki, bu gün təhsilin məzmununda, onun təşkili məsələlərində və nəhayət, qiymətləndirmə sistemində baş verən dəyişikliklərlə bağlı valideyni maarifləndirməyi, onunla düzgün münasibət qurmağı bacaran müasir müəllim, əslində, öz işinin uğurunu təmin etmiş olur. Bununla o, valideyni məharətlə tənqidçidən müttəfiqə çevirir, onun təcrübəsindən, dünyagörüşündən və bacarığından təlimdə müvəffəqiyyət əldə etmək üçün bəhrələnir.

Etiraf edilməlidir ki, şagirdlərin müasir əmək bazarının tələblərini müəyyənləşdirərək düzgün ixtisas seçimi etməsində məktəb və valideynlərin böyük rolu var. Bəzən düzgün seçim edə bilməyən gənclər həyatda uğur qazana bilmirlər. Bu problemin də yaranma səbəblərindən biri müəllimin, məktəb rəhbərliyinin, məktəb psixoloqunun şagirdləri peşəyə düzgün istiqamətləndirə bilməməsi və eyni zamanda da evdə valideynlərin uşaqlara təzyiqi altında onların sevmədikləri, ancaq bu gün cəmiyyətdə dəbdə olan nüfuzlu peşələri seçməyə vadar edilmələridir.

Aparılan araşdırmalardan bəlli olur ki, bütün bu yanlış təsirlərin nəticəsində ali təhsil ocağını bitirənlərin yalnız 10%-i gələcəkdə öz ixtisası üzrə işləyir. Bu 10% məzundan yalnız öz gələcək kariyerasında uğur əldə edən gənclər isə 6,7% təşkil edir. Bəs yerdə qalan 90% necə olsun? Bu qalan hissə isə ayrı-ayrı sahələrdə özlərinə iş tapır və yenidən sənət öyrənir.

Bu vacib məqamları nəzərə alıb 8-ci və daha yuxarı sinif şagirdlərindən ilk növbədə təhsilini neçənci sinfə qədər davam etdirəcəkləri soruşulub. 88.6% respondent məktəbi tam bitirməyi, 9.1% respondent isə 9-cu sinfə qədər təsil almağı düşünür. 2.3% respondent bununla bağlı konkret bir cavab verə bilməyəcəyini bildirib.

**Diaqram 41.**




Təhsilini 11-ci sinfə qədər davam etdirmək istəyi həm şəhər (88.9%), həm qəsəbə (89.2%), həm də kənd (88.3%) respondentləri arasında, demək olar ki, eynidir.

91.9% respondent həm özü, həm də valideynlərinin istəyi olduğu üçün məktəbi bitirdikdən sonra təhsilini davam etdirəcəyini bildirib. Maraqlıdır ki, 0.9% respondent təhsilini davam etdirmək istəsə də, bunu valideynləri istəmədiyini qeyd edib. 4.7% respondent valideynləri istəsə də, özü təhsilini davam etdirmək istəmir. 2.5% respondentin həm özü, həm də valideynləri təhsilini davam etdirməkdə maraqlı deyillər.

**Diaqram 42.**




Cins bölgüsü üzrə yanaşdıqda məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəyi oğlan respondentlər tərəfindən "9-cu sinfə qədər" cavabı 9.1%, "11-ci sinfə qədər" cavabı 88.6% olub. Maraqlıdır ki, qız respondentlər arasında da təhsilini davam etdirmək istəyi yüksəkdir: müvafiq olaraq 9-cu sinfə qədər 11%, 11-ci sinfə qədər – 86.5%. "Bilmirəm" cavabını isə oğlan respondentlərin 2.3%-i, qız respondentlərin 2.4%-i seçib.

Məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəyi kənd respondentlərinə (90.5%) nisbətən şəhər respondentləri (94.8%) arasında daha geniş yayılıb.

Digər bir düşündürücü məqam özünü aşağı gəlirli ailəyə aid edənlərin təhsilini davam etdirmək niyyətinin yuxarı gəlirli ailəyə aid edənlərə nisbətən aşağı olmasıdır: 19% - 9-cu sinfə qədər, 78.6%-i isə 11-ci sinfə qədər təhsilini davam etdirəcəyini bildirib. Yuxarı gəlirli ailənin təmsilçilərində faiz göstəricisi belədir: 7.5% - 9-cu sinfə qədər, 91.5%-i 11-ci sinfə qədər.

Yuxarı və aşağıgəlirli ailə nümayəndələri arasında məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək istəkləri arasında da fərq müşahidə edilir. Belə ki, "Bəli, həm özüm, həm də valideynlərim istəyir" cavabını seçənlər aşağı gəlirli ailəni təmsil edənlər arasında 86.9% olubsa, yuxarı gəlirli ailənin təmsilçiləri arasında bu cavabı seçənlərin faiz göstəricisi 93.9% olub.

"Nə özüm, nə də valideynlərim istəyir" cavabını seçənlərin faiz göstəriciləri müvafiq olaraq belə olub: 4.8% və 1.4%.

Maraqlıdır ki, qız respondentlərin 94.9%-i bu fikri bölüşür ki, məktəbi bitirdikdən sonra təhsilini davam etdirməyi həm özü, həm də valideynləri istəyir. Oğlan respondentlər arasında bu istiqamət üzrə faiz göstəricisi 89%-dir. "Özüm istəyirəm, amma valideynlərim istəmir" cavabını isə qız respondentlərin 1.2%-i, oğlan respondentlərin 0.6%-i seçib. 7.3% oğlan respondent belə düşünür ki, özü istəməsə də, valideynləri təhsilini davam etdirməkdə qərarlıdır. Qız respondentləri üçün bu göstərici 2.1%-dir. Cins bölgüsü üzrə təhsilini davam etdirməyi "həm özü, həm də valideynləri istəmir" cavabını müvafiq olaraq oğlan respondentlərin 3.1%-i, qız respondentlərin 1.8%-i seçib.

Foks qrup müsahibələrində ekspertlər bəzi valideynlərin xüsusilə qız övladlarının təhsilini davam etdirməkdə maraqlı olmadıqlarını qeyd ediblər:

> *"Adətən, kənd yerlərində valideynlər hesab edir ki, kənddə iş imkanları yoxdur. Ailənin ümumiyyətlə orta təhsili bitirdikdən sonra qız övladının ali təhsil alması üçün maddi dəstək təmin edəcək vəziyyəti olmadığına görə həmin övladın təhsilinin doqquzuncu sinifdən sonrakı dövrünün tamamlanmasında valideynlər maraqlı olmurlar. Qeyd edilən səbəblərdən fikirləşirlər ki, qız övladının təhsilinin doqquzuncu sinfə qədər müəyyən formada tamamlanması kifayətdir. Xüsusən, dağ yerlərində təsərrüfat imkanları da zəif olduğu üçün qızların təhsilin müəyyən pilləsini tamamladıqdan sonra evləndirilməsi məqsədəuyğun hesab edilir. Sovet dövründə kolxozlar fəaliyyət göstərirdi və, insanlar burada işləyə bilirdilər. Həmçinin, həmin dövrdə kənddə gənclərin öz vaxtlarını səmərəli*

*keçirmələri və inkişafı üçün klublar, mədəniyyət evləri, kitabxanalar da mövcud idi. Yaxud kənddə yaşayan gənclər rayon və şəhərlərə gələrək oradakı zavod və fabriklərdə çalışmaq imkanına malik idilər. Bu zaman onlar həmin zavod və fabriklərin yataqxanalarında qalır və paralel olaraq təhsil ala bilirdilər. Beləliklə, hal-hazırda rayon və kənd yerlərində insanlar əsasən işsizlik və digər sosial problemlər əsas gətirilməklə qız övladlarının məsuliyyətindən bir növ erkən zamanda "qurtulmaq" psixologiyasına sahibdirlər". /Sahib Məmmədov/*

*"Mühitdən, coğrafiyadan çox şey asılıdır. Qızların təhsilini davam etdirməməsi hallarına Bakı kəndlərində, eləcə də bəzi regionlarda, kənd yerlərində rast gəlinir. Səbəblərdən biri budur ki, onların özlərinin bir mentaliteti olur. Məsələn, qız filan yaşda ərə getməlidir, bu hal bir etalona çevrilib. İkinci bir səbəb valideynlərin özünün psixologiyasının yerində olmamasıdır. Mənfi valideynlik ənənəsi olur ki, bunu da ötürürlər. Bu fakt uşağın müqəddəratının təyin olunmasına birbaşa təsir göstərir. Belə halların qarşısının alınması üçün bütün qurumların qarşılıqlı əməkdaşlığı, mütəxəssislərin bu prosesə cəlb olunması, qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların yerli nümayəndəliklərinin cəlb olunması vacibdir ki, maarifləndirmə işləri aparılsın. Broşürlər paylanmalıdır, məlumatlar verilməlidir. Belə halların qarşısını yalnız aidiyyəti qurumların əməkdaşlığı, birgə məsuliyyəti və maarifləndirmə ilə ala bilərik". /Aydın Murad/.*

*"Azərbaycanda təhsil icbaridir. Məsələ 9-cu sinifdən sonra təhsilini davam etdirmə ilə bağlıdır. Qızların təhsilini davam etdirə bilməməsi hallarına xüsusən bölgələrimizdə, hətta paytaxtda da rast gəlinir. Ona görə də məsələ problem olaraq qalıb. Əgər biz bölgələrdə, rayonlarda kolleclər açsaq, insanlar məsafənin yaxın olduğunu görüb qız övladlarını ora təhsil almağa göndərərlər. Düşünürəm ki, qızların təhsilə cəlb olunması üçün biz mütləq şəkildə bölgələrdəki təhsil müəssisələrinin sayını artırmalıyıq. İnsanlar uzaq məsafə qət etməsinlər. Çünki onlar bəzən uşaqlarını ona görə təhsilə göndərmirlər ki, maddi cəhətdən yolpulunu, kirayə haqqını ödəyə bilmirlər". /Kamran Əsədov/*

Hazırda elə bir vəziyyət yaranıb ki, ölkəmizdə yüksək səviyyəli və keyfiyyətli ali və orta ixtisas təhsili müəssisələrinin çox olmasına baxmayaraq, onların hazırladığı mütəxəssislər arasında səriştəli və peşəkarığı ilə seçilənlərin sayı o qədər də çox olmur. Faktları təhlil edərkən, istər-istəməz düşünürük ki, ola bilsin, bunun səbəblərindən biri peşə seçiminin düzgün olmamasıdır. Bu gün bununla bağlı dünyada maraqlı təcrübələr mövcuddur. Bu təcrübələri təhsil müəssisəsində həyata keçirərək olduqca uğurlu nəticələr əldə etmək mümkündür. Norveç, Finlandiya, İsveç dövlətlərində uşaqların peşə seçiminə hələ məktəbəqədər dövrdən başlanılır. Burada uşaqlar üçün xüsusi hazırlanmış psixoloji testlər mövcuddur. Onlara vətəndaşlıq borcu, sabah cəmiyyətə faydalı olması üçün düzgün peşə seçməsi öyrədilir.

Digər nəzərə alınmalı məqam odur ki, şagirdin uğurlarında valideynin məktəblə nə qədər sıx əlaqəsinin olması çox böyük rol oynayır. Şagirdin məktəbə bağlanması da valideynlə məktəbin münasibətlərindən birbaşa asılıdır. Valideyn məktəbin tərəfini tutmalıdır. Hətta hər hansı mübahisəli məsələdə müəllim və ya məktəbi haqsız hesab etsə belə, uşaq valideyninin məktəbin yanında durduğunu görməlidir.

## IV.3. Pandemiya dövründə təhsil

Koronavirus (COVID-19) pandemiyası dövründə bütün dünyada təhsil sistemində daha çevik və optimal məzmun və tədris strategiyalarının tətbiqi, innovasiyaların təşviq edilməsi ilə bağlı təşəbbüslərin genişləndirilməsi ön plana çıxdı. Əslində, koronavirus pandemiyasının bütün sahələrə, o cümlədə təhsilə mənfi təsirləri olsa da, o, bu sahədə onlayn/distant təhsilin tətbiqi imkanlarını üzə çıxardı və hətta bu imkanların tətbiqini tezləşdirdi.

Koronavirus pandemiyası səbəbindən təhsil müəssisələrində əyani formada tədris və təlim-tərbiyə prosesinin distant təhsillə əvəz olunması həm müəllimlər, həm də şagirdlər və valideynlər üçün yeni bir şərait yaratdı. Müəllimlər ən müasir elektron sistemlərdən, platformalardan istifadə edərək onlayn dərslər təşkil etmək məcburiyyətində qaldılar. Pandemiya təhsil sistemini nəzərə alınması vacib olan bir sıra çağırışlarla üz-üzə qoydu. Təhsil sistemində daha çevik və optimal məzmun və tədris strategiyalarının tətbiqi, innovasiyaların təşviq edilməsi ilə bağlı təşəbbüslərin genişləndirilməsi bütün təhsil pillələrində distant təhsil təcrübəsinin daha geniş tətbiq edilməsi, texnoloji təchizat və keyfiyyətli internet bağlantısının təmin olunması kimi həlli vacib olan məsələlər meydana çıxdı. Belə bir şəraitdə təhsil müəssisələrinin fəaliyyətində fasilə yaransa da, təhsilin fasiləsizliyini və davamlılığını təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən təxirə salınmadan yeni təşəbbüslərin reallaşdırılmasına başlanıldı. Belə ki, ölkədə COVID-19-a ilk yoluxma faktı qeydə alındıqdan sonra – 2020-ci il martın 3-dən bütün təhsil müəssisələrində təlim-tədris dayandırıldı. Azərbaycanın bütün ərazisində təlim-tədris prosesinin dayandırılması pandemiyaya qarşı mübarizədə ən birinci qəbul edilən qərarlardan idi. Bundan 7 gün sonra - martın 11-dən isə Təhsil Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə yüksək peşəkarlığa malik müəllimlərin iştirakı ilə “Teledərslər” layihəsinə start verildi. Dövlət televiziyası ilə yayımlanan bütün teledərslər sonradan sərbəst istifadə üçün Təhsil Nazirliyinin elektron portalında yerləşdirildi ki, bu da şagirdlər üçün əlavə imkanlar yaradır. Ölkədə 1 milyon 600 min şagird teledərslərdən yararlana bildi. Teledərslərin interaktivliyini təmin etmək və məsafədən tədris imkanlarını genişləndirmək məqsədilə isə Təhsil Nazirliyi aprelin 2-dən "Virtual məktəb" layihəsinə start verdi ki, bu portal vasitəsilə şagirdlər həftəiçi teledərslərdə tədris olunan mövzulara əsasən hazırlanmış ev tapşırıqlarını yerinə yetirə, öz biliklərini yoxlaya və əlavə tədris resurslarından faydalana bildilər. Layihə çərçivəsində hazırda platformada ümumi istifadəçi sayı şagirdlər üzrə 1,4 milyondan çox, müəllimlər üzrə 128 min təşkil edir. Gündəlik aktiv istifadəçilərin sayı isə 1 milyonu ötür. Layihə ölkənin bütün bölgələrini əhatə edir. Ölkə üzrə müəllimlərin 93,11%-i, şagirdlərin isə 85,3%-i platformadan yararlanırlar. Platformada müəllim və şagirdlərə açıq qeydiyyat, video və audiodərslərin təşkili, tədris cədvəllərinin tənzimlənməsi, qrup işlərinin təşkili, ev tapşırıqlarının təyinatı, qiymətləndirmə, interaktiv təlim alətləri, bilik yarışmaları, pedaqoji şuralar, nəzarət mexanizmləri kimi geniş imkanlar təqdim olunur. Onu da qeyd etmək lazımdır ki, platformada pandemiya dövründə təhsilin fasiləsizliyinin təmin edilməsi ilə yanaşı, digər ondan az vacib olmayan istiqamətdə - müəllimlərin peşəkar inkişafı və məktəblilərin ev şəraitində asudə vaxtlarının səmərəli təşkili istiqamətində də geniş imkanlar yaradılır, müxtəlif mövzuları əhatə edən məktəbdənkənar dərnəklər, onlayn tədbirlər və maarifləndirici vebinarlar təşkil olunur.

Ümumi təhsil müəssisələri ilə yanaşı, hazırda peşə, orta ixtisas və ali təhsil müəssisələri də “Virtual məktəb” platforması çərçivəsində distant təhsilə cəlb olunmuşlar. Belə ki, təhsil müəssisələrində “Tims” (“Microsoft Teams”) platformasından ödənişsiz istifadə üçün imkanlar təmin edilib.[28]

*[28] Nazir: “Pandemiya təhsil sistemini bir sıra vacib çağırışlarla üz-üzə qoydu” – MÜSAHİBƏ./19 fevral 2021/ - “Milli Məclis” jurnalı*

Pandemiya ilə əlaqədar həm orta, həm də ali məktəblər tərəfindən onlayn tədrisin təşkili zərurəti ortaya başqa bir reallığı - bütün məktəblərin, həmçinin ailələrin distant/məsafədən təhsilə tam hazır olmadığını üzə çıxardı. Bu həm bütün respublika üzrə lazımi infrastrukturun qurulmaması, internet təchizatında problemlərin olması, həm də aztəminatlı və çoxuşaqlı ailələrdə texniki vasitələr və avadanlıqların olmaması və yaxud çatışmazlığı ilə bağlı oldu. Bu amilləri nəzərə alıb respondentlərə karantin dövründə onlayn dərslərlə bağlı bir neçə sual verilib. Respondentlərdən ilk növbədə karantin dövründə onlayn dərslərə necə və neçə dəfə qoşulduqları soruşulub. Sorğuda iştirak edənlərin 46.9%-i karantin dövründə bütün onlayn dərslərdə iştirak etdiyini, 19.9%-i gündə bir neçə dərsdə iştirak etdiyini, 8.7%-i həftədə bir neçə dəfə iştirak etdiyini, 8.8%-i nadir hallarda iştirak etdiyini bildirib. 15.6% respondent karantin dövründə heç bir onlayn dərsdə iştirak etməyib.

**Diaqram 43.**




Respondent cavablarının şəhər, qəsəbə və kənd üzrə nəticələrinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, kənd məktəblilərinin şəhər və qəsəbə məktəbliləri ilə müqayisədə onlayn dərslərdə iştirak etmək imkanları daha az olub ($X^2(8)=40.776$, $p<0.01$). Belə ki, sorğuda iştirak edən şəhər və qəsəbə şagirdlərinin demək olar ki, yarısı bütün onlayn dərslərdə iştirak etdikləri halda, kənd məktəbliləri üzrə bu göstərici daha aşağı – 39.6% olub. Bundan başqa, kənd məktəblərində təhsil alan respondentlərin 10.4%-i onlayn dərslərə həftədə 1 dəfə, 9.1%-i nadir hallarda qoşulduğunu bildirdiyi halda, 21.4% respondent onlayn dərslərdə heç iştirak etməyib. Bu fakt bir daha onu sübut edir ki, mərkəz və şəhərə nisbətdə, rayon və kənd məktəblərinin onlayn dərslərdə iştirakı internet və lazımi avadanlıqla təchizat baxımından aşağı olub.

Ailəsinin maddi vəziyyətinə gəlincə, özünü aşağı gəlirli ailəyə aid edənlər (32.1%) yuxarı gəlirli ailəyə aid edənlərə (50.5%) nisbətən bütün dərslərə daha az qoşulub. Eyni kəskin fərq özünü heç bir onlayn dərsdə iştirak etməməkdə göstərir. Belə ki, aşağı gəlirli ailə təmsilçilərinin 28.6%-i, yuxarı gəlirli ailə təmsilçilərinin 9.4 %-i heç bir onlayn dərsdə iştirak etməyib.

Distant/məsafədən təhsilin ölkəmizdə bir illik təcrübəsi onu göstərir ki, bu təhsilalma formasının müəllimlər, şagirdlər, həmçinin tədrisin üçüncü tərəfi kimi valideynlər tərəfindən müsbət və mənfi qarşılanan tərəfləri var. Rəyi soruşulanların 15.5%-i bu fikri bölüşür ki, onlayn şəkildə tədris prosesində dərsləri daha rahat şəraitdə mənimsəyə bilib. Respondentlərin 29%-i bu yolla vaxt itkisinin qarşısını ala bildiyini, 15.5%-i müəllimlərlə müzakirə zamanı fikirlərini onlayn formada daha rahat şəkildə çatdıra bildiyini, 7.8%-i xərclərinə qənaət etdiyini düşünür. 16.4% respondent bu fikirdədir ki, müəllimlər dərsləri onlayn şəkildə daha maraqlı keçir. 19.2% respondent onlayn tədris zamanı texnoloji cihazlardan və proqramlardan istifadə imkanlarını və biliklərini artırdığını qeyd edib. Bütün bunların əksinə olaraq 27% respondent bu fikirdədir ki, onlayn dərslərin heç bir üstünlüyünü görməyib.

**Diaqram 44.**




Şəhər respondentləri (31.5%) qəsəbə (26.7%) və kənd (23.1%) respondentlərinə nisbətdə onlayn dərslərin ənənəvi dərslərdən heç bir üstünlüyünü görmədiyini qeyd edib. Bunun əksinə kənddəki respondentlər belə düşünür ki, müəllimlər dərsləri onlayn şəkildə daha maraqlı keçir (19.3%), 20.7% respondent onlayn tədris zamanı texnoloji cihazlardan və proqramlardan istifadə imkanlarını və biliklərini artırdığını qeyd edib.

Aşağı gəlirli ailə nümayəndələrinin 38.3%-i, yuxarı gəlirli ailə nümayəndələrinin 20.8%-i onlayn dərslərin heç bir üstünlüyünü görmədiyini qeyd edib.

Respondentlərdən onlayn dərslər zamanı qarşılaşdıqları problemlər də soruşulub. 66.2% respondent internetin sürətinin aşağı olduğunu, 24.1%-i müəllimlərin internetə qoşulmasında problem olduğunu, 16.3%-i yaşadığı evdə internetin olmadığını, 9.7%-i eyni vaxtda evdə bir neçə nəfərin onlayn dərslərdə iştirak etməsi səbəbindən kompüter/planşet çatışmazlığı problemi ilə qarşılaşdığını, bu səbəbdən evdəkilərlə növbəli işlətdiklərini, 5%-i dərslərə qoşulma prosesi texniki cəhətdən çətin olduğundan valideynləri evdə olmayanda qoşula bilmədiyini, 3.3%-i onlayn dərs keçmək üçün evdə uyğun şərait və ya məkanın olmadığını, 13.6%-i bacı və qardaşı ilə dərslərinin üst-üstə düşməsi problemi ilə üzləşdiyini, 14.9%-i işıqların tez-tez söndüyünü bildirib. 12.4% respondent onlayn dərslər zamanı heç bir problemlə üzləşmədiyini qeyd edib.

**Diaqram 45.**



Şəhər respondentləri ilə müqayisədə kənd respondentləri onlayn dərslər zamanı rastlaşdığı problemlər qismində internetin olmamasını (25.8%) və ya sürətinin aşağı olmasını (67.2%), evdə bəzi hallarda ona kompüter/planşet çatmadığını, bacı və qardaşları ilə növbəli istifadə etdiyini (14.7%), müəllimlərinin internetə qoşulmasında problem olduğunu (22.4%), işıqlarının tez-tez söndüyünü (21%) qeyd edib ($X^2(20)=122.838$, $p<0.01$).

Ailənin maddi vəziyyətinə görə özünü aşağı gəlirli ailəyə aid edənlərin onlayn dərslər zamanı qarşılaşdıqları əsas problemlər internetin sürətinin aşağı olması (56.7%), evdə ümumiyyətlə internetin olmaması (35%), müəllimlərin internetə qoşulmasında problemin olması (30%), bacı-qardaşı ilə dərslərinin üst-üstə düşməsi (18.3%), işıqların tez-tez sönməsi (18.3%) və s. olub.

Dərinləşdirilmiş müsahibələrdə ekspertlər onlayn tədris zamanı uşaqların rastlaşdırları problemlərə də toxunublar. Onlayn tədrisə keçidlə bağlı məktəblərdəki vəziyyəti ekspertlər uşaqlarla bağlı başlıca cari problemlərdən biri kimi qəbul edir. Bundan başqa, ekspertlər tərəfindən ibtidai sinif şagirdlərinin adaptasiya problem də qeyd olunub. Dövlət orqanlarının birində çalışan bir ekspert isə internet probleminin olmasını onlayn tədrisin əsas məhdudiyyəti kimi görüb.

> *"İbtidai siniflərin adaptasiya mərhələsində çətinlikləri olur. Düzdür, müəllimlər müəyyən formada bu vəziyyəti idarə etməyə çalışsalar da, şagirdlər bu prosesdə təbii olaraq uyğunlaşma ilə bağlı problemlər yaşayır. Fərqli psixologiyalara malik olma, həmçinin koronavirusla bağlı yoluxma qorxusu da burada uşaqlara təsir edən amillərdir. Əlbəttə, azyaşlıların sosiallaşma prosesi olduqca vacibdir, lakin istənilən halda, qeyd etdiyim məsələlər də bu mənada qaçılmazdır. Digər tərəfdən, sonuncu sinif şagirdlərinin abituriyent olaraq ali məktəb hazırlığı ilə bağlı bir-birilə sıx ünsiyyətdə olmamaları və məktəbə daha çox dərslərdə fiziki mövcudluğun qeydiyyatı üzrə gəlmələri onları məktəb dövrünün təmin etdiyi özünəməxsus sosiallaşma imkanından məhrum edir." /Gülər Məmmədova/*

> *"Ucqar kəndlərdə internet problemi həmişə olur. Həmin uşaqların valideynlərinin əlaqə nömrələrinə şagirdlərin istifadəsi üçün güzəştli internet paketləri göndərilib". /Səxavət Quliyev/*

Sorğulardan alınan nəticələr bu qənaətə gəlməyə əsas verir ki, ölkəmizdə distant/məsafədən təhsilin bir illik təcrübəsinə əsaslanaraq problemlər ciddi müzakirə edilməli və beynəlxalq təcrübə nəzərə alınmaqla vacib və zəruri olan qaydalar hazırlanmalıdır. Xüsusilə Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə aztəminatlı və çoxuşaqlı ailələrin sürətli və pulsuz internet paketi və texniki avadanlıqlarla təmin olunması ilə bağlı müəyyən layihələrin həyata keçirilməsi məqsədəmüvafiqdir. Bütün təhsil pillələrində, xüsusilə ali təhsildə distant təhsil təcrübəsinin daha geniş tətbiq edilməsi, texnoloji təchizat və keyfiyyətli internet bağlantısının təmin edilməsi məsələlərinin həll edilməsi, yeni təhsilalma forması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi vacib istiqamətlərdən biridir.

Pandemiyanın əsas dərslərindən biri də ondan ibarət oldu ki, həm təhsilverənlər, həm də təhsilalanlar mükəmməl rəqəmsal bacarıqlara malik olmalıdırlar. Belə bacarıqların olmaması yüksək texnologiyalardan və müasir tətbiqlərdən istifadə imkanlarını məhdudlaşdırır, təhsilə və fəaliyyətə ciddi maneələr yaradır. Bu baxımdan əsas fəaliyyət istiqamətlərindən biri də rəqəmsal bacarıqların formalaşdırılmasına xidmət edən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi olmalıdır.[29]

Qeyd edək ki, "Azərbaycan Respubli-

[29] *Azərbaycan təhsilinin pandemiya sınağı. - https://edu.gov.az/az/news-and-updates/18449*

kasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklərlə yüklənmiş kompyuter-planşetlə təmin olunması; həmçinin təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması; distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması nəzərdə tutulur.[30]

---

[30] *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. / Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://president.az/articles/9779*

# V BÖLMƏ.

# UŞAQ ƏMƏYİ

**V.1. Azərbaycanda əmək fəaliyyətinə cəlb olunan uşaqlar və onların iş qrafiki**

**V.2. Uşaqları erkən yaşda işləməyə vadar edən səbəblər**

**V.3. Son 6 ayda respondentlərin həyat dinamikası**

## V.1. Azərbaycanda əmək fəaliyyətinə cəlb olunan uşaqlar və onların iş qrafiki

Sağlamlığa və gələcək inkişafa böyük zərər yetirən, istismar kimi başa düşülən uşaq əməyi hələ də planetin hər yerində çox sayda uşağı əhatə etməklə müasir dünyanı narahat edir. 2000-ci ildən bu yana dünyada uşaq əməyinin istismarı 40% azalsa da, 152 milyon (9,6%) uşaq hələ də məcburi əməyin qurbanıdır. Bu uşaqların 88 milyonunu (58%) oğlanlar, 64 milyonunu isə (42%) qızlar təşkil edir. Təxminən 73 milyona yaxın uşaq (4,6%) təhlükəli işlərdə işləyir. Dünyada uşaq məşğulluğunun yarısı Afrikanın payına düşür və ya bu regionda hər 5 uşaqdan birinin əməyi istismar olunur. Məcburi uşaq əməyi Afrikanın bir çox regionunda geniş yayılıb və bu, uşaqları uzaq şəhərlərdə yaşayan qohumlara qəyyumluğa vermə kimi ənənəvi praktikaya əsaslanır. Valideynlərinə uşaqlarının təhsil almalarına dair vədlərin verilməsinə baxmayaraq, bir çox hallarda oğlanlar və qızlar ev qulluqçuları kimi kənd və balıqçılıq təsərrüfatlarında və ya digər sahələrdə qəddarcasına istismar olunurlar. Asiya və Sakit okean regionunda hər 14 uşaqdan, Amerikada hər 19 uşaqdan, Avropa və Orta Asiyada hər 25 uşaqdan birinin əməyi istismar olunur. Ümumiyyətlə, dünyada uşaqların 70,9%-i kənd təsərrüfatında, 11,9%-i sənayedə, 17,2%-i isə xidmət sahələrində işləyir. Araşdırmalar göstərir ki, ailə təsərrüfat işləri uşaqların məktəbə getmək və təhsildən faydalanmaq imkanlarına mənfi təsir göstərir. Dünyanın ən kasıb ölkələrində yaşayan uşaqlar zəngin həmyaşıdlarından daha çox işləməyə məcburdurlar. Məsələn, Vyetnamda ən yoxsul uşaqlar zəngin həmyaşıdlarından 8 dəfə artıq işləyir, Monqolustanda isə bu nisbət 9 dəfə böyükdür. Buradan belə nəticəyə gəlmək olar ki, uşaq əməyinin istismarı zəif inkişaf etmiş ölkələrlə məhdudlaşmır və dünyada bütün işləyən uşaqların yarıdan çoxu (84 milyon) inkişaf etməkdə olan ölkələrdə, 2 milyonu isə yüksək gəlirli ölkələrdə yaşayır. Göründüyü kimi uşaq əməyinə qarşı mübarizə yalnız zəif inkişaf etmiş ölkələrlə məhdudlaşmamalıdır. BMT-nin hədəf proqramları ilə 2025-ci ilə qədər dünyada işləyən uşaqların sayının 121 milyona, təhlükəli işlərdə işləyən uşaqların sayının isə 52 milyona qədər azaldılacağı proqnozlaşdırılır. [31]

Uşaq əməyindən istifadənin qarşısının alınması hazırda dünya ölkələrini düşündürən ən başlıca qlobal məsələlərdəndir və bu problemə qarşı mübarizə sahəsində Azərbaycan fəal dövlət siyasətinə malikdir.[32] 2020-ci ilin əvvəlinə olan məlumata görə, Azərbaycan əhalisinin 26,2%-ni, yəni 2.636.700 nəfərini uşaqlar təşkil edir. Ümumilikdə, ölkə üzrə 18 yaşadək oğlan və qız uşaqlarının nisbətində oğlanlar üstünlüklərini qoruyur. Ölkə üzrə ümumi uşaqların 53.5%-i oğlanlardan, 46.5%-i isə qızlardan ibarətdir. Azərbaycan Respublikası Konstitusiyanın 35-ci maddəsinə əsasən, əmək ictimai və fərdi rifahın əsasıdır və orada təsbit olunan hüquqi normalar cəmiyyətin digər üzvləri ilə

**Diaqram 46.**

| | İşləyən uşaqların sayı | Təhlükəli işlərdə işləyən uşaqların sayı |
|---|---|---|
| **Afrika** | 73 milyon | 32 milyon |
| **Asiya və Sakit okean regionu** | 62 milyon | 28,469 milyon |
| **Amerika** | 11 milyon | 7 milyon |
| **Avropa və Orta Asiya** | 6 milyon | 5,349 milyon |

[31] *https://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---ipec/documents/publication/wcms_586125.pdf*
[32] *https://www.ilo.org/dyn/natlex/docs/ELECTRONIC/64863/118559/F188159467/AZE64863%20Azi.pdf*

yanaşı, müəyyən yaş həddinə çatmış uşaqları da əhatə edir.[33] "Uşaq hüquqları haqqında" 19 may 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanununun (5 fəsil 45 maddə) 24-cü maddəsinə əsasən, uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır. Əmək hüququnun yaranması və həyata keçirilməsi Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq tənzimlənir.

Azərbaycan 2002-ci il 2 aprel tarixində qoşulduğu Beynəlxalq Əmək Təşkilatının (BƏT) Uşaq Əməyinin ən Pis Formaları haqqında 182 və Minimum Yaş Həddi haqqında 138 nömrəli Konvensiyalarına, o cümlədən "Uşaq hüquqları haqqında" Konvensiyanın uşaqlarla ticarət, uşaq fahişəliyi, uşaq pornoqrafiyası və həmin Konvensiyanın Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokoluna əsasən, uşaq əməyi uşaqları öz uşaqlıq dövrlərində sahib olduqları potensial və ləyaqətdən məhrum edən iş olub, həm fiziki, həm də əqli inkişaf üçün çox zərərlidir və 18 yaşına çatmamış uşaqların təhlükəli işlə (onların səhhətinə, təhlükəsizliyinə və ya əxlaq normalarına zərər verə biləcək iş) məşğul olması və cinsi istismar, borc asılılığı, məcburi əmək və yetkinlik yaşına çatmamış uşaqların təhlükəsizlik və ya hərbi məqsədlər üçün işə götürülməsi daxil olmaqla məcburi əməyin digər formalarına cəlb olunması uşaq alveri kimi qiymətləndirilir.[34]

Bu baxımdan respondentlərin əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə hər hansı ödənişli əməyə cəlb edilməsinə dair müxtəlif aspektləri özündə əks etdirən şərtlərin öyrənilməsi uşaq hüquqlarının ümumi vəziyyətinə birbaşa təsir göstərən əsas determinantlardan biri hesab edilir. Keçirilən sorğunun nəticələrinə əsasən, respondentlərin mütləq əksəriyyəti - 96,4%-i hər hansı bir işdə işləmədiyini qeyd edib. Respondentlərin mövqeyinin gender aspektindən təhlilinə əsasən, işləməyən qız (97,9%) və oğlan respondentlərin (95%) sayı ciddi şəkildə fərqlənmir.

Cəmi 3.6% respondent müxtəlif sahələrdə işlədiyini bildirib.

***Qeyd edək ki, sorğuya cəlb olunan respondentlər arasında işləyənlərin göstəricisi az olduğundan onların sosial-demoqrafik vəziyyətinə görə aparılan təhlildə əldə olunan nəticələr ölkə üzrə ümumi vəziyyəti əks etdirmir.***

İşləyən respondentlərin 5%-ni oğlanlar, 2.1%-ni qızlar təşkil edir. Yuxarı sinifdə təhsil alanların 6.7%-i, aşağı sinifdə oxuyanların 2.1%-i işlədiyini qeyd edib.

**Diaqram 47.**




Eyni kontekstdə respondentlərin iş qrafikinə dair rəy sorğusunun nəticələrinə əsasən müxtəlif sahələrdə işləyən respondentlərin 52.3%-i yalnız dərsdənkənar vaxtlarda işləyir ki, onların 51,6%-ni oğlanlar, 53,8%-ni qızlar təşkil edir. Sözügedən qrafik üzrə işləyənlər arasında 47,1% aşağı, 55,6% yuxarı sinifdə təhsil alır.

İşləyən respondentlərin 29,5%-i yalnız tətillərdə işlədiyini qeyd edib. Onlar arasında oğlanların göstəricisi 35,5%, qızların göstəricisi isə cəmi 15,4%-dir. Yalnız tətillərdə işləyən respondentlərin 29,4%-i aşağı sinifdə, 29,6%-i yuxarı sinifdə oxuyur.

İşləyən respondentlərin yalnız 11,4%-i dərs vaxtlarında da işlədiyini qeyd edib. Sözügedən qrafik üzrə işləyənlərin 9,7%-i oğlanlardan, 15,4%-i qızlardan ibarətdir. Dərs vaxtlarında işləyən respondentlər arasında yuxarı sinifdə təhsil alanlar 11,1%, aşağı sinifdə oxuyanlar 11,8% təşkil edir.

Cəmi 6,8% respondent bununla bağlı rəyini bildirmək istəməyib.

[33] http://www.e-qanun.az/framework/897
[34] https://www.ilo.org/ipec/facts/ILOconventionsonchildlabour/lang--en/index.htm

**Diaqram 48.**




Nəzərə çatdıraq ki, Sosial Tədqiqatlar Mərkəzinin "Uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin məlumatları əsasında uşaq hüquqlarının ümummilli vəziyyətini əks etdirən Analitik Hesabat"ına əsasən, 2018-2019-cu illər üzrə Bakı şəhəri və iqtisadi rayonlar üzrə əməyə cəlb olunan uşaqlarla bağlı müəyyən statistik təhlillərlə aparılan tədqiqat nəticələrinin uzlaşdırılması ölkədə uşaq əməyi ilə bağlı mövcud vəziyyəti müşahidə etməyə imkan verir. Belə ki, Bakı şəhəri üzrə Binəqədi rayonu yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən 2018-ci ildə 1, Nizami rayonunda əməyin istismarı ilə bağlı 2 nəfər aşkar edilib və aidiyyəti orqanlar tərəfindən müvafiq tədbirlər görülüb. Bununla yanaşı, Uşaq Sığınacağı - Reinteqrasiya Mərkəzinə və "Təmiz Dünya" Qızlara Yardım İctimai Birliyinin Sığınacağına ümumilikdə 702 uşaq yerləşdirilib. Ümumilikdə, 157 nəfəri qız və 120-si oğlan olmaqla cəmi 277 uşaq məişət zorakılığına və əməyin istismarı hallarına məruz qalıb. 2019-cu ildə Nizami və Kəpəz rayon polis idarələrinin profilaktik işin təşkili bölmələrinin qrup rəhbərləri tərəfindən Gəncə şəhərinin inzibati ərazisində yerləşən tam orta məktəblərdə maarifləndirmə tədbirləri və mütəmadi olaraq reydlər keçirilib, yetkinlik yaşına çatmayan 2 uşağın əmək müqaviləsi olmadan qulluğa cəlb edilməsi faktı aşkarlanıb.

Bütövlükdə, 2018-ci və 2019-cu illərdə Qaradağ, Xəzər, Səbail, Nəsimi, Suraxanı, Pirallahı, Xızı, Abşeron, Qobustan, Ağsu, Şamaxı, Qax, Şəki, Hacıqabul, Şirvan, Oğuz, Lənkəran, Lerik, Qəbələ rayonlarında, həmçinin Laçın, Qubadlı, Xocavənd, Kəlbəcər rayonundan olan uşaqlar arasında uşaq əməyinin istismarı hallarının qarşısının alınması, onların hüquqlarının və mənafelərinin qorunması istiqamətində maarifləndirici tədbirlər, reydlər keçirilib.

Bildiyimiz kimi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nda 5 prioritet istiqamət üzrə həyata keçirilməsi nəzərdə tutulan konkret fəaliyyətlər müəyyən edilib: 1. uşaq müdafiəsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi; 2. erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin edilməsi; 3. çətin həyat şəraitində olan uşaqların müdafiəsinin gücləndirilməsi; 4. uşaqların mədəni-estetik tərbiyəsi və mədəni tədbirlərdə uşaqların iştirakının təmin edilməsi; 5. uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin monitorinqi və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi. Strategiyanın müvafiq bəndlərindən irəli gələrək Dövlət Komitəsi cari il ərzində "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək", "Uşaq zorakılığına son", "Qaraçı ailələri ilə görüşlər", "İnsan hüquqlarının qorunması", "Uşaq əməyinin istismarı, və s. mövzular ətrafında genişmiqyaslı layihələr, maarifləndirici tədbirlər keçirib. Ümumilikdə, aparılan təhlillər və müşahidələr göstərir ki, dövlətin uşaq hüquqlarının reallaşmasında hədəflərə yönəlik və konkret siyasətinə iş adamlarının, biznes qurumlarının, sahibkarların və valideynlərin, eləcə də cəmiyyətin hər bir üzvünün birmənalı dəstəyi problemin həllində kompleks yanaşmanın tərkib hissəsinə çevrilir.

Keçirilən sorğunun nəticələri əsasında Azərbaycanda uşaqların ödənişli əməyə cəlb edilməsinin kütləvi xarakter daşımadığı təsdiqini tapır. Aparılan araşdırmalar və müşahidələr də bir daha bunu sübut edir və bu gün cəmiyyətimizdə əməyə cəlbolunma hallarının əsasən baxımsız, küçə həyatına mə-

ruz qalmış uşaqlar arasında qeydə alındığını deməyə əsas verir. Ümumiyyətlə, Avropa Şurasının Küçə Uşaqları üzrə İşçi Qrupu 18 yaşının altında olan qısa və ya uzunmüddətli küçə mühitində yaşayan uşaqları “küçədə yaşayan uşaq” olaraq qəbul edir. UNICEF üç qrup küçə uşaqlarını müəyyən edib: ailələrindən qaçıb küçələrdə tək yaşayanlar - küçədə yaşayan uşaqlar; vaxtlarını ən çox küçələrə sərf edənlər, özlərinin qayğısına qalanlar - küçədə işləyən uşaqlar, küçə ailələrindən olmuş, ailələri ilə birlikdə küçədə yaşayan uşaqlar.

Sosial Tədqiqatlar Mərkəzinin “Uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin məlumatları əsasında uşaq hüquqlarının ümummilli vəziyyətini əks etdirən Analitik Hesabat”ına əsasən, uşaq problemləri sahəsində küçə həyatına məruz qalmış uşaqlar həssaslığın artdığı qruplardan biri olaraq qalmaqdadır. Belə ki, 2018-ci il üzrə ölkədə baxımsız, küçə həyatına məruz qalmış uşaqlar daha çox Bakı şəhəri üzrə Binəqədi rayonunun payına düşür ki, onların da sayı ümumilikdə 683 nəfərdir. 2019- cu ildə Bakı şəhərində adıçəkilən həssas qrupların sayı artaraq 692 nəfərə çatıb. Qeyd olunmalıdır ki, baxımsız, küçə həyatına məruz qalmış uşaqların daha çox Binəqədi rayonunun payına düşməsi Bakı şəhəri üzrə uşaq müəssisələrinin daha çox həmin rayonda yerləşməsi ilə bağlıdır. Paytaxt üzrə rayonlararası vəziyyətə dair ciddi fərq müəyyən edilməyib. Belə ki, Qaradağ rayonunda, Nizami rayonunda, Yasamal rayonunda və Sumqayıt şəhərində küçə həyatına məruz qalmış uşaqların sayı azlıq təşkil edir. Baxımsız, küçə həyatına məruz qalmış uşaqların gender aspektindən bölgüsünə nəzər salsaq, Bakı şəhəri üzrə adıçəkilən həssas kateqoriyanın üzvləri arasında oğlanlar üstünlük təşkil edir. Daha detallı desək, 2019-ci ildə Bakı şəhəri üzrə Binəqədi rayonunda qeydə alınan 692 baxımsız uşağın 377-si qızlardan, 315-i isə oğlanlardan ibarət olub.

Problemin əhatə dairəsinə görə Bakı şəhərindən sonra ikinci pillədə Gəncə şəhəri qərarlaşır. Belə ki, 2018-ci ildə Gəncə şəhərində küçələrdə yaşayan uşaqların sayı ümumilikdə 205 nəfər təşkil edib. 2019-cu ildə Gəncə şəhərində baxımsız, küçə həyatına məruz qalan uşaqların sayı artaraq 339 nəfərə çatıb. Şəki-Zaqatala, Qəbələ, Ağcabədi rayonları üzrə analoji göstəricilər olduqca aşağıdır. Aparılan təhlillər zamanı o da məlum olub ki, əksəriyyəti 6-18 yaş qrupuna mənsub olan bu uşaqların küçə həyatına məruz qalmasının əsas səbəbləri onların ailə vəziyyətləri (yalnız bir valideynin olması, hər iki valideynin olmaması), həmçinin ailələrinin maddi durumunun aşağı olması ilə bağlıdır.

**Diaqram 49.**

**Regionlar üzrə baxımsız, küçə həyatına məruz qalmış uşaqların sayı və yerləşdirildikləri müəssisələr**



Dilənçiliyə cəlb edilmiş uşaqların sosial-demoqrafik vəziyyətinə gəlincə, 2018-ci ildə Bakı şəhəri üzrə Binəqədi rayonunda dilənçilik edən 63 uşaq müəyyən olunub. 2019-cu ildə Yasamal rayonunda dilənçiliyə cəlb edilmiş belə uşaqların sayı 29 nəfər, Binəqədi rayonunda 107 nəfər, Abşeron rayonunda 50 nəfər, Sumqayıt şəhərində isə 27 nəfər olub.

Bakı şəhərindən sonra bəhs edilən problem Gəncə şəhəri üçün xarakterikdir. 2018-ci ildə Gəncə şəhəri üzrə ümumilikdə dilənçiliyə cəlb edilmiş uşaqların sayı 50 nəfər, 2019-cu ildə 102 nəfər təşkil edib. Şəki-Zaqatala, Qəbələ və Xocalı rayonları üzrə analoji göstəricilər olduqca aşağıdır. Yevlax şəhərində dilənçiliyə cəlb edilmiş uşaqların sayı 2018-ci ildə 63 nəfər, 2019-cu ildə 48 nəfər olub.

Qeyd edək ki, Beynəlxalq Əmək Təşkilatının Uşaq Əməyinin ən Pis Formaları haqqında 182 nömrəli və Minimum Yaş Həddi haqqında 138 nömrəli konvensiyalarının təcili və təxirəsalınmaz tədbirlərindən biri də məhz 18 yaşdan az uşaqların sağlamlıqlarına, təhlükəsizliklərinə, tərbiyələrinə və sosial əqlinə zərərli təsir göstərən işlərdə və şəraitdə işləməsi ilə bağlıdır. Xüsusilə də küçə şəraitində əməyə cəlb edilən uşaqlar daha sıx və təhlükəli yerlərdə işlədiklərindən və dolayısı ilə risklərə açıq olduqlarından erkən yaşda müxtəlif yanlışlıqlara yol verə bilirlər. Bu cür uşaqlar gün ərzində təhlükəli şəraitdə işlədikləri üçün ekoloji səbəblərdən onlarda dəri problemləri, infeksion xəstəliklərə yoluxma, zərərli maddələrin dəriyə toması, eyni zamanda, düzgün qidalanmama onların fiziki, psixoloji sağlamlığına mənfi təsir göstərir. Həmçinin, uşaqların işləməkdən və onlar üçün yorucu olan, şiddət və istismara məruz qaldıqları ətraf mühitdən də əziyyət çəkmələri heç bir halda istisna edilə bilməz.

**Diaqram 50.**



Ümumiyyətlə, uşaqların hüquqlarının və azadlıqlarının qorunması, keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycanın dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil edir. Prezident İlham Əliyevin 2019-cu il 18 yanvar tarixində imzaladığı Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdindəki üç müəssisə əsasında həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi yaradılıb. Burada əsas məqsəd həmin şəxsləri, o cümlədən müəyyən yaşayış yeri olmayan şəxsləri, baxımsız, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanları stasionar şəraitdə sosial xidmətlərlə təmin etmək, qeyd edilən insanların normal həyat tərzinə sahib olmaları, əmək qabiliyyətli olanların əmək bazarına dönüşünü, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların bu vəziyyətdən çıxarılmalarını, nəticə etibarilə həssas əhali qruplarından olan şəxslərin sosial reabilitasiyasını və cəmiyyətə fəal inteqrasiyasını təmin etməkdir.

Reabilitasiya və cəmiyyətə inteqrasiya üçün mövcud institusional imkanların qiymətləndirilməsi göstərir ki, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisələrinin sayı 2018-ci və 2019-cu illərdə eyni (25) olsa da, orada yerləşdirilən uşaqların sayı müvafiq illər üzrə fərqlənir. Əgər 2018-ci ildə müəssisələrə 57 uşaq yerləşdirilibsə, bu göstərici 2019-cu il üzrə 49 nəfər təşkil edib. Bununla belə, araşdırmalar istismara məruz qalmış uşaqlar üçün sosial reinteqrasiya və reabilitasiya sahəsində hələ də problemlərin mövcud olduğunu deməyə əsas verir. Məsələn, baxımsız, küçə həyatına məruz qalmış uşaqların reabilitasiyası üçün müvafiq sosial xidmət müəssisəsinin olmasına baxmayaraq aidiyyəti yerli qurumlar tərəfindən bu kateqoriyadan olan uşaqlar aşkar edildikdən sonra qeyri-hökumət təşkilatlarının sığınacaqlarına yerləşdirilirlər. Bu müəssisələrin maddi-texniki vəziyyəti, uşaqlara xidmət səviyyəsi analoji dövlət uşaq müəssisələri ilə müqayisədə aşağı olduğundan və müvafiq xidmətlərlə bağlı standartlara malik olmadığından uşaqlar yenidən baxımsız vəziyyətə düşür, küçə həyatına məruz qalırlar. Bu baxımdan müvafiq kateqoriyadan olan uşaqların aşkar edildikdən sonra bir qayda olaraq dövlət müəssisələrinə yerləşdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi zəruridir.

**Diaqram 51.**

**Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi**

| Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi | 2018 | 2019 |
|---|---|---|
| Yer sayı | 25 | 25 |
| Uşaq sayı | 57 | 49 |

"Küçə uşaqları"nın sosiallaşması və cəmiyyətə geri qaytarılması məqsədilə beynəlxalq təcrübə nəzərindən uğurlu hesab olunan proqramlar mövcuddur. "Ailədə böyümək" proqramı 1989-cu ildən Portuqaliyada təşkil olunur və statistikaya görə, bir il ərzində 100 uşağı cəmiyyətə qaytarır, ailə daxilində sağlam inkişafı təmin edir. Təhsil Nazirliyi ilə əməkdaşlıq mühitində həyata keçirilən proqram çərçivəsində müəllimlər, digər təhsil işçiləri və proqram əməkdaşları arasında kommunikasiya təşkil olunur ki, bununla da şagirdlərlə bilavasitə ünsiyyətdə olan müəllimlər risk qrupuna daxil olan uşaqları daha tez müəyyən edir, proqram əməkdaşları ilə birgə şagirdin məktəbi atması, dərslərinin axsaması və digər sosial uğursuzluğun qarşısını alır. Proqram vasitəsilə cəmiyyətə inteqrasiya olmuş gənclərin bir neçəsi proqramda əməkdaş kimi fəaliyyət göstərir, küçə həyatına məruz qalmış uşaqlarla effektiv ünsiyyət qura bilirlər.

Rumıniyada 1994-cü ildən fəaliyyət

göstərən "Küçə uşaqlarının sosial inteqrasiyası məqsədilə mədəni dəstək" proqramı küçə həyatına məruz qalmış uşaqların sənədlərinin bərpasını, tibbi və sosial-psixoloji reabilitasiyasını, eləcə də əmək abilitasiyasını həyata keçirir. Yeniyetmələrə onların potensialı və bacarıqlarına uyğun daimi, yaxud dövri iş yerləri təklif olunur. Əlavə olaraq, evdən qaçan uşaqların ailələri ilə bir araya gətirilməsi, ailəyə sosial və iqtisadi dəstəyin göstərilməsi həyata keçirilir.

Bu sahədə digər uğurlu nümunə kimi ABŞ-ın Boston şəhərində təşkil olunmuş "Çətin sular üzərindən körpü" proqramını nümunə göstərmək olar. Proqram mütəxəssisləri küçə həyatına məruz qalmış uşaqların böyüklərə və sosial xidmət əməkdaşlarına etibar etmədiklərini nəzərə alaraq, uşaqların yığışdığı yerlərə tez-tez baş çəkir, proqram xidmətləri haqqında məlumatlandırırlar. Bundan əlavə, həmin yerlərdə həftədə bir dəfə tibbi-avtobuslar yerləşdirilir, uşaqlara təmannasız tibbi və stomatoloji xidmətlər göstərilir. Bu addımlar həm uşaqlara tibbi dəstək göstərmək, həm də onların etibarını qazanmaq məqsədilə atılır. Qurulan etibarlı ünsiyyət zamanı uşaqlar özləri dəstək proqramının xidmətləri haqqında maraqlanır, sosial-psixoloji reabilitasiya, əmək abilitasiyası proqramlarına könüllü olaraq qoşulurlar. Proqram 1970-ci ildən evdən qaçan, yaşamağa evi olmayan və risk qrupuna daxil olan uşaqları və gəncləri əhatə edir.

Beləliklə, küçə həyatına məruz qalmış uşaqların sosial dəstəyi və cəmiyyətə inteqrasiyası üzrə dəstək proqramları həm risk qrupuna daxil olmuş uşaqları müəyyən edərək profilaktik tədbirlər həyata keçirir, həm də küçə həyatı yaşayan uşaqların ailəyə və cəmiyyətə geri qaytarılması, əmək abilitasiyası, tibbi-sosial-psixoloji reabilitasiyasını həyata keçirir.[35]

## V.2. Uşaqları erkən yaşda işləməyə vadar edən səbəblər

Gələcəyimizin mərkəzində əsas fenomen kimi çıxış edən uşaqların erkən yaşlarda əməyə cəlb olunmasına qarşı inzibati tədbirlər və bu sahədə aidiyyəti qurumlarla birgə təbliğat-maarifləndirmə işləri problemin sosial təməlində duran səbəblərin araşdırılması və bu istiqamətdə mümkün həll yollarının tapılması ilə daha effektiv xarakter ala bilər. Dünya ölkələri ilə müqayisədə Azərbaycanda kütləvi xarakter almayan, lakin sosial sferada özünə yer edən uşaqların erkən yaşda əməyə cəlb olunması məsələsinə vətəndaş mövqeyindən baxış problemin səbəblərinə daha konseptual prizmadan yanaşmanın vacibliyini ortaya qoyur. Çünki uşaqların erkən yaşda əməyə cəlb olunması bir çox hallarda ailələrin maddi durumundan qaynaqlansa da, yoxsulluq problemə rəvac verən səbəbdən daha çox gələcəkdə onun nəticəsi kimi çıxış edir. Əldə edilən təsbitlər də öz növbəsində bizə bu fenomeni izah edən mədəni, sosial, eləcə də digər xarakterli amillərin olduğu qənaətinə gəlməyə əsas verir.

Təhlillər göstərir ki, əməyə cəlb olunan respondentlərdən 36,4%-i daha çox öz xərclərini ödəmək üçün işləyir. Burada xüsusilə qeyd etmək lazımdır ki, öz xərclərini ödəmək məqsədilə işləyənlərin 41,9%-i oğlanlardan, 23,1%-i qızlardan ibarətdir. Öz xərclərini ödəmək üçün işlədiyini bildirən respondentlərin 29,4%-i aşağı sinifdə, 40,7%-i isə yuxarı sinifdə təhsil alır.

İşləyən respondentlərin 34,1%-nin işləmə səbəbi boş vaxtın dəyərləndirilməsi ilə əlaqədardır. Bu səbəb üzrə işləyən qızların göstəricisi 61,5%, oğlanların göstəricisi isə 22,6%-dir. Boş vaxtını dəyərləndirmək üçün işləyənlər arasında aşağı sinifdə oxuyanlar 35,3%, yuxarı sinifdə təhsil alanlar 33,3% təşkil edir.

Ümumi olaraq respondentlər arasında işləmək səbəbini təcrübə qazanmaqla

[35] *Volpi, E. (2002). Street children: Promising practices and approaches.*

əlaqləndirənlərin göstəricisi 31,8%-dir. Onlar arasında təcrübə qazanmaq üçün işləyənlərin 35,5%-i oğlanlardan, 23,1%-i qızlardan ibarətdir. Aşağı sinifdə oxuyanların 29,4%-i, yuxarı sinifdə təhsil alanların 33,3%-i təcrübə qazanmaq məqsədilə işləyir.

İşləmək səbəbini ailəsinə maddi dəstək olmaqla əlaqələndirənlərin göstəricisi 27,3%-dir. İşləməyinin səbəbi kimi ailəsinə maddi dəstək olmağı bildirənlərin 32,3%-i oğlanlardan, 15,4%-i qızlardan ibarətdir. Sözügedən motiv üzrə işləyənlərin 23,5%-i aşağı sinifdə, 29,6%-i yuxarı sinifdə təhsil alır.

Cəmi 6,8% respondent oxumağa marağı olmadığından işlədiyini qeyd edib ki, bu hal yalnız oğlanlar (9,7%) arasında yayılıb. Onların 5,9%-i aşağı sinifdə, 7,4%-i yuxarı sinifdə oxuyur.

**Diaqram 52.**




Tədqiqatlar göstərir ki, erkən yaşda işləməyə məcbur qalan uşaqlar əsasən valideynləri ayrılan ailələrin övladlarıdır. Bununla əlaqəli olan digər bir səbəb yalnız bir valideyni ilə yaşayan uşaqların sosial qayğılardan və maddi imkansızlıqdan dolayı işləməyə məcbur qalmasıdır. Valideynləri ayrılan azyaşlı uşaqlar əsasən anaları ilə yaşadıqları, ümumiyyətlə maddi və mənəvi cəhətdən ata qayğısından məhrum olduqları üçün erkən yaşda ailə yükünü çiyinlərində daşımaq məcburiyyəti qarşısında qalırlar. Ümumiyyətlə, uşaqlar erkən yaşda işləməyə valideynləri və ya yaxınları tərəfindən məcbur edilmir, buna daha çox sosial durumdan dolayı məcbur qalırlar. Xüsusilə də hər iki valideynindən ayrı və ya yalnız bir valideyni ilə yaşamaq məcburiyyətində qalan uşaqlar, demək olar ki, ata himayəsindən məhrum olurlar. Təbii ki, bunun səbəbi də atalarının onlarla maraqlanmamasıdır. Bir sıra hallarda həmin uşaqlarının valideynlərinin ayrılmalarının əsas səbəbi atalarının içki, qumar düşkünü olması ilə əlaqədardır. Təbii ki, bu faktor da uşaqların psixologiyasına təsirsiz ötüşmür, onların həmyaşıdları ilə müxtəlif problemlər yaşamasına, tez-tez onlarla mübahisə etməsinə, aqressiv olmasına, ən əsası isə təhsildən kənarda qalmasına və digər müxtəlif problemlərə yol açır.[36]

## Fokus qrupu ilə aparılan keyfiyyət sorğusunun təhlili

Sözügedən istiqamətdə müxtəlif sahələrdə təmsil olunan fokus qrupları ilə aparılan müsahibələrin nəticəsi onu deməyə əsas verir ki, uşaq əməyi ilə bağlı ətraflı fikir bildirən yeddi respondentin dördü bu halın əsasən rayon və kəndlərdə geniş yayıldığını bildirsə də, digər üç respondent bu cəhətdən coğrafi fərqləri müşahidə etmədiyini bildirib. Maraqlı məqamlardan biri kimi uşaq əməyinə sosial münasibət diqqət çəkir. Belə ki, iki respondent nəzərə çatdırıb ki, sosial-mədəni amilləri nəzərə alsaq, heç də hər bir işi uşaq əməyi kimi qəbul etmək düzgün olmazdı. Beləliklə, uşaq əməyi məfhumunun nisbi xarakterli olduğunu iki respondent səsləndirib.

*“Təbii ki, bəzi şeylərə baxanda əsrlər boyu formalaşmış yerli mədəniyyəti də nəzərə almaq çox vacibdir. Amma bu, uşaq əməyinə heç də aid deyil. Məsələn, uşaq dərsdən sonra valideyni ilə birlikdə hansısa bir əməklə məşğul olursa, bağça-bağda işləyirsə, təbii ki, bunu uşaq əməyi kimi qələmə vermək bir az düzgün olmaz. Amma uşağın*

[36] https://stm.az/projects/researchs/uaqlarn-mecburi-emeyin-qurbanna-cevrilmesi-qlobal-problem-kimi-aradirma

*dərs vaxtı və ya dərsdən sonra hansısa bir maşın təkərini qaraltdığını və ya əməklə məşğul olub, pul qazandığını görürüksə, təbii ki, bunu mütləq uşaq əməyi kimi qəbul etmək lazımdır". (Rəşad Hüseynov).*

*"Əvvəllər uşaq əməyi bizdə yayılsa da, indi bu hallar qeyd etdiyim kimi azdır. Hal-hazırda əsasən ailə təsərrüfatlarında övladların əməyə cəlb olunması halı mövcuddur ki, bununla bağlı Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr qeydəalma və əhatəli mübarizə tədbirləri həyata keçirməlidir. Bu kimi tədbirlərin həyata keçirilməsi üçün Daxili İşlər Nazirliyi nəzdində müvafiq qurumlar fəaliyyət göstərir. Bundan başqa, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bu məsələ üzrə vəzifələri var. Həmçinin, icra hakimiyyəti orqanlarının nəzdində də eyni məsələlərlə bağlı fəaliyyət həyata keçirən müvafiq şöbələr var. /Sahib Məmmədov/.*

### V.3. Son 6 ayda respondentlərin həyat dinamikası

Sorğu çərçivəsində respondentlərin son 6 ayda həyatlarında baş verən mənfi tendensiyaların dinamikasına cavabları bir sıra mühüm nəticələrə gəlməyə əsas verir. Keçirilən rəy sorğusunun nəticələrinin deskriptiv təhlilinə əsasən, respondentlərin əksəriyyəti (80,5%) gələcəklə bağlı ümidsizliyi nadir hallarda yaşayıb və ya heç vaxt yaşamadığını bildirib. Daha detallı desək, aşağı sinifdə oxuyan respondentlərin 82,4%-i, yuxarı sinifdə oxuyan respondentlərin 76,5%-i heç vaxt gələcəklə bağlı ümidsizliyə qapılmayıb. Maraqlıdır, yoxsullarla (63,1%) müqayisədə bu müsbət tendensiya maddi durumu orta (82,2%) və yuxarı olanlarda (79,2%) daha çox müşahidə edilib. Təxminən 7,8% respondent hər ay gələcəklə bağlı ümidsizliyə qapılsa da, cəmi 4,5% respondentin həyatında bu, hər həftə baş verib. Gələcəyə ümidsizliklə bağlı bütün kateqoriyalar üzrə yoxsul qrupu təmsil edən respondentlər maddi durumu orta və yuxarı olan respondentlərlə müqayisədə yüksək göstərici nümayiş etdiriblər ($X^2(8)=21.636$, $p<0.01$).

Ümumiyyətlə, respondentlərin valideynlərinin təhsil səviyyəsi artdıqca onların gələcəyə ümidi də artır. Gələcəyə ümidli olan respondentlərdə əhəmiyyətli statistik əlaqə yalnız atası yüksək təhsilli olan respondentlərdə təsbit edilib ($r=0.798$ $p<0.01$). Həmçinin, gələcəyə ümidli olan respondentlərlə daha bir əlaqə yalnız anası yüksək təhsilli olan respondentlərlə müəyyən edilib ($r=0.537$, $p<0.01$).

Analoji halı gərginliklə bağlı da qeyd etmək olar. Belə ki, respondentlərin mühüm bir hissəsi və ya 62,8%-i heç vaxt gərginlik yaşamayıb. Heç vaxt gərginlik yaşamayanlar arasında oğlanlar qızlarla müqayisədə üstünlük təşkil edir - 65,8% və 59,7%. Bu müsbət tendensiya aşağı sinif şagidləri (67,3%) arasında digər qrupla (53,7%) müqayisədə nisbətən geniş yayılıb. Nadir hallarda gərginliyin yaşanması yoxsul qrupu təmsil edənlərlə (50%) müqayisədə maddi durumu orta və yuxarı olanlar (63%-dən çox) üçün daha xarakterikdir. Kənd üzrə olan respondentlər (68,9%) şəhər və qəsəbə respondentləri (58,3%) ilə müqayisədə heç vaxt gərginlik yaşamadığını daha çox qeyd edib. Təxminən eyni sayda respondent hər ay (10,8%) və həftədə bir dəfədən çox (9,6%) gərgin olub. Yalnız anası yüksək təhsilli olan respondentlər (14,4%) yalnız atası yüksək təhsilli respondentlərlə (6,5%) müqayisədə həftədə bir dəfədən çox gərginlik keçirirlər. Rəyi öyrənilənlərin 8,5%-i təxminən hər həftə, 8,3%-i isə hər gün gərgin olur. Yuxarı sinifdə təhsil alanlar (12,9%) arasında bu mənfi tendensiya aşağı sinifdə oxuyanlarla (6,1%) müqayisədə iki dəfə yüksəkdir. Yoxsul respondentlər (22,6%) digər iki qrupa nisbətdə (orta 6,5% və yuxarı 10,8%) daha çox hər gün gərginlik keçirirlər ($X^2(8)=21.636$, $p<0.01$).

Ümumi olaraq rəyi öyrənilənlərin 66%-i heç vaxt yuxusuz qalmadığını bildirib. Bu hal yoxsullarla (56%) müqayisədə maddi durumu orta olan respondentlər (67,7%) üçün

daha xarakterikdir. Aşağı sinifdə oxuyanlar (71,3%) yuxarı sinifdə oxuyanlarla (55,2%) müqayisədə heç vaxt yuxusuz qalmadıqlarını qeyd ediblər. Kənd respondentləri (73,9%) qəsəbə və şəhər üzrə olan respondentlərlə (müvafiq olaraq 58,7% və 60,7%) müqayisədə heç vaxt yuxusuz qalmadığını daha çox qeyd edib. Eyni sayda respondent həftədə bir dəfədən çox (10,1%) və təxminən hər gün yuxusuz qalıb (10,4%). Yoxsul respondentlərin mütəmadi yuxusuzluğunu əks etdirən göstəricilər (17,9%) maddi durumu orta olanlardan (8,8%) fərqlənir. Qızların 13%-i təxminən hər gün yuxusuz qaldığı halda, oğlanlar arasında bu göstərici 7,8%-ə bərabərdir.

Rəyi öyrənilənlərin əhəmiyyətli bir hissəsi (67%) hər zaman dərsdə fikrini toplaya bilir ki, bu hal qızlar arasında nisbətən geniş yayılıb - 69,8% və 64,2%. Respondentlərin maddi vəziyyəti üzrə göstəricilərin təhlili çərçivəsində bu istiqamətdə fərq təsbit edilib. Belə ki, qeyd edilən tendensiya yuxarı gəlirli respondentlərdə 72,2% təşkil etdiyi halda, yoxsul və maddi durumu orta olanların müvafiq olaraq 48,8% və 68,2%-i hər zaman dərsdə fikrini toplaya bilir. Maraqlıdır ki, aşağı gəlirli respondentlər maddi durumu orta və yuxarı olanlarla müqayisədə daha çox dərsdə fikrini toplamaqda çətinlik çəkirlər ($X^2$ (8)=22.734, p<0.01). Hər ay, eləcə də həftədə bir dəfədən çox dərsdə fikrini toplaya bilməyən respondentlərin göstəricisi 9,3% təşkil edir. Təxminən 8,8% respondent hər həftə dərsdə fikrini toplamaqda çətinlik çəkir. Cəmi 5,6% respondent hər gün dərsdə fikrini toplamaqda çətinlik çəkir. Kənd əhalisi (72,3%) qəsəbə əhalisi (61,4%) ilə müqayisədə nadir hallarda və ya heç vaxt dərsdə fikrini toplaya bilmədiyini daha çox qeyd edib.

Bütövlükdə, respondentlər arasında əsəbilik və ya dalaşmağa meyilliliklə bağlı ictimai rəy sorğusunun nəticələrinə əsasən qeyd edə bilərik ki, mühüm bir hissədə (64,3%) qeyd edilən risk faktorları nadir hallarda baş verib və ya heç vaxt müşahidə edilməyib. Aşağı sinifdə təhsil alanlar arasında (67,3%) bu müsbət tendensiya digər təhsil qrupu (58,2%) ilə müqayisədə daha geniş yayılıb. Maddi durumu yuxarı və orta olan respondentlər bu kateqoriya üzrə 60%-dən yüksək göstərici ilə təmsil olunduğu halda, aşağı gəlirli respondentlər 53,%-lə nisbətən geridə qalır. Rəyi öyrənilənlər arasında təxminən hər gün əsəbilik və ya dalaşmağa meyilli olanların göstərici 12% təşkil edir. Qızlar (14,7%) oğlanlarla (9,4%) müqayisədə nisbətən daha çox hər gün əsəbi və ya dalaşmağa meyilli olurlar. Həftədə bir dəfədən çox əsəbi və dalaşmağa meyilli olduğunu deyənlərin göstəricisi 9,3% təşkil edir. Təxminən hər ay analoji halın baş verdiyini 8,5% respondent bildirirsə, hər həftə əsəbi və dalaşmağa meyilli olanların göstəricisi 5,9% təşkil edir.

Rəyi öyrənilənlərin əksəriyyəti (82,3%) nadir hallarda və ya heç vaxt qorxu hissi yaşamadığını deyib. Bu müsbət hal qızlardan (76,7%) fərqli olaraq oğlanlar (87,8%)

**Diaqram 53.**



üçün nisbətən daha xarakterikdir ki, əslində bu da əks cinsin nümayəndələrinin fiziki baxımdan üstünlüyünün nəticəsi olaraq özünü göstərir.

Cəmi 6,1% respondent təxminən hər ay qorxu hissi keçirdiyini bildirirsə, bunu hər gün yaşayanların göstəricisi 4,3% təşkil edir. Aşağı gəlirli respondentlərdə (10,7%) mütəmadi qorxu hissi maddi durumu orta (3,6%) və yüksək olan respondentlərdən (4,2%) fərqli olaraq yüksəkdir. Hər həftə və həftədə bir dəfədən çox qorxduğunu deyənlərin göstəricisi rəyi öyrənilənlərin cəmi 3%-dən çoxunu təşkil edir.

Sorğu çərçivəsində məktəbdə və ya dostları arasında üzərində insanlara xətər yetirə bilən alətlərin (məsələn, bıçaq, beşbarmaq və s.) gəzdirilməsi ilə bağlı suallar qrupuna respondentlərin cavablarının ümumiləşdirilməsi nəticəsində sözügedən aspekt üzrə pozitiv nəticələr təsbit edilib. Aparılan təhlillər göstərir ki, məktəbdə və ya dostları arasında üzərində insanlara xətər yetirə bilən alətlərin (məsələn, bıçaq, beşbarmaq və s.) gəzdirilməsi hallarına, demək olar ki, rast gəlinməyib. Rəyi öyrənilənlərin mütləq əksəriyyətində (92,8%) məktəbdə və ya dostları arasında üzərində insanlara xətər yetirə bilən alətlər gəzdirən şagirdlərin olmadığı təsbit edilib. Buna əks mövqedə qərarlaşanlar isə respondentlərin cəmi 7,2%-ni təşkil edir.

**Diaqram 54.**




Bununla yanaşı, rəyi öyrənilənlərin 98,7%-i insanlara xətər yetirə bilən alətləri (məsələn, bıçaq, beşbarmaq və s.) gəzdirmədiyini qeyd edib ki, əslində bu da olduqca yüksək göstərici hesab edilə bilər. Əldə edilən müsbət nəticələri şəhər üzrə olan respondentlərlə (88%) müqayisədə kənd respondentləri (96,6%) daha çox əks etdirir.

**Diaqram 55.**



# VI BÖLMƏ.

# UŞAQ HÜQUQLARI

VI.1. Azərbaycanda uşaq hüquqlarına dair mövcud vəziyyət

VI.2. Uşaq hüquqlarının milli və beynəlxalq aspektlərinə dair məlumatlılıq səviyyəsi

VI.3. Son 3 ildə uşaqlara qarşı baş verən mənfi tendensiyaların dinamikası

VI.4. Son 3 il ərzində məktəbdə fiziki xəsarətin yetirilməsi halları

VI.5. Zərərli vərdişlərə meyillilik səviyyəsi

## VI.1. Azərbaycanda uşaq hüquqlarına dair mövcud vəziyyət

Azərbaycanda insanların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər beynəlxalq hüququn dövlətdaxili implementasiyası üçün adekvat hüquqi əsas yaradan Konstitusiya və milli qanunvericilik aktları ilə tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən, uşaqların qayğısına qalmaq, onları müdafiə etmək ailənin borcudur. Ümumiyyətlə, milli səviyyədə uşaq hüquqları sahəsində 2003-cü il 17 iyun tarixdə "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", 2005-ci il 24 may tarixində "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", 2018-ci il 30 oktyabr tarixində "Uşaqların zərərli informasiyadan qorunması haqqında", 2010-cu il 24 noyabr tarixində "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" və 2013-cü il 12 aprel tarixində "Uşaqların icbari dispanserizasiyası haqqında" və s. qəbul edilmiş normativ hüquqi aktlar uşaq problemlərinin həllində mühüm rol oynamaqla yanaşı, onların sosial müdafiəsinin təminatı və təşkilinə hüquqi zəmin yaradır. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014–2020-ci illər üçün Dövlət Proqramı", 2018-ci il 10 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018–2020-ci illər üçün Milli Fəaliyyət Planı", dövlət qayğısında olan uşaqların bioloji və himayədar ailələrə verilməsi məqsədilə 2006-cı il 29 mart tarixində təsdiq edilmiş "Uşaqların dövlət uşaq müəssisələrindən ailələrə verilməsi və alternativ qayğı (De-institutlaşma) 2006-2015-ci illər üçün Dövlət Proqramı", 2020-ci il 27 fevral tarixində təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi istiqamətlərində hüquqi və institusional islahatlar" və s. sənədlər uşaq hüquqlarının reallaşdırılması ilə bağlı inkişaf və nəzarət tədbirlərini özündə ehtiva edir. Azərbaycanda dövlət uşaq siyasətinin həyata keçirilməsi və uşaqların hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin edilməsi məqsədi ilə Prezident İlham Əliyevin 2020-ci il 2 iyun tarixli Sərəncamı ilə qəbul edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası" və 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı" bu sahədə dövlət və qeyri-dövlət sektorunun aktiv fəaliyyət mexanizmlərinə və çevik prosedurlarına əsaslanmaqla uşaqların müdafiəsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsinə dair prioritetlərin davamlılığını təmin edir. Bir sözlə, uşaq hüquqlarının müdafiəsinin tənzimlənməsi ilə bağlı qanunvericilik çərçivəsinin qısa icmalı ölkəmizdə uşaq hüquqlarının effektiv müdafiəsi sahəsində daim yeni imkanlar açır. Bu xüsusda, uşaq hüquqlarının müdafiəsi istiqamətində mövcud vəziyyətə vətəndaş mövqeyi prizmasından baxış problemlərin öyrənilməsində statistik müayinələrin aparılması və müvafiq sahədə tədbirlərin səmərəliliyinin artırılması baxımından təminedici xarakter daşıyır.

Ümumi olaraq bütün uşaqların eyni hüquqa malik olduğunu düşünən respondentlər rəyi öyrənilənlərin 69,5%-ni əhatə edir. Aparılmış təhlillər qızların (74,9%) sözügedən qənaətə oğlanlarla (64,2%) müqayisədə daha çox hakim olduğunu deməyə əsas verir. Həmçinin bütün uşaqların eyni hüquqa malik olması fikri ilə aşağı siniflərdə təhsil alanlar (68,4%) yuxarı siniflərdə oxuyanlara (71,8%) nisbətən daha çox razılaşıblar. Hər iki valideyni yüksək təhsilli olan respondentlər (78,8%) ata və anası orta təhsilli respondentlərlə (68,3%) müqayisədə bütün uşaqların eyni hüquqa malik olduğunu daha çox qeyd edib.

Analoji istiqamət üzrə hər dörd respondentdən biri (22,7%) isə əks mövqedə qərarlaşıb. Belə ki, oğlan respondentlər (27,4%) əks cinsin nümayəndələri (18%) ilə müqayisədə bütün uşaqların eyni hüquqa malik olmadığını daha çox qeyd edib. Cəmi 7,8% respondent bununla bağlı

mövqeyini ifadə edə bilməyib.

Bütün uşaqların eyni hüquqlara malik olduğunu düşünən respondentlərlə “Uşaq hüquqları haqqında” Konvensiya barəsində məlumatlı olanlar arasında ciddi statistik əlaqə təsbit edilib ($X^2$ (1)=11.095,p<0.01).

Eyni zamanda, bütün uşaqların eyni hüquqlara malik olduğunu düşünən respondentlərlə “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasınının Qanunu barədə məlumatlı olanlar arasında ciddi statistik əlaqə mövcuddur ($X^2$ (1)=10.213,p<0.01).

## VI.2. Uşaq hüquqlarının milli və beynəlxalq aspektlərinə dair məlumatlılıq səviyyəsi

**Diaqram 56.**




Dünyada geniş şəkildə ratifikasiya olunan insan hüquqları aləti, xüsusilə uşaqların hüquqlarını qorumaq üçün 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilərək 1990-cı ilin 2 sentyabr tarixində qüvvəyə minən əsas baza sənədi Uşaq Hüquqları Konvensiyasıdır. Konvensiyanın əsasını dörd rəhbər prinsip təşkil edir və ümumi hüquqlar üçün tələblər sənəddə nəzərdə tutulub: ayrı-seçkiliyin olmaması, uşaqların ən yaxşı maraqları, yaşamaq və inkişaf etmək hüququ, uşağın baxışlarına hörmət edilməsi. Ümumilikdə 54 maddədən ibarət Konvensiyada bütün hüquqlar 4 qrupa ayrılır: İnkişaf hüququ – bu qrupda olan hüquqlar uşaqların öz potensiallarının tam inkişafına olan ehtiyaclarını təmin edir. Müdafiə hüququ – bu hüquqlar uşaqları müxtəlif növ zorakılıq və istismardan qorumalıdır. İştirak hüququ – bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətdə fəal iştirak etməyə imkan yaradır. Yaşamaq hüququna uşaqların yaşamaq və bunun üçün lazımi tələbatları təmin etmək hüquqları aiddir, həmçinin, qida, tibbi xidmətə malik olmaq kimi hüquqları əhatə edir.[37]

Beynəlxalq aspektdən çıxış edərək qeyd edə bilərik ki, uşaqların öz hüquqlarını bilməsi ona təsir edəcək bütün məsələlər üzrə azad şəkildə fikirlərini ifadə etməsi, müxtəlif istismar növlərindən qorunması, istirahət etməsi, asudə vaxt keçirməsi və öz mədəniyyətindən zövq alması, qanuni mənafelərini qoruması, ictimai həyatda iştirakçılığı, demokratik cəmiyyətdə məlumatlı və fəal bir vətəndaş kimi iştirak etməsi xüsusilə cəmiyyətin həm fiziki, həm də zehni cəhətdən sağlam inkişafı üçün əsas şərtdir. Uşaqların hüquqları ilə bağlı məlumatlılıq səviyyəsini özündə əks etdirən rəy sorğusunun nəticələrinin deskriptiv təhlili onu deməyə əsas verir ki, respondentlərin əhəmiyyətli hissəsi təhsil hüquqlarının (63,5%) olduğunu bildirib.

Daha detallı desək, qız respondentlər (69,2%) oğlanlarla müqayisədə (57,5%) daha çox təhsil hüquqlarının olduğunu bildirib. Maddi durumu orta olanlar (64,9%) yoxsul respondentlərlə (54,7%) müqayisədə təhsil hüquqlarının olduğunu daha çox qeyd edib. Kənddə yaşayan respondentlər (65,6%) qəsəbə respondentləri (58,3%) ilə müqayisədə analoji aspekti daha çox əks etdiriblər. Respondentlərin valideynlərinin təhsil səviyyəsi artdıqca təhsil hüquqlarının olduğunu qeyd edənlərin göstəricisi də artır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən 2019-cu il üzrə fəaliyyəti haqqında hesbatının “Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi” bölməsində gender bərabərliyinin təmin edilməsi sahəsində mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi həyata keçirilməsi zəruri tədbirlərdəndir. Dayanıqlı İnkişaf Məqsədlərinin

[37] https://www.ohchr.org/en/professionalinterest/pages/crc.aspx

təhsillə bağlı olan 4-cü məqsədində 2030-cu ilədək bütün qızların və oğlanların əlçatan və keyfiyyətli təhsil almalarını təmin etmək hədəfə alınıb. Ümumiyyətlə, Azərbaycanda 2019-cu ildə 11-ci siniflər üzrə buraxılış imtahanlarında oğlanlar 54.91%, qızlar isə 45,9 % təşkil edib. Ali təhsil müəssisələrinə qəbul olmuş oğlan və qızların dinamikası üzrə isə əsasən qızlar üstünlük təşkil edib.

Qızların təhsil hüququnun həyata keçirilməsinə bir çox maneələr olur, bunlar əsasən yoxsulluq, erkən yaşda evlilik, gender əsaslı zorakılıq (məhz qız olduğu üçün) və əsasən də cəmiyyətdə qadınların, qızların statusu ilə bağlı köhnəlmiş adət-ənənələr, stereotiplərdir. Nəticədə dünyada məktəbə getməyən uşaqların ən çoxunu, yəni üçdən ikisini (66,3%) qızlar təşkil edir. Azərbaycanda isə 15 yaşdan yuxarı qadınlar arasında təhsil göstəricisi 99,7%-dir .

Təhlillər göstərir ki, uşaqların təhsil hüquqlarının olduğunu deyən respondentlərlə ailədə onunla bağlı qərar verilərkən fikri nəzərə alınan respondentlər arasında ciddi statistik əlaqə müəyyənləşdirilib ($X^2$ (3)=18.855,p<0.01).

Sözügedən istiqamətlə əhəmiyyətli statistik əlaqə məktəbi bu və ya digər dərəcədə xoşlayan respondentlərlə təsbit edilib ($X^2$ (3)=21.953,p<0.01).

Bununla yanaşı, analoji istiqamətlə daha bir əhəmiyyətli əlaqə təhsilini 11-ci sinfə qədər davam etdirmək istəyən respondentlər arasındadır ($X^2$ (2)=25.322,p<0.01).

Təhsil hüququnun olduğunu deyənlər arasında işləməyən respondentlər daha çoxdur ($X^2$ (1)=13.866,p<0.01).

Hər dörd respondentdən biri (23%) asudə vaxtla bağlı hüquqlarının olduğunu bildirib. Bu barədə rəyə yuxarı sinifdə təhsil alanlardan (17,8%) fərqli olaraq aşağı sinifdə oxuyanlar (25,6%) nisbətən daha çox hakimdir.

Hər üç respondentdən biri iştirak hüququnu əks etdirən söz, fikir və qərarvermə azadlığının (30,6%) olduğunu düşünür. Qız respondentlər (35%) əks cinsin nümayəndələri ilə (25,9%) müqayisədə daha çox söz, fikir və qərarvermə azadlığının olduğunu düşünür. Yuxarı sinifdə oxuyanlar (36,6%) aşağı sinifdə təhsil alanlarla (27,6%) müqayisədə iştirak hüququ ilə bağlı daha çox rəyini ifadə edib. Maraqlıdır ki, maddi durumu yuxarı olanlar (35,2%) yoxsul respondentlərlə (25%) müqayisədə söz, fikir və qərarvermə azadlığı ilə bağlı hüquqlarını daha çox dilə gətirib. Analoji rəy göstəriciləri yalnız anası yüksək təhsilli olanların 38,2%-ni əhatə etdiyi halda, yalnız atası yüksək təhsilli olanlar üçün bu göstərici 23% təşkil edir.

Təhlillər bizə onu deməyə əsas verir ki, uşaqların söz, fikir, qərarvermə azadlığı hüquqlarının olduğunu deyən respondentlərlə ailədə onunla bağlı qərar verilərkən fikri nəzərə alınan respondentlər arasında ciddi statistik əlaqə mövcuddur ($X^2$ (3)=10.913,p<0.05).

Hər dörd respondentdən biri (23,8%) müdafiə, 13,7% respondent isə yaşamaq hüququnun olduğunu bildirib. Maddi durumu orta olanlar (25,2%) aşağı gəlirli respondentlərlə (18,8%) müqayisədə daha çox müdafiə ilə bağlı hüquqlarını dilə gətirib. Respondentlər arasında müdafiə hüquqlarının olduğunu düşünənlər kənd əhalisi üzrə 26,9%, şəhər əhalisi üzrə 18,9%-dir. Yalnız atası yüksək təhsilli olanlar (30,2%) müdafiə hüquqlarının olduğu fikrinə yalnız anası yüksək təhsilli olanlarla (23,6%) müqayisədə daha çox hakimdir. Respondentlərin 6,9%-i digər hüquqlarının olduğunu düşündüyü halda, hüquqlarını bilməyənlər rəyi öyrənilənlərin 10,2%-ni təşkil edir.

Hər iki sual üzrə nəticələrin təhlili onu deməyə əsas verir ki, respondentlərin əhəmiyyətli hissəsi bütün uşaqların bərabərhüquqlu olması ilə yanaşı, onların təhsil, asudə vaxt, söz, fikir, qərarvermə azadlığı və müdafiə hüquqlarının təmin olunmasının tərəfdarıdır.

Uşaqların yaşamaq, təhsil, söz, fikir, qərarvermə azadlığı, müdafiə və asudə vaxtla bağlı hüquqlarının olduğunu düşünənlərlə “Uşaq hüquqları haqqında” Konvensiya barədə məlumatlı olanlar arasında ciddi statistik əlaqə müəyyənləşdirilib ($X^2$ (7)=21.742,p<0.05).

Bununla yanaşı, uşaqların yaşamaq, təhsil, söz, fikir, qərarvermə azadlığı, müdafiə və asudə vaxtla bağlı hüquqlarının olduğunu düşünənlərlə “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu barədə

məlumatlılıq səviyyəsi yüksək olanlar arasında ciddi statistik əlaqənin olduğu təsbit edilib ($X^2$ (7)=29.756,p<0.01).

### Fokus qrupu ilə aparılan keyfiyyət sorğusunun təhlili

Müxtəlif sahələrdə təmsil olunan fokus qruplar arasında ümumi qənaət bundan ibarətdir ki, uşaqlar öz hüquqları barədə aşağı məlumatlılıq səviyyəsinə malikdir. Bunun səbəbləri kimi valideynlərin və məktəblərin bu barədə məlumatlandırma aparmaması, eləcə də övladın böyüdülməsi ilə bağlı ənənəvi fikirlərin (məsələn, “valideyn ən yaxşısını bilir”) təsiri göstərilib. Adıçəkilən məsələ ilə bağlı 8 respondentdən 7-si (müxtəlif sahələrdə təmsil edilənlər) uşaqların öz hüquqlarını demək olar ki bilmədiklərini bildirib. Bəzi fikirləri təqdim edirik:

*“Məktəb vaxtı uşaqlara müxtəlif hüquqları barədə məlumat demək olar ki, ötürülmür. Konstitusiya keçilsə də, mahiyyət etibarilə daha maraqlı olan azadlıqlar, hüquqlar onlara ötürülmür. Həyat təcrübəsində, səhv edərək bunları qazanmağa çalışırlar. Çox təəssüf ik, uşaqlara, tələbələrə bu istiqamətdə məlumatlar çox gec ötürülür. Onlar müəyyən yaşı keçdikdən sonra bu məlumatlara yiyələnə bilirlər”. /Aydın Murad/.*

*“Deyə bilərəm ki, bizdə 99 faiz hüquqları valideynlər pozur. Onlar inkişaf etməkdə olan ölkələr ailə, uşaq, qız məsələrilə bağlı Qərbə meyillidir. Bizdə isə sovetdən qalma ənənələr var. Ailə planlaması düzgün aparılmır, ailələr uşaqlarına düzgün tərbiyə mexanizmi qura bilmirlər. Şərqlə Qərbi sintez etmək istəyirlər, o da düzgün alınmır. Ailə münasibətlərində keçid dövrünü yaşayırıq. Bilmirik ki, qərbli olaq, yoxsa şərqli?” /Fərid Cəfərov/*

*“Uşaq öz hüquqlarını qorumağı bilmir" demək, mənə elə gəlir ki, səhv fikirdir, çünki uşaq nəyisə bilir, ya bilmir valideyndən öyrənir. Uşaq nəyisə bilirsə, onu valideyndən öyrənir. Uşağa valideyn öz hüququnu qorumağı öyrədir və əgər uşağa hər hansı bir psixoloji və ya fiziki şiddət göstərilirsə, demək olar ki, uşağın hüququnu ilk növbədə o pozur”. /Fərqanə Mehmanqızı/.*

Sorğuda iştirak edən bağça müdirləri isə (2 nəfər) uşaq hüquqlarını uşaqların özlərinə bağçada olduqları müddət ərzində izah etdiklərini bildiriblər. Narahatedici məqam bundan ibarətdir ki, respondentlər yekdilliklə bu qənaətdədir ki, hüquqlarını bilən uşaqlar bunu tələb etdikdə, yaxud hüquqlarını icra etmək istədikdə problemlərlə rastlaşırlar. Vəkil olaraq çalışan respondent bildirib ki, şəxsi təcrübəsinə əsasən, uşaqların az bir qismi qaynar xəttə müraciət edir, ancaq həmin müraciətlər əsasında hər hansı tədbir görülmür. Respondentin dili ilə desək, belə hallarda, adətən, “qanun işləmir”.

Dövlətlərin yurisdiksiyasının şamil olunduğu ərazilərdə bütün uşaqların hüquq və azadlıqlarını təmin etməklə bağlı beynəlxalq standartları təsdiqləyən “Uşaq hüquqları haqqında” Konvensiya barəsində məlumatlılıq səviyyəsi ilə bağlı sualların təhlili əhəmiyyətli nəticələr çıxarmağa imkan verir. Respondentlərin təxminən yarıya yaxını (45,3%) Konvensiya barədə məlumatlı olduğu halda, bunun əksinə olaraq qeyd edilən beynəlxalq sənəd haqqında məlumatsız olanlar ümumi rəyi öyrənilənlərin 54,7%-ni təşkil edir. Məlumatlılıq səviyyəsinə görə qızlar oğlanlardan müəyyən qədər öndədir - 50,5% və 40,2%. Yuxarı gəlirli respondentlərin (50,5%) məlumatlılıq səviyyəsi aşağı gəlirli respondentlərlə (42,9%) müqayisədə nisbətən yüksəkdir. Hər iki valideyni yüksək təhsilli olan respondentlər (54,1%) həm atası, həm də anası orta təhsilli respondentlərlə (41,3%) müqayisədə bu barədə daha çox məlumatlıdır ($X^2$(2)=8.066, p<0.05).

**Diaqram 57.**



Konvensiya haqqında məlumatlı olan 45,3% respondentin əhəmiyyətli hissəsi (63,4%) qeyd edilən beynəlxalq sənədin mahiyyəti ilə bağlı bilgi sahibidir. Aparılmış təhlillər bizə onu deməyə əsas verir ki, qızların (69,9%) bu haqda məlumatlılıq səviyyəsi əks cinsin nümayəndələrindən (55,2%) nisbətən yüksəkdir. Yuxarı gəlirli respondentlər (66,4%) aşağı gəlirli qrupu təmsil edənlərlə (50%) müqayisədə Konvensiyanın mahiyyəti barədə daha çox məlumatlıdır. Yalnız bir valideyni yüksək təhsilli olanlar (yalnız anası 71,2%, yalnız atası 74%) hər iki valideyni orta təhsilli olanlarla (63,8%) müqayisədə Konvensiyanın nə haqqında olduğunu daha yaxşı bilir ($X^2(2)=8.066, p<0.05$).

Hər üç respondentdən biri (36,6%) Konvensiyanın mahiyyətinə dair məlumatının olmadığını bildirib.

Bu istiqamət üzrə nəticələrin təhlili onu deməyə əsas verir ki, respondentlərin əhəmiyyətli hissəsinin Konvensiya ilə bağlı məlumatının olmaması beynəlxalq qanunvericiliyə dair maarifləndirmə tədbirlərinin genişləndirilməsini zərurətə çevirir.

**Diaqram 58.**




Analoji təsbiti “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu barədə məlumatlılıq səviyyəsini özündə əks etdirən suala göstərilən münasibətə də şamil etmək olar. Respondentlərin 52,6%-i uşaq hüquqları haqqında yerli qanunvericiliklə bağlı məlumatlı olduğunu bildirsə də, bu barədə məlumatsız kəsim rəyi öyrənilənlərin 47,4%-ni təşkil edir. Daha detallı xarakterizə etsək, aşağı sinifdə təhsil alanlar (49,8%) məlumatlılıq səviyyəsinə görə yuxarı sinifdə oxuyanlarla (58,2%) müqayisədə nisbətən geri qalırlar. Yuxarı gəlirli respondentlərin (56,6%) məlumatlılıq səviyyəsi aşağı gəlirli respondentlərlə (45,2%) müqayisədə yüksəkdir. Yalnız anası yüksək təhsilli olan respondentlər (60,3%) hər iki valideyni orta təhsilli respondentlərdən (50,5%) fərqli olaraq yerli qanunvericilik barədə daha çox məlumatlıdır.

**Diaqram 59.**




Uşaq hüquqları haqqında yerli qanunvericiliyin hüquqi mahiyyətinə dair məlumatlılığı əks etdirən suallara respondent cavablarını ümumiləşdirsək, aşağıdakı nəticələrə gələ bilərik: “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu barədə məlumatlı olan 52,6% respondentin yarıdan çoxu (53,7%) onun nə haqqında olduğunu bilsə də, 46,3% respondent bu barədə hər hansı bilgi sahibi deyil. Qızların uşaqlara dair beynəlxalq qanunvericiliklə yanaşı, yerli qanunvericiliyə dair məlumatlılığı oğlanlarla müqayisədə daha yüksəkdir - 63,1% və 44%. Müvafiq istiqamətdə məlumatlılıq səviyyəsi yuxarı gəlirli respondentlərdə (59,2%) aşağı gəlirli respondentlərlə (50%) müqayisədə yüksəkdir. Yalnız anası yüksək təhsillilər (61,4%) hər iki valideyni orta təhsillilərlə müqayisədə uşaq hüquqlarına dair yerli qanunvericiliyin mahiyyəti barədə daha çox məlumatlıdır. Qəsəbə üzrə olan respondentlərin müvafiq istiqamətdə məlumatlılıq səviyyəsi (69,8%) şəhər respondentləri (58,8%) ilə müqayisədə daha yüksəkdir.

Yerli və beynəlxalq qanunvericiliyə dair məlumatlılıq səviyyəsi ilə bağlı təhlillərə əsasən qeyd edə bilərik ki, ailədə hər iki valideynin yüksək təhsilli olması uşaqların sözügedən istiqamətdə elmi təfəkkürünün inkişafına, bilik səviyyəsinə, düşüncə tərzinə təsiri ilə birbaşa əlaqəyə malikdir.

**Diaqram 60.**




Rəyi öyrənilənlərin 62,2%-i məktəbdə onun hüquqları haqqında məlumat verilən fənnin tədris olunduğunu qeyd etdiyi halda, hər dörd respondentdən biri (29,7%) əks mövqedə qərarlaşıb. Aparılan təhlillər göstərir ki, qızların 66,3%-i, oğlanların 58,2%-i məktəbdə onların hüquqları haqqında məlumat verilən fənnin tədris olunduğunu bildirib. Yuxarı sinifdə təhsil alanlarla (58,7%) müqayisədə aşağı sinifdə oxuyanlar (64%) məktəbdə onların hüquqlarının daha çox tədris olunduğunu bildirib. Maraqlıdır ki, yuxarı gəlirli respondentlər (66%) aşağı gəlirli qrupla (54,8%) müqayisədə məktəbdə onların hüquqlarını tədris edən fənnin olması fikri ilə daha çox razılaşır.

Cəmi 8,1% respondent məktəbdə hüquqlarından bəhs edən fənnin tədrisinə dair sualın cavabını bilməyib. Yalnız anası yüksək təhsilli olanlar (34,2%) yalnız atası yüksək təhsilli olanlarla (24,5%) müqayisədə daha çox əks mövqeni bölüşüblər.

Sözügedən kontekstdə məktəbdə hüquqları haqqında məlumat verilən fənnin tədris olunduğunu deyənlərlə əhəmiyyətli statistik əlaqənin olduğu istiqamət kimi bu barədə məlumatı müəllimlərdən əldə edənlər çıxış etməkdədir ($X^2$ (2)=120.099,p<0.01).

**Diaqram 61.**




Sorğu çərçivəsində uşaq hüquqları ilə bağlı məlumatlandırma istiqaməti üzrə göstəricilərin yüksək səviyyədə olduğu təsbit edilib. Müvafiq olaraq müəllimlərdən məlumat alanlar rəyi öyrənilənlərin 78,9%-ni, valideynlərindən məlumat alanlar 43,4%-ni təşkil edir. Təhlillər göstərir ki, yuxarı gəlirli respondentlər (47%) aşağı gəlirli qrupla (37,7%) müqayisədə hüquqları ilə bağlı daha çox valideynlərindən məlumat alırlar. Bu istiqamət üzrə aşağı sinifdə təhsil alanlar yuxarı sinifdə oxuyanlardan fərqlənir - 81.1% və 74,6%. Həmçinin qızlar (84,2%) oğlanlarla (73,1%) müqayisədə öz hüquqları ilə bağlı müəllimlərdən daha çox məlumat əldə edirlər. Yalnız atası yüksək təhsili olanlar (86,8%) yalnız anası yüksək təhsilli olanlarla müqayisədə hüquqları barədə müəllimlərdən daha çox məlumat alırlar.

Digər məlumat əldəetmə istiqamətləri üzrə sonrakı yerlərdə müvafiq olaraq televiziya (38,8%) və sosial şəbəkələr (29,6%) qərarlaşır. Oğlanlar qızlarla müqayisədə bu barədə daha çox televiziyadan məlumat əldə edirlər - 42,6% və 35,1%. Yalnız anası yüksək təhsilli olanlar (44,2%) yalnız atası yüksək təhsilli olanlardan (33%) fərqli olaraq hüquqları ilə bağlı məlumatları daha çox televiziyadan əldə edirlər. Kənd üzrə olan respondentlər (42,6%) öz hüquqları barədə məlumatları şəhər respondentlərinə (34,5%) nisbətdə daha çox televiziyadan əldə edirlər.

**Diaqram 62.**




Müvafiq olaraq kitablardan məlumat əldə edənlər respondentlərin 27,6%-ni, məktəbdə keçirilən tədbirlərdən məlumat alanlar isə 21,3%-ni təşkil edir. Qızlar öz hüquqları ilə bağlı məlumatları oğlanlarla müqayisədə daha çox kitablardan əldə edirlər - müvafiq olaraq 33% və 21,8%. Kənddə yaşayan respondentlər (32,5%) öz hüquqları barədə məlumatı şəhər respondentlərindən (24,9%) fərqli olaraq daha çox kitablardan əldə edirlər.

### VI.3. Son 3 ildə uşaqlara qarşı baş verən mənfi tendensiyaların dinamikası

Sorğu çərçivəsində respondentlərin 77,9%-i son 3 ildə ona qarşı hər hansı mənfi halla qarşılaşmadığını deyib. Bu fikri səsləndirənlər arasında oğlanlar qızlara nisbətdə azlıq təşkil edir - 72,4% və 83,5%. Ümumilikdə, bu müsbət tendensiya yoxsullarla müqayisədə maddi durumu orta olanlarda daha çox müşahidə edilir.

Ümumi olaraq məktəbdə və ya ailədə müşahidə edilən mənfi hallar əsas etibarilə aşağıdakı istiqamətlərdə özünü açıq şəkildə büruzə verir: “hər hansı cəhətimə görə digər uşaqlar mənə sataşıblar” (7,1%), “mənə aid əşya oğurlanıb” (6,9%), “bəzi hallarda valideynlərimlə razılaşmadığıma görə məni döyəcəkləri ilə bağlı xəbərdarlıq ediblər” (4,5%), “məktəbdə uşaqlar mənə qarşı fiziki güc tətbiq ediblər” və “valideynlərim/ailə üzvlərim mənə davamlı qışqırırlar, hədələyirlər” (3,9%) və s.

Respondentlərin bu kimi hallarda hüquqlarının bərpası ilə bağlı mövqeyi məyusedici xarakter daşıyır. Belə ki, məktəbdə və ya ailədə hüquqları müxtəlif formalarda pozulan 36,1% respondentin 83,1%-i bu barədə kiməsə və ya harasa müraciət etməyib. Bu mənfi tendensiya hər iki cinsin nümayəndələri arasında yüksək göstəriciyə malikdir (80%-dən çox). Ümumi olaraq bu istiqamətdə göstəriciləri uşaqların öz hüquqları ilə bağlı məlumatlılığı, eləcə də özlərinin hüquqlarının müdafiəsi sahəsində və ictimai həyatda iştirakçılığı kontekstindən olduqca neqativ tendensiya kimi xarakterizə etmək olar.

Ümumilikdə 16,9% respondent pozulan hüquqlarının bərpası istiqamətində addımlar atdığını bildirib. Daha detallı qeyd etsək, hər iki valideyni yüksək təhsilli olanlar (23%) yalnız atası yüksək təhsilli olanlarla (7,7%) və hər iki valideyni orta təhsilli olanlarla (12,9%) müqayisədə daha çox pozulan hüquqlarını bərpa etməyə

**Diaqram 63.**




çalışıb ($X^2(2)=6.092$, $p<0.05$). Aşağı gəlirli respondentlərdən (16,3%) fərqli olaraq yuxarı gəlirli respondentlər (25%) pozulan hüquqlarını bərpa etmək üçün daha çox kiməsə və ya harasa müraciət edib.

**Diaqram 64.**




Respondentlərin bu kimi hallarda müraciətlərlə bağlı cavabları maraqlı nəticələr doğurub. Belə ki, respondentlərin yarıdan çoxu (58,3%) bu kimi hallarda ailəsinə, 34,5%-i məktəb heyətinə (müəllim, direktor müavini, direktor) müraciət etdiyini bildirib. Cəmi 8,3% respondent bu kimi hallarda polisə, 7,1% respondent isə digər yerlərə müraciət edib.

Sorğunun nəticələrinin deskriptiv təhlili göstərir ki, respondentlərin yarısı (50,6%) hüquqları pozulanda hara müraciət edəcəyini bildiyi halda, əhəmiyyətli hissə (49,4%) bu barədə əks mövqedə qərarlaşıb. Daha detallı desək, hər iki valideyni yüksək təhsilli olan respondentlər (58,8%) hər iki valideyni orta təhsilli respondentlərlə (48,4%) müqayisədə hüquqları pozulanda hara müraciət edəcəyinə dair daha çox məlumatlıdır. ($X^2(2)=7.636$, $p<0.05$). Göründüyü kimi, ailədə hər iki valideynin yüksək təhsilli olması uşaqların pozulan hüquqlarının bərpa olunması istiqamətinə də nəzərəçarpacaq təsirini göstərib. Şəhərdə yaşayan respondentlərin (56,6%) qəsəbə və kənd respondentləri (47%) ilə müqayisədə bu kimi hallarla bağlı məlumatlılıq səviyyəsi daha yüksəkdir ($X^2(2)=10.373$, $p<0.01$).

**Diaqram 65.**



Respondentlərin pozulan hüquqlarının bərpası istiqamətində aidiyyəti qurumlara müraciəti ilə bağlı məlumatlılıq səviyyəsinin öyrənilməsi sözügedən aspektdən mühüm əhəmiyyət kəsb edir. Aparılan təhlillər bizə onu deməyə əsas verir ki, 50,2% respondent bu kimi hallarda polis, məhkəmə və hüquqi şəxslərə üz tutacağını qeyd edib. Oğlanlar (56,5%) qızlarla (43,7%) müqayisədə bu kimi hallarda daha çox polis, məhkəmə və hüquqi şəxslərə müraciət edəcəklərini bildiriblər. Aşağı sinifdə təhsil alanlarla (46,2%) müqayisədə yuxarı sinifdə oxuyanlar (57,9%) bu kimi hallarda daha çox analoji strukturlara müraciət edəcəklərini bildiriblər. Hər iki valideyni yüksək təhsilli olanlar (54%) yalnız atası yüksək təhsilli olanlarla (16,7%) müqayisədə bu kimi hallarda daha çox polis, məhkəmə və hüquqi şəxslərə üz tutacağını deyib.

Ümumi olaraq hüquqları pozulan zaman aidiyyəti dövlət qurumlarına 23,4% respondent müraciət edəcəyini bildirib. Qızların 28,5%-i, oğlanlarin isə 18,6%-i bu kimi hallarda aidiyyəti dövlət qurumlarına üz tutacağını deyib. Bu istiqamətdə göstəricilərin aşağı olması sözügedən qurumların müvafiq sahədə fəaliyyəti ilə bağlı məlumatsızlıqdan irəli gələ bilər.

16,3% respondent bu kimi hallarda ailə üzvlərinə, 12,6% respondent isə məktəb heyətinə müraciət edəcəyini bildirib. Yoxsul respondentlər (27,5%) maddi durumu orta və yuxarı olan respondentlərlə (müvafiq olaraq 17,1% və 10,7%) müqayisədə pozulan hüquqlarının bərpası üçün daha çox ailə üzvlərinə müraciət edəcəklərini bildirib. Aşağı sinifdə təhsil alan respondentlər (14,9%) yuxarı sinifdə oxuyan respondentlərlə (8,3%) müqayisədə bu kimi hallarda daha çox məktəb heyətinə müraciət edəcəyini bildirib. Cəmi 3,9% respondent bu sualın cavabını bilməyib.

### VI.4. Son 3 il ərzində məktəbdə fiziki xəsarətin yetirilməsi halları

Ölkəmizdə uşaq hüquqlarının təmin edilməsi və müdafiəsi beynəlxalq hüququn qəbul olunmuş prinsipləri ilə yanaşı, normativ-hüquqi aktlarına əsaslanır. Əksər ölkələrin ədliyyə sistemləri üçün prioritet məqamlardan biri qanun pozuntularına yol verən və cinayət törətmiş azyaşlıların və yetkinlik yaşına çatmayan şəxslərin mühakimə sisteminin təşkili məsələsidir. Kriminologiya elmi azyaşlıların ədliyyə sistemi və hüquq-mühafizə orqanlarının əməkdaşları ilə təmasdan mümkün qədər uzaq olmasını tələb edir. Çünki qanun pozuntusu törədən azyaşlıların polis məntəqəsinə gətirilməsi, məhkəmə qarşısına çıxarılması, hətta polis məntəqəsinə gətirilən azyaşlıların zorakı rəftara məruz qalmaları ehtimalı onların uzunmüddətli psixoloji travma və psixofizioloji zədələr almasına səbəb ola bilər. Qanun pozuntularına yol verən və cinayət törətmiş azyaşlıların və yetkinlik yaşına çatmayan şəxslərin mühakimə sisteminin təşkili məsələsində qeyd edilən risk faktorları özlüyündə ədliyyə sistemində yeni yanaşmaları zurərətə çevirir. Uşaqların ehtiyacları və hüquqları, eləcə də cəzanın prinsipləri arasında balansı hədəfləyən yuvenal ədliyyə bu sahədə ən unikal sistem hesab edilir. Yuvenal ədliyyədə əsasən iki yanaşma mövcuddur - cəzalandırma və rifah. Rifah modelində əsas məqsəd sosial-psixoloji ehtiyaclarının təminatıdırsa, digər yanaşmada əsas prinsip şəxsin məsuliyyətə cəlb olunması və cəzalandırılmasıdır. Bu baxımdan yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın, deviantlığın və kriminal xarakterli əməllərə meyilliliyin azaldılması üçün Azərbaycanda yuvenal ədliyyə sisteminə tam keçid olduqca vacibdir. Ölkəmizdə yetkinlik yaşına çatmayan, qanunla münaqişədə olan uşaqların mühakimə prosesinə sosial işçilərin, psixoloqların və hüquq mühafizəçilərinin cəlb olunması mexanizmlərində çatışmazlıqların aradan qaldırılması, ədalətli mühakimə sistemini ərsəyə gətirmək üçün dövlət qurumlarının işinin birgə təşkil edilməsi risk qrupları ilə sosial inteqrasiya işinin təşkilini, şəffaf və səmərəli mühakimə sisteminə keçidi sürətləndirə bilər.

Sorğunun nəticələrinə əsasən, son 3 il ərzində məktəbdə şagirdlərə qarşı fiziki xəsarətlərin yetirilməsi (döymək, hər hansı əşya ilə vurmaq) ilə bağlı respondentlərin mövqeyi ölkə üzrə məktəblərdə ümumi davranış qaydaları ilə bağlı vəziyyətə obyektiv qiymət verməyə imkan verir. Belə ki, respondentlərin 84,1%-i son 3 il ərzində məktəbdə digər şagirdlərə qarşı kobud davranmadığını bildirib. Bu müsbət göstəricilər üzrə qızlar (92,2%) əks cinsin nümayəndlərindən (76%) daha öndədir. Maddi durumu orta olan respondentlər analoji istiqamətdə (86%) aşağı gəlirli qrupu təmsil edənlərlə (71,4%) müqayisədə daha yüksək mövqe nümayiş etdiriblər.

Cəmi 9,1% respondent son 3 il ərzində nadir hallarda məktəbdə digər şagirdlərə qarşı fiziki xəsarət yetirdiyini bildirib ki, bu mənfi tendensiya qızlara (4%) nisbətdə oğlanlar arasında (14,1%) 3 dəfə geniş yayılıb.

Məktəb yoldaşlarını son 3 ildə bir neçə dəfə döydüyünü və ya hər hansı əşya ilə vurduğunu qeyd edən respondentlərin göstəricisi cəmi 4,7% təşkil edib. Qızlardan fərqli olaraq oğlanlar arasında bu hal nisbətən geniş yayılıb - 6,8% və 2,5%. Digər şagirdlərə qarşı tez-tez fiziki xəsarət yetirənlər respondentlərin heç 1%-ni belə təşkil etmir ki, bu da olduqca müsbət tendensiyadır.

**Diaqram 66.**




## Fokus qrupu ilə aparılan keyfiyyət sorğusunun təhlili

Vəkil və hüquqşünaslar, bir ictimai birliyin sədri və uşaq hüquqları üzrə mütəxəssisə ünvanlanan suallar vasitəsilə Azərbaycanda azyaşlılar və yeniyetmələrin qanun pozuntusuna ədalət-mühakimə sisteminin münasibəti öyrənilib. Başqa sözlə, qanun pozuntusunda ittiham edilən azyaşlılar və yeniyetmələrin ədalət-mühakimə sistemi ilə bağlı təcrübəsi soruşulub. İlk olaraq, bütün respondentlər (4 nəfər) yekdilliklə ölkəmizdə yuvenal ədliyyə sisteminin natamam olduğunu və işlək olmadığını bildirib. Daha dəqiq desək, qanunvericilik cəhətdən ciddi problemin olmadığını düşünən respondentlər əsas çatışmazlığı praktikada görürlər. Hüquqşünas olaraq çalışan bir respondent, eləcə də ictimai birliyin sədri olan digər müsahib təcrübələrini bölüşərək, Bakı Ağır Cinayətlər Məhkəməsində və bəzi polis idarələrində uşaq otaqlarının olduğunu müsbət təcrübə kimi nümunə gətirsələr də, bunun Azərbaycan üçün keçərli olmadığını bildiriblər. Başqa sözlə, uşaq otaqları yalnız azsaylı məhkəmə və idarələrdə mövcuddur.

İştirakçılar arasında yuvenal ədliyyə sisteminin əlamətlərinin mövcud olduğu yerlərdə isə kadr çatışmazlığı probleminin olduğu vurğulanıb. Uşaq hüquqları üzrə mütəxəssis qanunu pozan azyaşlılar və yeniyetmələrlə işləməli olan kadrlarla bağlı belə fikir səsləndirib ki, onların ümumi olaraq hazırlıq səviyyəsi aşağıdır. Belə ki, xüsusilə yetkinlik yaşına çatmayanlarla işin təşkili bölmələrində daha çox gənc kadrların çalışdığını bildirən mütəxəssis həmin kadrların, adətən, digər vəzifələrə keçmək üçün həmin bölmələrdə müvəqqəti olaraq fəaliyyət göstərməkdə maraqlı olduqlarını nəzərə çatdırıb. İctimai birliyin sədri olan respondent isə belə fikirdədir:

*“Uşaqlarla işləməyə uyğun emosional-psixoloji davranış baxımından, dövlət qurumlarında kadr bazasının, təəssüf ki, çox az faizinin lazımi potensiala malik olduğu aydındır”.*

Respondentlərdən yalnız biri isə şəxsi təcrübəsində məhkəmə prosesləri zamanı uşaqların işləri ilə bağlı daxil olan qovluqlarda hüquq pozuntusu və ya cinayət əməli törətmiş uşaqların sosial-psixoloji qiymətləndirilməsində problemlər olduğunu müşahidə etdiyini deyib. İctimai birliyin sədri olan respondent fikrini belə ifadə edib.

*“Uşaqların sosial-psixoloji qiymətləndirilməsinə dair ətraflı sənədlərə, uşağı əməli törətməyə vadar edən səbəblər, hansı sosial-psixoloji vəziyyət daxilində onu həyata keçirməsinə dair detallı təhlillərə yer verilmir”.*

Həm ictimai birliyin sədri, həm də uşaq hüquqları üzrə mütəxəssis yuvenal ədliyyə ilə bağlı təkliflər səsləndirib. İctimai birliyin sədri yuvenal ədliyyə əsasında uşaq istintaqının ayrıca fəaliyyət göstərməsini təklif edib. Digər respondentin fikirləri isə aşağıda təqdim edilib.

*“Bu mövzuda biz təkliflər yönləndirərkən qeyd etmişdik ki, azyaşlının hüquqi dindirilməsi zamanı birbaşa dindirilmə və ya kənar izləmə otağında əyləşən psixoloqlar tərəfindən də müşahidə aparılsın”. /Dadaş Əhmədov/*

*"Təkliflərimizə əsasən həmin sahədə çalışanların qızlardan ibarət olması daha məqsədəuyğun hesab edilməlidir. Çünki onların uşaqlarla ünsiyyət səviyyəsi nisbətən daha adekvat olur. Təəssüf ki, bu istiqamətdə ölkə üzrə məhdud sayda qız işçilər fəaliyyət göstərir. Xüsusilə, qız polis işçilərinin sayının çox olması məqsədəuyğundur. İcra hakimiyyəti orqanlarında yetkinlik yaşına çatmayanlarla iş və onların hüquqlarının müdafiəsi üzrə komissiyalar fəaliyyət göstərir. Bu komissiyaların rəhbəri vəzifəsini, adətən, icra başçılarının müavinləri icra edir. Əslində, geniş səlahiyyətə malik bu komissiyaları yalnız iki nəfər işçi təmsil edir. Məsul katib və məsləhətçi psixoloqdan ibarət komissiyada, adətən, başqa sahələrdən gələn təsadüfi şəxslər işçi qismində rəsmiləşdirilərək fəaliyyət göstərirlər. Yaxşı olardı ki, bu sahədə ştat vahidləri artırılsın və orada peşəkar psixoloqlar, həmçinin uşaqlarla asan ünsiyyət qurmaları baxımından qızlardan ibarət əməkdaşlar işləsinlər. Burada, əlbəttə ki, maaş amili və lazımi maddi-texniki baza, uzaq məsafələrə olan səfərlər üçün nəzərdə tutulan daimi nəqliyyatla təmin olunma məsələləri də mütləq diqqətdə saxlanılmalıdır”. /Dadaş Əhmədov/*

Mövcud ədalət-mühakimə sistemində qanun pozuntusu törətmiş azyaşlılar və yeniyetmələr hansı cəzalara məruz qalırlar? Uşaq hüquqları üzrə mütəxəssis qanun pozuntusunun ciddi olmadığı hallarda həmin şəxslər barədə həbs-qəti imkan tədbirinin seçilmədiyini bildirib.

Yuvenal ədliyyə ilə bağlı suallardan biri isə qanun pozuntusu törətmiş yeniyetmələr və azyaşlıların cəmiyyətə inteqrasiyası prosesinə dair olub. Bu məsələdə səsləndirilən fikirlər yetkin yaşda olan məhbusların üzləşdiyi problemlərin qanun pozuntusu törətmiş yeniyetmələr və azyaşlılar üçün də böyük ölçüdə keçərli olduğunu göstərir.

Ümumlilikdə rəylərin təhlilinə əsasən onu qeyd edə bilərik ki, ən önəmli məqsədlərindən biri də yetkinlik yaşına çatmayanlara münasibətdə azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlərin tətbiq edilməsinə daha çox nail olmaq olan Yuvenal Ədliyyə Konsepsiyasına tam keçidin təmin olunmaması həm də yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın olduqca aşağı səviyyədə olması ilə əlaqədardır.

*“Hətta sovet dövründə cinayət törətmiş şəxslərin cəmiyyətə inteqrasiyası ilə bağlı istər polis, istərsə də müvafiq icra qurumlarında mütəxəssislərin onlarla məşğul olma praktikası mövcud idi. Təəssüf ki, hal-hazırda həmin uğurlu praktikaların tətbiqinə ölkəmizdə ciddi yanaşılmır”. /Dadaş Əhmədov/*

*“Bəzən elə hallar olur ki, cəzaçəkmə müddəti bitdikdən sonra törədilən əməlin motivindən asılı olaraq cəmiyyətə qayıdan azyaşlı və ya yeniyetmə öz ailəsinə və ya yaşadığı əraziyə geri*

*dönə bilmir. Burada ailədə, cəmiyyətdə, yaxud əməlin törədildiyi yerdə onun bağışlanması, qəbul olunması ilə bağlı çətinliklər baş verə bilir". /Kəmalə Aşumova/*

Yuvenal ədliyyə sisteminin təşkili beynəlxalq sənədlərdə 1980-ci illərdən etibarən əks olunsa da, tarixdə ilk dəfə yuvenal məhkəmə 2 iyul 1899-cu ildə ABŞ-ın Çikaqo ştatında yaranıb. ABŞ Yuvenal Ədliyyə Sisteminin əsas məqsəd və prinsiplərindən biri yetkinlik yaşına çatmayanların ədalətli mühakiməsi ilə birgə onların şəxsi inkişafını və proqnozlaşdırılan risklərin minimuma endirilməsini təmin etməkdir. ABŞ-da 675-ə yaxın yuvenal məhkəmə fəaliyyət göstərir və onların əsas məqsədi gəncləri problemli davranışa görə məsuliyyətə cəlb etmək, hüquq sistemlərinə öyrətmək və öz cəmiyyətindəki problemlərin həllində fəal iştirak etməyə imkan yaratmaqdır. ABŞ-da yuvenal məhkəmə proqramları yetkinlik yaşına çatmayanların yoxlama şöbələri, hüquq-mühafizə orqanları, özəl və qeyri-kommersiya təşkilatları, həmçinin məktəblər tərəfindən həyata keçirilə bilər. ABŞ-ın yuvenal ədliyyə sisteminin maraqlı cəhətlərindən biri də təqsirləndirilən, yaxud cinayət törətmə ehtimalı yüksək olan azyaşlılara tətbiq edilə bilən xüsusi müalicə proqramlarıdır. Bu qəbildən olan proqramlara posttravmatik stress pozuntusu, koqnitiv davranış terapiyası, multisistemik müdaxilələr aiddir. Multisistemik müdaxilə xidməti azyaşlının özü ilə yanaşı, ailə şəraitini də nəzərə alaraq müvafiq peşəkarlar vasitəsilə (məsələn, sosial işçilər, psixiatrlar, həkimlər və s.) deviant davranışa səbəb olan problemlərin həllinə çalışır. Bərpaedici ədalət praktikası təkcə cinayətkarın cəzalandırması prosesi ilə məhdudlaşmır, zərərçəkənlərin reabilitasiyasını da əhatə edir. ABŞ-da Gənclərin Müsbət İnkişafı proqramı yuvenal ədliyyə sistemində yer alan, risk qrupuna daxil olan gənclərin və yeniyetmələrin inkişafına təkan verən xüsusi islahat proqramıdır. İnkişaf proqramına minimum risk daşıyan, daha yüngül cinayətlərdə və qanun pozuntularında ittiham olunan gənclər cəlb olunur. Proqramın yuvenal ədliyyə sisteminə inteqrasiyası sosial təlim və sosial nəzarət nəzəriyyəsinə əsaslanır.

İngiltərə və Uelsin kriminal qanunvericiliyinə əsasən hüquq pozuntusunda və cinayət törətməkdə təqsirli bilinən yetkinlik yaşına çatmayan şəxslər yuvenal məhkəmədə mühakimə olunur və onlar haqqında qərarlar qəbul olunur. Belə ki, cinayət xarakterli əməl törətmiş 10-18 yaş aralığında şəxslər polis məntəqəsinə valideyn, mühafizəçi və yuvenal rifahın təminatında cavabdeh digər statuslu şəxslərin müşayiəti ilə aparılır. Əgər uşağın valideyni yoxdursa, qəyyumu və himayədarı ilə birlikdə polis məntəqəsinə aparılmalıdır. Polis məntəqəsində təqsirli bilinən azyaşlı ilə sadəcə onun razılığı əsasında sorğu prosesi aparıla və hesabat yazıla bilər. Sorğu prosesi o zaman təxirə salınır ki, azyaşlının mental və fiziki durumu buna imkan vermir və ya o affekt vəziyyətdədir. İngiltərə və Uelsdə yuvenal məhkəmə qanunvericiliyi digər ölkələrə nisbətən fərqlidir. Belə ki, burada yetkinlik yaşına çatmayanların törətdiyi əməllərin ağırlığı və yüngüllüyündən asılı olaraq müvafiq cəza tədbirləri görülür. Xüsusilə də 18 yaşından aşağı olmasına baxmayaraq uşaq pornoqrafiyasında, seksual zorakılıqda təqsirkar bilinən yetkinlik yaşına çatmayanlar Ali Məhkəmə tərəfindən mühakimə edilir. Bu sistemin özünəməxsusluğu onunla səciyyələnir ki, burada məhkəmə icraat prosesi yekunlaşdıqdan sonra gələcək riskləri minimuma endirmək məqsədilə uşaqlarla birgə reinteqrasiya tədbirləri aparılır. Bu islahatlar məsuliyyətə cəlb olunmuş yetkinlik yaşına çatmayanlara müxtəlif statuslu orderlər verməklə baş tutur. Orderlərin hər birinin özünəməxsus icra planı və müddəaları mövcuddur: Nəzarət orderi 3 il müddətinədək verilə bilər. Bu nəzarət sisteminin məqsədi yeniyetməni sosiallaşma proseslərinə cəlb etmək və inteqrasiyasını təşkil etməkdir. Bu bərpa sistemində aparıcı rolu sosial işçilər və psixoloqlar oynayır. Onların əsas məqsədi yeniyetmənin psixi

sağlamlığını kənar amillərdən qorumaq və korreksiya etmək, təlim-tərbiyə işlərinə cəlb etmək və uğurlu şəxsiyyətə çevirməkdir. Məhdudlaşdırılmış vaxt orderi - şərait nəzərə alınmaqla nisbətən riskli hesab olunan yeniyetmələrə verilir. Bu orderlə şəxsin hərəkəti və əlavə hüquqları qismən məhdudlaşdırılır. Məsələn, o, yalnız müəyyən saatlarda yaşadığı yeri tərk edə bilər. Orderin qüvvədə qalma müddəti 6 aya qədər uzana bilər. İzolyasiya orderi - yetkinlik yaşına çatmayanları təhlükəli situasiyalardan və residivizmə səbəb ola biləcək riskli şəraitlərdən təcrid edən nəzarət sistemidir.

Şotlandiyada cinayət törətməkdə ittiham edilən azyaşlıların məhkəmə dinləməsi ictimaiyyətə qapalı şəkildə, bir sıra steykholderlərin iştirakı ilə keçirilir. Həmin steykholderlərə ittiham edilən şəxsin özü və valideynləri, sosial işçi, hüquqşünas, yaxud vəkil və ehtiyac yarandıqda, pedaqoq və psixoloq da daxil edilir. Məhkəmə dinləməsi üç formada nəticələnə bilər: işə xitam verilmə; yaşadığı mənzildə nəzarət altına alınma və xüsusi müəssisədə nəzarət altına alınma. Beləliklə, şəxs 12 yaşdan yuxarı olub, ağır dərəcəli cinayət törətmədikcə onun azadlıqdan məhrum edilməsi mümkün deyil. Dinləmədəki uşaqlar panelində hüquq-mühafizə orqanı əməkdaşı təmsil edilmir. Hərçənd bura göndərilən məhkəmə işlərinin və müttəhimlərin 75%-i məhz polis və prokurorlar tərəfindən göndərilir. Ümumiyyətlə, azyaşlıların qeyri-ədliyyə mühitində saxlanılması ilə deviant davranışlarına səbəb olan problemlərin həlli daha effektiv olub, gələcək residivizmin ehtimalını da azaldır.

Avstraliyada yuvenal ədliyyə sisteminin təşkili yetkinlik yaşına çatmayanların təhsil və peşə proqramlarına cəlb olunması, bacarıqlarının inkişaf etdirilməsi onların reabilitasiyası və gələcəkdə baş verə biləcək kriminal davranışların qarşısını almaq baxımından əhəmiyyətli təsirə malikdir. Avstraliyada reabilitasiyaya xidmət edən proqramlar yuvenallar arasında təkrar cinayətlərin qarşısının alınmasında effektiv təsirə malikdir. Burada proqramların spesifikliyi ondan ibarətdir ki, hər proqrama müvafiq uşaqlar seçilir və onların törətdikləri inzibati xəta və ya cinayətlə birbaşa əlaqəli olan amillər müəyyən edilir. Bu proses uşaqların proqramlarda daha aktiv iştirak edərək müsbət nəticə əldə etmələrinə səbəb olur. Burada istifadə edilən proqramlar "nə işə yarayır" yanaşmasına əsaslanır. Yüksək riskli yuvenallara daha intensiv müdaxilələr həyata keçirilməklə onların törətdikləri cinayətlərlə narkotik istifadəsi, aqressiyaya nəzarət problemi, anti-sosial davranışlar arasındakı əlaqələr müəyyən edilməyə çalışılır. Son illərdə Avstraliyada yuvenallara xidmət edən bir çox qurum bu prinsiplər əsasında fəaliyyət göstərir.

Ümumiyyətlə, hazırkı dövrdə inkişaf etmiş ölkələrin əksəriyyətində, eləcə də ABŞ-da yuvenal ədliyyə sistemində cəzalandırmaq deyil, reabilitasiya tədbirləri və ictimaiyyətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər paralel olaraq həyata keçirilir.[38]

Rusiyada uşaqlar arasında tütün, alkoqol və narkotik maddələrdən istifadə faizinin zamanla artması cinayətkarlığın da artmasına gətirib çıxarır. Evsizlik, yoxsulluq, baxımsızlığın artması problemin daha da genişlənməsinə səbəb olur. Xüsusilə də valideyn himayəsindən məhrum olan uşaqların artması onların küçə həyatına və riskli davranışlara meyil etməsi ilə nəticələnir. Bu məqsədlə bir sıra layihələr çərçivəsində profilaktik və reabilitasiya tədbirləri həyata keçirirlir. Profilaktik tədbirlər əsasən uşaqların maarifləndirilməsi yolu ilə məktəblərdə təşkil olunur. Bu tədbirlər problemin yaranmadan qarşısını almaq məqsədi daşıyır.[39] Rusiyanın Rostov şəhərində yuvenallara münasibət federal normalardan fərqlənir. Rostov modeli cəza

[38] *Youth in the justice system: an overview // https://jlc.org/youth-justice-system-overview?fbclid=IwAR1dNCPB0SrGRMo_rB-ngbf8EAyys-kDbH4cJCCBc8NMVU6-IWOL5isK6mhE*
[39] *Juvenile Justice in Russia: Models, Design and the Road Ahead // http://www.nan.ru/uu/mgr/doc/Juvenile%20Justice%20in%20Russia%20ENG.pdf*

əsaslı yanaşmalara ideoloji alternativ olaraq formalaşıb. Model reabilitasiya yanaşmasına əsaslanır. Rostov modelinin 4 əsas elementi var: hakimlərin ixtisaslaşdırılması; sosial işçilərin prosesə cəlb olunması; yuvenal ədliyyə sistemi üçün ilkin şəraitin (məsələn, hüquqi baza, sosial xidmət sistemi və s.) qurulması; qanunla münaqişədə olan uşaqlarla işləyən bütün qurumlar arasında koordinasiyanın qurulması.[40]

Türkiyədə yuvenal problemlər üzrə məhkəmələr 1987-ci ildən bu günə qədər cinayətlərə cəlb olunur və zərərçəkən uşaqlar üçün xidmət göstərir. Bu məhkəmələrin fəaliyyəti "uşaqlar üçün yüksək rifah" adı altında humanizm prinsiplərinə əsaslanır. Türkiyənin Cinayət Məcəlləsinin 1-ci maddəsinin 31-ci bəndinə uyğun olaraq on üç yaşınadək olan yetkinlik yaşına çatmayanlar cinayət məsuliyyətindən azad edilirlər. Bu, hazırda 13 yaşdan 15 yaşa qədər olan cinayətkarlıq həddini nəzərdə tutan əksər hüquq sistemlərinə uyğundur. Bəzi Avropa ölkələrində (məsələn, Almaniyada) yuvenal qanunvericiliyin bəzi müddəaları 18-20 yaş qruplarına aid olan gənclərə tətbiq edilir, lakin Türkiyədə bu baş vermir. Türkiyə milli qanunvericiliyinə əsasən, cinayət törədilən zaman 13 yaşı tamam olmayan və ya 16 yaşı tamam olmayan sağlamlıq imkanları məhdud yetkinlik yaşına çatmayanlar hər hansı bir cinayət əməlinə görə saxlanıla bilməzlər. Bu halda hadisənin təfərrüatı və əməli törədənlərin kimliyi ilə bağlı prokurorluq xidmətinə məlumat ötürülür. 13 yaşından yuxarı yetkinlik yaşına çatmayan şəxslər isə mühakimə prosesinə cəlb oluna və saxlanıla bilər. İbtidai istintaq Baş Prokurorluq tərəfindən həyata keçirilir və təqsirkar yuvenal problemlər üzrə şöbədə saxlanılır. Yetkinlik yaşına çatmayanlar üçün zəncirlər, qandallar və ya buna bənzər alətlər istifadə edilmir. Lakin polis orqanları zərurət yarandıqda şəxsin qaçmasının qarşısını almaq, həm təqsirli bilinən şəxsin, həm də cəmiyyətin təhlükəsizliyini qorumaq naminə məhdudlaşdırma tədbirləri görə bilərlər. Cinayət məsuliyyətinə cəlb olunan yetkinlik yaşına çatmayanlar haqqında məhkəmə və prokurorluq orqanları tərəfindən hərəkətin məhdudlaşdırılması barədə akt qeydə alınır. Belə ki, şəxs bu aktın müddəalarına uyğun hərəkət etmədikdə məhkəmə həbs orderinin verilməsi haqqında qərar qəbul edə bilər. Cəzaların icrası və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi Cinayət Məcəlləsinin 107(5) maddəsinə əsasən baş tutur. Qanuna görə, həbs orderi hələ 15 yaşına çatmamış hüquq pozuntusuna yol vermiş şəxslərin beş ildən yuxarı müddətə azadlıqdan məhrum etmə növündə təyin oluna bilməz. İslah müəssisələrinə yerləşdirilmiş yetkinlik yaşına çatmayanlar müvafiq şəxslərin nəzarəti ilə ibtidai, orta və ali təhsil müəssisələrinə gedə; məktəblərində keçirilən ictimai və idman tədbirlərində iştirak edə; dil və peşə kurslarında təhsil ala; müəssisədən kənarda keçirilən imtahanlarda, habelə tamaşalar və konsertlərdə iştirak edə bilərlər.

Çin hüquq sistemində isə 14 yaşından aşağı uşaqların cinayət məsuliyyətinin olmadığı qəbul edilib. 14 yaşla 16 yaş arasında olan uşaqlar haqqında cəza tədbirləri yerinə "idarə tədbirləri" adlanan tədbirlər tətbiq edilir. Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslər üçün ayrıca məktəblər və tərbiyə müəssisələri fəaliyyət göstərir. "Çalışma məktəbləri" adlanan yerlər isə önəmsiz hüquq pozuntuları törədən uşaqlara özəl tədris prosesi tətbiq etmək məqsədilə dövlət tərəfindən qurulub.

Digər ölkələrdə olduğu kimi Gürcüstanda da uşaqlar zorakılıq, psixoloji narahatlıq, küçə həyatı kimi problemlər səbəbindən cinayətkar davranışlara meyillidirlər. Yetkinlik yaşında olmayanların bu kimi davranışlardan uzaqlaşmaları üçün uyğun addımlar atılmasının vacibliyi qeyd olunur. Ölkədə bu istiqamətdə tədbirlər beynəlxalq təcrübəyə əsasən həyata keçirilir. Belə ki, cinayətlərin qarşısının alınması üç mərhələdə həyata keçirilir və hər səviyyə ayrıca əhəmiyyətə malikdir. Gürcüstan hökuməti bu təcrübə əsasında profilaktik

[40] *Juvenile Justice in the Russian Federation // https://www.duo.uio.no/bitstream/handle/10852/33991/Hakvaag.pdf?sequence=1*

tədbirlər təşkil edir. Profilaktik tədbirlərin bir qismi 14-18 yaş qrupu arasında keçirilməklə onların fiziki və mental inkişafına xidmət edir. Həyata keçirilən fəaliyyətlər seminar, idman və təlimləri əhatə edir. İkinci qrup profilaktik tədbirlər yetkinlik yaşına çatmayanların könüllü fəaliyyətlərə cəlb olunması ilə bağlıdır. Üçüncü qrup profilaktik tədbirlər yuvenallar arasında təkrar cinayətlərin qarşısını almağa xidmət edir. Bu proqramlar 21 yaşdan kiçik şəxslərə tətbiq edilərək yönləndirmə və vasitəçilik məqsədi daşıyır. Gürcüstanda məhkumluq yaşamış yuvenalların reabilitasiyası məqsədilə həyata keçirilən proqramlarda birbaşa olaraq sosial işçilər cəlb olunur. Onlar məhkumluğun bitməsinə 1-3 ay qalmış yuvenallarla görüşərək müvafiq müdaxilə planı tərtib edirlər. Reabilitasiya proqramları qrup müdaxilələri, psixososial təlim, intellektual-koqnitiv və mədəni tədbirlər şəklində təşkil olunur.[41]

Uşaqların müdafiəsi və hüquqlarının qorunması üçün yaradılan “Uşaq Qaynar Xətt” xidməti ilə bağlı məlumatlılıq səviyyəsinin təhlilinə əsasən respondentlərin 48,6%-i bu barədə məlumatı olduğu halda, əks mövqedə qərarlaşanlar ümumi rəyi öyrənilənlərin 51,4%-ni əhatə edir. Respondentlərin təhsil səviyyələrinə görə təhlilinə diqqət etsək, bu barədə yuxarı sinifdə oxuyanların (53,2%) məlumatlılıq səviyyəsi digər sinifdə oxuyanlarla müqayisədə (46,3%) daha yüksəkdir. Həmçinin yuxarı gəlirli respondentlər (53,3%) aşağı gəlirli respondentlərlə (42,9%) müqayisədə xidmət barədə daha çox məlumatlıdır. Məlumatlılıq səviyyəsinə dair rəylərin yaşayış yerləri üzrə təhlilinə nəzərən kəndlərdə bu göstəricinin 50,9%, qəsəbələrdə isə 43% təşkil etdiyini qeyd edə bilərik.

“Uşaq Qaynar Xətti” xidməti haqqında məlumatı olanlarla məktəbdə hüquqları haqqında məlumat verilən fənnin tədris olunduğunu bildirənlər arasında ciddi statistik əlaqə təsbit edilib ($X^2(2)=18.483, p<0.01$).

Maraqlı və olduqca təəssüf doğuran haldır ki, “Uşaq Qaynar Xətt” xidməti barədə məlumatlı olan respondentlər, ümumiyyətlə, onun nömrəsi ilə bağlı sualı cavablandıra bilməyiblər. 2,7% respondent qaynar xəttin nömrəsini səhv cavablandıraraq 102, 1,4% isə 112 olduğunu bildirib.

Hər iki aspekt üzrə nəticələrin təhlilinə əsaslansaq, müvafiq xidmətlər barədə əhali arasında maarifləndirmə tədbirlərinin genişləndirilməsi, həmçinin müvafiq qaynar xətt xidmətinin inkişaf etdirilməsi və təbliğ edilməsi qənaətini hasil etmiş olarıq.

Sosial Tədqiqatlar Mərkəzinin “Uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin məlumatları əsasında uşaq hüquqlarının ümummilli vəziyyətini əks etdirən Analitik Hesabat”ına əsasən, 2018-ci illə müqayisədə 2019-cu ildə regionlar üzrə qaynar xətt xidmətlərinin (zorakılıq və təcavüzdən zərərçəkmişlər, intihara cəhd edənlər, cinsi və əməyi istismar edilənlər üçün) sayında hər hansı dəyişikliyin qeydə alınmaması faktını diqqətə çatdırmaq yerinə düşərdi.

**Diaqram 67.**




Soğru çərçivəsində aparılan təhlillər nəticəsində respondentlərin mütləq əksəriyyətinin (82%) öz hüquqlarını daha çox bilməkdə istəkli olduğu təsbit edilib. Öz hüquqlarını bilmək istəyi qızlarda (87%) oğlanlarla (77,1%) müqayisədə daha çoxdur. Maddi vəziyyət üzrə bütün qruplar yüksək göstərici ilə təmsil olunurlar - 80%-

[41] *Juvenile Delinquency – Causes, Prevention, and the Ways of Rehabilitation // https://www.penalreform.org/blog/juvenile-delinquency-causes-prevention-and-the-ways-of/?fbclid=IwAR1ONQC0SCO2hPce2imGUB_A7cifydAVPpqh0-wn5oovPQqNt9TQT30Y1j4*

dən çox. Yalnız atası yüksək təhsilli olan respondentlər (85,8%) hər iki valideyni yüksək təhsilli olanlarla (77,6%) müqayisədə öz hüquqlarını daha çox bilməkdə istəklidir. Bu istək kənd üzrə olan respondentlərdə (85%) şəhər respondentləri (79,9%) ilə müqayisədə özünü daha qabarıq büruzə verir.

Müvafiq istiqamətdə respondentlərin az hissəsi (11,8%) əks mövqe ilə çıxış edib. Cəmi 6,2% respondent hüquqlarına dair rəyini ifadə etməklə bağlı qərarsız qalıb.

Ümumi olaraq əldə olunan qənaət bizə onu deməyə əsas verir ki, ölkə üzrə uşaq hüquqları ilə bağlı fəaliyyət istiqamətlərində beynəlxalq təcrübədə daha uğurlu strategiyaların tətbiqini, nəzəriyyədən çox praktiki müstəvidə maarifləndirməyə keçidi stimullaşdırır.

**Diaqram 68.**




Təhlillər zamanı hər üç respondentdən birində (38,3%) bütün hüquqlarını daha çox bilmək istəyi müəyyən edilib. Aşağı sinifdə təhsil alanlar (36%) bütün hüquqlarını yuxarı sinifdə təhsil alanlarla (43%) müqayisədə daha çox bilmək istəyir. Kənd üzrə olan respondentlər (41,4%) qəsəbə respondentləri (30,4%) ilə müqayisədə daha çox öz hüquqlarını hərtərəfli bilmək istəyir. Respondentlərin 9,9%-i təhsil, 4,4%-i isə söz və fikir azadlığı haqqında hüquqlarını bilmək istəyir. Hər iki valideyni orta təhsilli olan respondentlər (6%) hər iki valideyni yüksək təhsilli olan respondentlərdən daha çox söz və fikir azadlığı ilə bağlı hüquqlarını bilmək istəyini dilə gətirib. 15% respondent isə digər hüquqlarını bilmək istəyir. Maraqlı məqamlardan biri kimi qeyd edə bilərik ki, ümumilikdə 28% respondent bununla bağlı rəyini ifadə etməyib və ya sualın cavabını bilməyib.

Nəticə etibarilə, keçirilən rəy sorğusu və müxtəlif sahələrdə təmsil olunan fokus qruplarla aparılan müsahibələr əsasında uşaqların öz hüquqlarına dair məlumatlılıq səviyyəsinin olduqca aşağı olmasının təsbiti sözügedən istiqamətdə rəyini açıq ifadə edə bilməyənlərin göstəricilərində özünü əks etdirir.

Ümumilikdə, respondentlərin həyat məmnuniyyəti ilə bağlı mövqeyinə 5 ballıq şkala üzərindən qiymətləndirmə prizmasından yanaşdıqda, rəyi öyrənilənlərin yarıdan çox hissəsi (56,6%) həyatlarını 5 bal üzərindən əla qiymətləndirib. Siniflər üzrə aparılan təhlil bizə onu deməyə əsas verir ki, aşağı sinifdə oxuyanlar (60,1%) arasında həyat məmnuniyyətinə dair bu mövqe üzrə göstərici yuxarı sinifdə təhsil alanlarla (49,5%) müqayisədə nisbətən yüksəkdir. Yalnız atası yüksək təhsilli olanların (62,6%) yalnız anası yüksək təhsilli olanlarla (51,4%) müqayisədə həyat məmnuniyyəti (5 bal) nisbətən daha yüksəkdir. Kənd üzrə olan respondentlər (64%) şəhər və qəsəbə respondentləri (müvafiq olaraq 53,1% və 44,8%) ilə müqayisədə həyatını daha əla qiymətləndirib.

Hər üç respondentdən biri (31,5%) həyatını 4 bal (yaxşı) üzərindən qiymətləndirir ki, bu da müsbət nəticədir. Maraqlıdır ki, aşağı gəlirli qrupu təmsil edənlər (33,3%) maddi durumu yuxarı (22,6%) olanlarla müqayisədə həyatını daha yaxşı dəyərləndirib. Bu məmnuniyyət səviyyəsi aşağı sinif şagidlərindən (29,4%) fərqli olaraq yuxarı sinif üzrə (35,6%) daha yüksəkdir. Sözügedən istiqamət üzrə yalnız anası yüksək təhsilli olanların göstəricisi (36,3%) yalnız atası yüksək təhsilli olanların göstəricisi (23,9%) ilə müqayisədə daha yüksəkdir. Analoji qiymətləndirmə qəsəbə üzrə olan respondentlər tərəfindən (40,4%) şəhər və kənd respondentləri (müvafiq olaraq 32,1% və 27,7%) ilə müqayisədə daha çox qeyd edilib.

Rəyi öyrənilənlərin 9,8%-i həyatını 3 bal

üzərindən orta qiymətləndirib. Maraqlıdır ki, aşağı məmnuniyyət səviyyəsi şəhər və qəsəbə üzrə olan respondentlərdə (müvafiq olaraq 12,7% və 12,1%) kənd respondentləri (6,6%) ilə müqayisədə daha çox müşahidə edilir.

**Diaqram 69.**




Respondentlərin maddi durumu ilə əlaqədar ümumi vəziyyətin təhlili aşağıdakı nəticələrə gəlməyimizə imkan verir. Respondentlərin 42,6%-i uzunmüddətli istifadə edilən əşyaları asanlıqla ala bildiyini qeyd edib. Hər iki valideyni ali təhsilli olan respondentlər (48,6%) hər iki valideyni orta təhsilli olan respondentlərlə (38,4%) müqayisədə daha çox bu kateqoriyanı özündə əks etdirir. Şəhər və qəsəbə üzrə olan respondentlər (müvafiq olaraq 45,6% və 48,9%) uzunmüddətli istifadə edilən əşyaları kənd respondentlərinə (36,9%) nisbətdə daha asanlıqla ala bilir.

Hər dörd nəfərdən birinin (28%) ərzaq və geyim almağa pulu çatsa da, uzunmüddətli istifadə üçün əşyaları almaqda maddi çətinlik çəkir. Kənddə yaşayan respondentlərin (33,9%) şəhər və qəsəbə respondentlərindən fərqli olaraq (müvafiq olaraq 24,2% və 23,3%) ərzaq və geyim almağa pulları çatsa da, uzunmüddətli istifadə üçün əşyaları almaqda daha çox maddi problemlə üzləşirlər.

Ərzaq almağa pulu çatsa da, geyim almaqda maddi çətinlik çəkənlər rəyi öyrənilənlərin cəmi 5,2%-ni əhatə edir. Hər iki valideyni ali təhsilli olanlarla (15,7%) müqayisədə hər iki valideyni orta təhsilli olanların (32,1%) ərzaq almağa pulları çatsa da, geyim almaqda daha çox maddi çətinlik çəkirlər.

Təhlillərə əsaslanaraq qeyd edə bilərik ki, respondentlərin valideynlərinin təhsil səviyyəsi ilə maddi durumu arasında əhəmiyyətli statistik əlaqə təsbit edilib (X2(4)=33.832, p<0.01).

Kifayət qədər bahalı şeyləri - mənzil, bağ evi və avtomobil almağa 17,3% respondentin maddi imkanı çatır. Hər iki valideyni yüksək təhsilli olan respondentlər (27,5%) hər iki valideyni orta təhsillilərlə (13,8%) müqayisədə kifayət qədər bahalı şeyləri - mənzil, bağ evi və avtomobil almağa daha çox maddi imkanı çatır.

Cəmi 5,2% respondent maddi durumunu ifadə etməkdən imtina edib.

## VI.5. Zərərli vərdişlərə meyillilik səviyyəsi

Yeniyetməlik dövrü bir fərdin şəxsiyyət kimi yetişməsində həssas dövr hesab edilir. Ətraf mühitlə münasibətdə özünü doğrultmaq, özünü təsdiq etmək və şəxsiyyət kimi formalaşmaq üçün özünüsübuta ehtiyac duyur. Xüsusilə, oğlan uşaqları arasında bu proses əksər hallarda "siqaret çəkmək" kimi bir vərdişlə geniş yayılıb. Lakin hələ ki dünyada aparılan sosioloji sorğularda nə qədər mükəmməl metodologiya tətbiq edilsə də, pis vərdişlərlə bağlı real nəticələri tam əldə etmək mümkün olmur. Yeniyetmələrin ən səmimi cavab verdikləri hissə yalnız "siqaret çəkmək" və "alkoqollu içki qəbulu"na dair suallar olub. Lakin bu səmimiyyəti narkotik vasitələrdən istifadə ilə bağlı suallara şamil etmək olmaz.

Belə ki, "Aşağıda sadalanan vərdişlərdən

hansıları sən edirsən?" sualına respondentlərin 97,6%-i "siqaret çəkmədiyini, 98,5%-i "alkoqollu içki qəbul etmədiyini" deyərək birbaşa etiraf etməkdən çəkiniblər. Lakin növbəti yoxlayıcı "Aşağıda sadalanan vərdişlərdən hansıları sənin yaşıdların edir?" sualına verilən cavablardan məlum olur ki, uşaqlar öz məktəb yoldaşları arasında 22,1%-nin siqaret çəkdiyini, 10,5%-nin isə alkoqollu içki qəbul etdiyini qeyd edib. Birbaşa etirafla dolayı yolla etirafları müqayisə etdikdə məlum olur ki, məktəblilər arasında siqaretdən istifadə edənlərin faiz göstəricisi kifayət qədər yüksəkdir.

**Diaqram 70. Aşağıda sadalanan vərdişlərdən hansıları sən edirsən?**

| | Bəli | Xeyr | Cavab vermək istəmirəm |
|---|---|---|---|
| Siqaret çəkmək | 2.3% | 97.6% | 0.1% |
| Alkoqollu içki içmək | 1.4% | 98.5% | 0.1% |
| Enerji içkisi içmək | 25.2% | 74.7% | 0.2% |
| Narkotik maddələrdən istifadə | 0.0% | 99.9% | 0.1% |

**Diaqram 71. Aşağıda sadalanan vərdişlərdən hansıları sənin yaşıdların edir?**

| | Bəli | Xeyr | Cavab vermək istəmirəm |
|---|---|---|---|
| Siqaret çəkmək | 22.1% | 76.0% | 2.0% |
| Alkoqollu içki içmək | 10.5% | 87.4% | 2.0% |
| Enerji içkisi içmək | 48.2% | 49.9% | 1.0% |
| Narkotik maddələrdən istifadə | 1.0% | 97.6% | 1.4% |

Təəssüf doğuran hal odur ki, uşaq və yeniyetmələrdə internet asılılığından əlavə, enerji içkilərinə qarşı da asılılıq hiss olunmaqdadır. Respondentlərin 25,2%-i enerji içkisindən istifadə etdiyini etiraf edib, 48,2%-i isə yaşıdlarının istifadə etdiyini qeyd edib.

Narkotik vasitələrdən istifadə ilə bağlı cavablardan aydın olur ki, birbaşa olaraq respondentlərin heç biri istifadə etmədiyini desə də, digər diaqramdan göründüyü kimi, respondentlərin 1%-i yaşıdları tərəfindən istifadə olunduğunu bildirib.

Ekspert qrupunun zərərli vərdişlərə qarşı mübarizə tədbirləri ilə bağlı sualların cavablarında bir ortaq məqam diqqəti cəlb edir: təhsil müəssisələrinin səhiyyə və hüquq-mühafizə orqanları ilə əməkdaşlığı. Aşağıda yerli icra hakimiyyətinin və rayon təhsil şöbəsinin əməkdaşlarının sitatları təqdim edilir. Burada icra hakimiyyətinin tərkibində qəyyumluq və himayəçilik şöbəsi, hüquq-mühafizə orqanlarında yeniyetmələrlə bağlı qurumlar bu istiqamətdə işlərin görülməsi üçün əsas səlahiyyət sahibidirlər.

*"Yeniyetmələr arasında mən ən çox siqaretdən istifadə hallarını görürəm. Bunun səbəbini tapmaq lazımdır. Burada özgüvən problemi olduğu zaman, ailədə və sosial mühitdə aşağılandıqları zaman uşaqlar özlərini böyüklər kimi göstərmək üçün siqaretdən istifadə edirlər". /Fərqanə Mehmanqızı/*

*“Rayon icra hakimiyyəti olaraq tez-tez məktəblərdə görüşlər keçiririk. Polis şöbəsi ilə birgə məktəblərdə oluruq. Təbliğat xarakterli tədbirlər keçiririk. Doğrudan da, gənclər o cür maddələrə meyilli deyillər. Dövlət bugünkü gənclikdən asılıdır. Buna görə də həm məktəbdə, həm də valideyn komitələri ilə görüşlər keçiririk. Onları daha çox diqqətdə və nəzarətdə saxlayırıq”. /Fəqət Şadlinskaya/*

*“Zərərli vərdişlər, sözsüz ki, siqaret çəkmək, narkotik vasitələrdən istifadə etmək, içki içməkdir. Hər il bununla bağlı həm polis şöbəsindən, həm də səhiyyə işçilərindən nümayəndələr dəvət etməklə tədbirlər keçiririk. Məsələn, “narkomaniyaya yox” deyirik, digər zərərli vərdişlərə də “yox” deyirik. Bunlarla bağlı həm rəsm, həm də inşa müsabiqəsi keçiririk”. /Xuraman Qurbanova/*

# NƏTİCƏ

❖ Uşaqların şəxsi inkişaf və asudə vaxtının təşkili ilə bağlı qarşıya çıxan əsas problemlər mövcud olan fəaliyyət sahələrinin sayının regionlar üzrə qeyri-bərabər, bir qisminin şəraitinin qeyri-qənaətbəxş olmasıdır. Ailələr üçün ölkənin hər yerində infrastruktura əlçatanlıq bərabər deyil.

❖ Gəlinən nəticə odur ki, ölkədə uşaqların böyük hissəsi asudə vaxtının səmərəli keçirməsində problemlər yaşayır. Bunun əsas səbəblərindən biri keyfiyyətli infrastruktura əlçatanlığın aşağı olmasıdırsa, digər səbəb ailələrin maddi vəziyyəti ilə bağlıdır.

❖ Ölkədə uşaqların şəxsi inkişafi və asudə vaxtının təşkili ilə bağlı pulsuz mərkəzlər məhdud səviyyədədir.

❖ Ailələrdə qız və oğlan övladlarının asudə vaxtının təşkili üçün cins bölgüsü qoymasa da, yenə də qız və oğlanların tərbiyəsində gender stereotiplərini müşahidə etmək olur. Belə ki, ailələrdə valideynlər qız övladları üçün oğlanlarla müqayisədə daha passiv fəaliyyət sahəsi seçməyə üstünlük verirlər. Qızların fiziki passivliyi onların sağlamlığı baxımından doğru yanaşma sayıla bilməz

❖ Uşaqlar arasında müxtəlif gəzintilər zəif təşkil olunur. Onların maraqlarını cəlb edəcək parkların, əyləncə məkanlarının çatışmazlığı, yoxsa ailə tərbiyəsindən irəli gəlməsi ayrıca araşdırılmalı, beynəlxalq təcrübələr öyrənilməlidir.

❖ Ümumiyyətlə, təhlillər onu deməyə əsas verir ki, hazırda valideynlər daha çox uşaqlarının boş vaxtlarını zehni yüklü fəaliyyət sahələri ilə təşkil etməyə çalışırlar. İdman və gəzintilərin az olması uşaqların fiziki və psixoloji sağlamlığına təhlükə yaradır, onların aqressiv və əsəbi halətini artırır.

❖ Respondentlərin 42%-i "birlikdə ev işləri görürük" fikrini qeyd edib ki, bu göstərici kənd yerlərində yaşayan uşaqlar arasında daha yüksəkdir. Eyni zamanda, qızların boş vaxtlarında ev işlərinə cəlb edilməsi halları daha geniş yayılıb.

❖ Azərbaycanda yeniyetmələrin öz kimliyini tapmasında ailə institutunun təsirləri qabarıqdır.

❖ Yeniyetmələrin gələcək peşə seçimlərində ailə basqıları özünü göstərir. Xüsusilə, qızlar arasında bu hal daha qabarıq hiss olunur. Qızların müasir dövrün əmək bazarı tələblərinə uyğun peşə seçimlərini etmək imkanları məhduddur. Bu vəzifədə daha çox valideynlər istiqamət verir.

❖ Uşaq və yeniyetmələr arasında 3 əsas asılılıq müşahidə olunur: televizor, internet və enerji içkilərinin istifadəsi

❖ Yeniyetmələrin pis vərdişlərə (siqaret çəkmək, alkoqollu içki içmək, narkotik vasitələrdən istifadə etmək və enerji içkisi içmək) meyilliliyi soğru zamanı üzə az çıxsa da, risklər yüksək olaraq qalır.

❖ Respondentlərin yarıdan çoxu (54.6%) məktəbi çox xoşladığını, 39.7%-i müəyyən qədər xoşladığını bildirib. 5.2% respondent məktəbi heç xoşlamadığını qeyd edib. Cavabların təhlili göstərir ki, pandemiyanın məktəbə, burada çalışan və təhsil alan müəllim-şagird kollektivinə, bütövlükdə təhsil sistemimizə vurduğu mənfi təsirlərə, uşaqların müəyyən qədər məktəbdən, ənənəvi dərslərdən uzaq düşməsinə baxmayaraq ümumilikdə şagirdlərin məktəbə münasibəti müsbətdir.

❖ Şagirdlər arasında dostluq və yoldaşlıq münasibətlərinin formalaşdırılması da tədrisin keyfiyyətinə, onların məktəbə bağlılığına təsir edən amillərdir. Şagirdlərlə aparılmış sorğunun nəticələrindən aydın olur ki, bu sahədə vəziyyət heç də arzu olunan səviyyədə deyil. Belə ki, oğlan respondentlərin 29%-nin, qız respondentlərin isə 22.7%-nin heç bir dostunun olmadığını qeyd etməsi məktəb-valideyn-şagird münasibətlərində ciddi problemlərin qalması, xüsusilə təhsil işçilərinin ən çox narahat etdiyi məktəb psixoloqu təsisatının ölkənin təhsil sistemində zəif inkişaf etməsi, hətta bəzi hallarda məktəblərdə psixoloqun olmaması və yaxud istiqaməti üzrə fəaliyyət göstərməməsi ilə bağlıdır. Son illər şagirdlər arasında müşahidə edilən in-

tihar hadisələrinin kökünü də bu amillərdə axtarmaq lazımdır.

❖ Respondentlərin 70.9%-i təhsil aldıqları məktəbdə psixoloqun olduğunu, 20.8%-i olmadığını bildirdiyi halda, 8.3% respondentin bu məsələ ilə bağlı heç bir məlumatı yoxdur. Respondentlərin cavablarından belə aydın olur ki, şəhər (81.2%) və qismən də qəsəbədə (75.8%) fəaliyyət göstərən məktəblərdə psixoloq var, lakin kənd məktəblərində psixoloq ya yoxdur, ya da çox az saydadır (32.6% "xeyr" cavabını verib).

❖ Təəssüf doğuran hal odur ki, ümumilikdə Azərbaycan cəmiyyətində, o cümlədən məktəbdə psixoloqa müracət etmək ənənəsi hələ ki tam formalaşmayıb. Bu həm bəzi mental xüsusiyyətlərdən, həm də cəmiyyətdə psixoloq institutuna inamın tam formalaşmamasından irəli gəlir. Sorğuya cəlb edilmiş şagird respondentlərin yalnız 10.5%-i son 3 ildə məktəb psixoloquna müraciət etdiyini və bunun ona faydasının olduğunu, 1.2%-i isə müraciət etsə də, bunun faydasının olmadığını bildirib. 86.4% respondent ehtiyac duymadığına görə, 2% respondent bir faydasının olacağını düşünmədiyi üçün məktəb psixoloquna müraciət etməyib.

❖ Ekspertlərlə aparılmış dərinləşdirilmiş müsahibələrdə də məktəb psixoloqu təsisatının məktəblərdə inkişaf etdirilməsinin zəruriliyi qeyd olunub. Ekspertlər məktəblərdəki mövcud psixoloji xidmətlərin kadr çatışmazlığından əziyyət çəkdiyini bildirib.

❖ Bəzi valideynlərin övladlarını böyütməklə bağlı yanaşmasını psixoloq və sosial işçilər problemli olduğunu qeyd edib. Geniş yayılmış fikir bundan ibarətdir ki, bir çox valideyn övladını böyüdərkən onunla empatiya qurmur. Əvəzində, valideyn öz istək və düşüncələrini övladına yeritməyə çalışır ki, bu da uşaqların psixoloji durumuna, eləcə də gələcək perspektivlərinə mənfi təsir edə bilər.

❖ Həm bu sorğunun nəticələri, həm də aparılan araşdırma və müşahidələr respublikanın orta ümumtəhsil məktəblərində mövcud olan problemlərdən birinin psixoloqlarla bağlı olduğunu müəyyən edir. Qeyd olunmalıdır ki, bugün orta məktəblərdə mövcud olan psixoloji xidmətə olan münasibət birmənalı deyil və bu işin daha peşəkar səviyyədə aparılmasına ehtiyac var. Məktəblərin hazırlıqlı və peşəkar psixoloqlarla təmin edilməsi məsələsi xüsusi diqqətdə saxlanılmalıdır. Bununla yanaşı, təhsil mühitinin yaradıcı təlim mühitinə çevrilməsi, yaradıcı təfəkkürə malik müstəqil şəxsiyyətin yetişdirilməsini təmin edən yaradıcı müəllimlərin və fəal interaktiv təlim metodlarının hazırlanması baxımından da psixoloji xidmətin əsaslı şəkildə yenidən qurulması zəruridir.

❖ Ailə fərdin həm fiziki, həm də mənəvi cəhətdən formalaşması üçün vacib institutdur. Uşaqların dəyərlər sisteminin yaranmasında, ehtiyac və motivlərinin istiqamətlənməsində, dünyagörüşünün təməlinin qoyulmasında, sosiallaşmasında, insana, vətənə, tarixə və mədəni irsə münasibətinin formalaşmasında ailə mühitinin ciddi rolu var. Onlayn təhsil tədris prosesində valideynin vəzifə və məsuliyyət yükünü, ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemini, səriştəli valideyn paradiqmasının yaradılmasını bir daha ortaya qoydu. Rəyi soruşulan respondentlərin 33.1%-i bu fikirdədir ki, valideynləri bəzən ev tapşırıqlarını yerinə yetirməkdə ona kömək edir. 10.4% respondent valideynləri tərəfindən həmişə, 6.7%-i tez-tez, 17.6%-i nadir hallarda dəstək gördüyünü bildirib. Bu fikirlərin əksinə olaraq 32.2% respondent ev tapşırıqlarının yerinə yetirilməsindən valideynləri tərəfindən heç bir dəstək almadığını bildirib.

❖ Respondentlərin 37.8%-i bu fikirdədir ki, valideynləri onu dərslərini yaxşı oxumağa həmişə məcbur edir. 14.3% respondent dərs oxumağa tez-tez, 15.4% respondent bəzən, 7.9% respondent nadir hallarda məcbur edildiyini qeyd edib. Cəmi 24.6 % respondent bu məsələdə heç vaxt məcburiyyətlə üzləşmədiyini vurğulayıb.

❖ Rəyi soruşulanların 57.2%-i dərslərini etmədikdə valideynləri tərəfindən heç bir

cəza almadığını bildirib. 19% respondent dərsini öyrənmədiyinə görə bəzən, 5.6%-i həmişə, 3.8%-i tez-tez, 14.1%-i nadir hallarda cəza aldığını bildirib.

❖ Ekspertlərlə aparılmış müsahibələrdə valideyn-məktəb-şagird münasibətləri ilə bağlı maraqlı təkliflər səsləndirilib. Ekspertlər Azərbaycandakı bir çox ailələrdə kommunikasiya və valideyn öhdəliklərinin yerinə yetirilməməsi problemini uşaqlar üçün başlıca ciddi problem olaraq qəbul edir. İnternetdən həddən artıq çox istifadə edildiyi ailələrdə ilk növbədə kommunikasiya problemi yaranır.

❖ 88.6% respondent məktəbi tam bitirməyi, 9.1% respondent isə 9-cu sinfə qədər təhsil almağı düşünür. 2.3% respondent bununla bağlı konkret bir cavab verə bilməyəcəyini bildirib. Təhsilini 11-ci sinfə qədər davam etdirmək istəyi həm şəhər (88.9%), həm qəsəbə (89.2%), həm də kənd (88.3%) respondentləri arasında, demək olar ki, eynidir.

❖ 91.9% respondent həm özü, həm də valideynlərinin istəyi olduğu üçün məktəbi bitirdikdən sonra təhsilini davam etdirəcəyini bildirib. Maraqlıdır ki, 0.9% respondent təhsilini davam etdirmək istəsə də, bunu valideynləri istəmədiyini qeyd edib. 4.7% respondent valideynləri istəsə də, özü təhsilini davam etdirmək istəmir. 2.5% respondentin həm özü, həm də valideynləri təhsilini davam etdirməkdə maraqlı deyillər.

❖ Sorğuda iştirak edənlərin 46.9%-i karantin dövründə bütün dərslərə onlayn qoşulduğunu, 19.9%-i gündə bir neçə dərsə qoşulduğunu, 8.7%-i həftədə bir neçə dəfə qoşulduğunu, 8.8%-i nadir hallarda qoşulduğunu bildirib. 15.6% respondent karantin dövründə heç bir onlayn dərsdə iştirak etməyib.

❖ Respondent cavablarının şəhər, qəsəbə və kənd üzrə nəticələrinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, kənd məktəblilərinin şəhər və qəsəbə məktəbliləri ilə müqayisədə onlayn dərslərdə iştirak etmək imkanları daha az olub. Belə ki, sorğuda iştirak edən şəhər və qəsəbə şagirdlərinin demək olar ki, yarısı bütün onlayn dərslərdə iştirk etdikləri halda kənd məktəbliləri üzrə bu göstərici daha aşağı – 39.6% olub. Bundan başqa, kənd məktəblərində təhsil alan respondentlərin 10.4%-i onlayn dərslərə həftədə 1 dəfə, 9.1%-i nadir hallarda qoşulduğunu bildirdiyi halda, 21.4 % respondent isə onlayn dərslərdə heç iştirak etməyib. Bu fakt bir daha onu sübut edir ki, mərkəz və şəhərə nisbətdə, rayon və kənd məktəblərinin onlayn dərslərdə iştirakı internet və lazımi avadanlıqla təchizat baxımından aşağı olub.

❖ Ailəsinin maddi vəziyyətinə gəlincə, özünü aşağı gəlirli ailəyə aid edənlər (32.1%), yuxarı gəlirli ailəyə aid edənlərə (50.5%) nisbətən bütün dərslərə daha az qoşulub. Eyni kəskin fərq özünü heç bir onlayn dərsdə iştirak etməməkdə göstərir. Belə ki, aşağı gəlirli ailə təmsilçilərinin 28.6%-i, yuxarı gəlirli ailə təmsilçilərinin 9.4 %-i heç bir onlayn dərsdə iştirak etməyib.

❖ Rəyi soruşulanların 15.5%-i bu fikri bölüşür ki, onlayn şəkildə tədris prosesində dərsləri daha rahat şəraitdə mənimsəyə bilib. 29% isə bu yolla vaxt itkisinin qarşısını ala bildiyini, 15.5%-i müəllimlərlə müzakirə zamanı fikirlərini onlayn formada daha rahat şəkildə çatdıra bildiyini, 7.8%-i xərclərinə qənaət etdiyini düşünür. 16.4% respondent bu fikirdədir ki, müəllimlər dərsləri onlayn şəkildə daha maraqlı keçir. 19.2% respondent onlayn tədris zamanı texnoloji cihazlardan və proqramlardan istifadə imkanlarını və biliklərini artırdığını qeyd edib. Bütün bunların əksinə olaraq 27% respondent bu fikirdədir ki, onlayn dərslərin heç bir üstünlüyünü görməyib.

❖ Respondentlərdən onlayn dərslər zamanı qarşılaşdıqları problemlər də soruşulub. 66.2% respondent internetin sürətinin aşağı olduğunu, 24.1%-i müəllimlərin internetə qoşulmasında problem olduğunu, 16.3%-i yaşadığı evdə internetin olmadığını, 9.7%-i eyni vaxtda evdə bir neçə nəfərin onlayn dərslərdə iştirak etməsi səbəbindən kompüter/planşet çatışmazlığı problemi ilə qarşılaşdığını, bu səbəbdən evdəkilərlə növbəli işlətdiklərini, 5%-i dərslərə qoşulma prosesi texniki cəhətdən

çətin olduğundan valideynləri evdə olmayanda qoşula bilmədiyini, 3.3%-i onlayn dərs keçmək üçün evdə uyğun şərait və ya məkanın olmadığını, 13.6%-i bacı və qardaşı ilə dərslərinin üst-üstə düşməsi problemi ilə üzləşdiyini, 14.9%-i işıqların tez-tez söndüyünü bildirib. 12.4% respondent onlayn dərzlər zamanı heç bir problemlə üzləşmədiyini qeyd edib.

❖ Onlayn tədrisə keçidlə bağlı məktəblərdəki vəziyyəti ekspertlər uşaqlarla bağlı başlıca cari problemlərdən biri kimi qəbul edir. Bu cəhətdən ekspertlər ibtidai sinif şagirdlərinin adaptasiya və ümumilikdə internet problemini onlayn tədrisin əsas məhdudiyyəti kimi qeyd edirlər.

❖ Respondentlərin əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə hər hansı ödənişli əməyə cəlb edilməsi halları təsbit edilməyib. Rəyi öyrənilənlərin mütləq əksəriyyətinin hər hansı bir işdə işləmədiyini qeyd etməsi bunu bir daha təsdiq edir. Çox az sayda respondent müxtəlif sahələrdə işlədiyini bildirib

❖ Sorğu çərçivəsində respondentlərin son 6 ayda həyatlarında baş verən mənfi tendensiyaların dinamikasına əsasən, onların əksəriyyətində gələcəklə bağlı ümidsizlik və qorxu hissi müşahidə edilməyib. Respondentlərin əhəmiyyətli hissəsi heç vaxt gərginlik yaşamadığını bildirib. Ümumi olaraq rəyi öyrənilənlərin mühüm hissəsi son 6 ayda heç vaxt yuxusuz qalmadığını və hər zaman dərsdə fikrini toplaya bildiyini deyib. Əsəbilik və ya dalaşmağa meyilliliklə bağlı ictimai rəy sorğusunun pozitiv nəticələri mühüm kəsimi əhatə edir.

❖ Rəyi öyrənilənlərin mütləq əksəriyyəti məktəbdə və ya dostları arasında üzərində insanlara xətər yetirə bilən alətlər gəzdirən şagirdlərə rast gəlməyib.

❖ Bununla yanaşı, ümumi rəyi öyrənilənlərin mütləq əksəriyyəti məktəbdə və ya dostları arasında üzərində insanlara xətər yetirə bilən alətləri (məsələn, bıçaq, beşbarmaq və s.) gəzdirmədiyini qeyd edib.

❖ Ümumi olaraq bütün uşaqların eyni hüquqa malik olduğunu düşünənlər rəyi öyrənilənlərin əhəmiyyətli kəsimini əhatə edir. Analoji istiqamət üzrə hər dörd respondentdən biri isə əks mövqedə qərarlaşıb.

❖ Respondentlərin əhəmiyyətli hissəsi təhsil, hər üç nəfərdən biri söz, fikir və qərarvermə azadlığının, hər dörd nəfərdən biri müdafiə, nisbətən az kəsim isə yaşamaq hüququnun olduğunu bildirib.

❖ Respondentlərin təxminən yarıya yaxını “Uşaq hüquqları haqqında” Konvensiya barəsində məlumatlı olduğu halda, bunun əksinə olaraq qeyd edilən beynəlxalq sənəddən rəyi öyrənilənlərin əhəmiyyətli hissəsi məlumatsızdır. Məlumatlı kəsimin əhəmiyyətli hissəsi qeyd edilən beynəlxalq sənədin mahiyyəti ilə bağlı bilgi sahibidir. Hər üç respondentdən biri isə Konvensiyanın mahiyyəti barədə məlumatsız olduğunu bildirib.

❖ Respondentlərin mühüm hissəsi “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu barədə məlumatlı olsa da, əks mövqe sahibləri rəyi öyrənilənlərin təxminən yarıya yaxınını təşkil edir.

❖ Uşaq hüquqları haqqında yerli qanunvericiliklə bağlı məlumatlı olan respondentlərin yarıdan çoxu onun mahiyyəti haqqında məlumatlı olsa da, təxminən yarıya yaxını bu barədə hər hansı bilgi sahibi deyil.

❖ Ümumi olaraq rəyi öyrənilənlərin əhəmiyətli hissəsi məktəbdə onun hüquqları haqqında məlumat verilən fənnin tədris olunduğunu qeyd etdiyi halda, hər dörd respondentdən biri əks mövqedə qərarlaşıb.

❖ Sorğu çərçivəsində uşaq hüquqları ilə bağlı məlumatlandırma istiqamətlərinə gəlincə, respondentlərin əksəriyyəti müvafiq olaraq müəllimlərdən, təxminən yarıya yaxını valideynlərindən məlumat alır. Hər dörd nəfərdən birinin sözügedən istiqamət üzrə məlumat mənbələrini ardıcıl olaraq televiziya, sosial şəbəkələr, kitablar, məktəbdə keçirilən tədbirlər təşkil edir.

❖ Sorğu çərçivəsində respondentlərin əksəriyyəti son 3 ildə ona qarşı hər hansı mənfi halla qarşılaşmadığını deyib.

Ümumilikdə hər üç respondentdən birinin müxtəlif formalarda hüquqları pozulub.

❖ Hüquqları pozulan respondentlərin əksəriyyəti bu barədə kiməsə və ya harasa müraciət etməyib. Pozulan hüquqlarının bərpası istiqamətində az sayda respondent addım atdığını bildirib. Respondentlərin yarıdan çoxu bu kimi hallarda ailəsinə, hər üç nəfərdən biri məktəb heyətinə (müəllim, direktor müavini, direktor) müraciət edib. Bu kimi hallarda polisə və digər yerlərə müraciətlər azlıq təşkil edir.

❖ Rəyi öyrənilənlərin hüquqları pozulanda hara müraciət edəcəyini bildiyi halda, təxminən bir o qədəri bu barədə əks mövqedə qərarlaşıb. Respondentlərin yarısı bu kimi hallarda polis, məhkəmə və hüquqi şəxslərə, hər dörd nəfərdən biri isə aidiyyəti dövlət qurumlarına müraciət edəcəyini bildirib. Analoji vəziyyətdə ailə üzvlərinə və məktəb heyətinə müraciət edəcəyini bildirən respondentlər aşağı göstəricilərlə təmsil olunurlar.

❖ Son 3 il ərzində məktəbdə digər şagirdlərə qarşı rəyi öyrənilənlərin əksəriyyəti tərəfindən kobud davranış müşahidə edilməyib. Az qisim respondent nadir hallarda məktəbdə digər şagirdlərə qarşı fiziki xəsarət yetirdiyini qeyd edib.

❖ Uşaqların müdafiəsi və hüquqlarının qorunması üçün yaradılan "Uşaq Qaynar Xətt" xidməti ilə bağlı respondentlərin təxminən yarısı məlumatlı olsa da, əks mövqedə qərarlaşanlar rəyi öyrənilənlərin yarıdan çoxunu əhatə edir.

❖ Respondentlərin mütləq əksəriyyəti öz hüquqlarını daha çox bilməkdə istəklidir. Müvafiq istiqamətdə respondentlərin az hissəsi əks mövqe ilə çıxış edib.

❖ Hər üç respondentdən biri bütün hüquqlarını daha çox bilmək istədiyini bildirib. Təhsil, söz və fikir azadlığı hüquqlarını bilmək istəyi az kəsimin rəyində əks olunub. Hər dörd respondentdən biri bununla bağlı rəyini ifadə etməyib və ya sualın cavabını bilməyib.

❖ Respondentlərin yarıdan çox hissəsi həyatlarını əla hesab etdiyi halda, hər üç respondentdən biri həyatını yaxşı qiymətləndirib. Rəyi öyrənilənlərin az bir hissəsi həyatını orta qiymətləndirib.

❖ Respondentlərin təxminən yarıya yaxını uzunmüddətli istifadə edilən əşyaları asanlıqla ala bildiyini qeyd edib. Hər dörd nəfərdən birinin ərzaq və geyim almağa pulu çatsa da, uzunmüddətli istifadə üçün əşyaları almaqda maddi çətinlik çəkir. Bundan az kəsimin isə kifayət qədər bahalı şeyləri - mənzil, bağ evi və avtomobili almağa maddi imkanı çatır. Ərzaq almağa pulu çatsa da, geyim almaqda maddi çətinlik çəkənlər rəyi öyrənilənlərin çox az hissəsini əhatə edir.

## TƏKLİFLƏR

❑ Uşaq turizminin inkişafı üçün müəyyən layihələr həyata keçirmək olar. Məsələn, uşaq turizmi üçün yay və qış məktəbləri yaratmaq, xüsusi məkanlar açmaq olar. Buranın maliyyəsi üzvlük haqları ilə təşkil edilə bilər. Bu prosesə məktəbləri cəlb etmək olar.

❑ Ailə və ya uşaqlarla işləyəcək sahə müvəkilləri yaradılmalıdır. Onlar tərəfindən ailə zorakılığına, digər qısnamalara məruz qalan uşaqlara nəzarət gücləndirilməli, təhsildən yayınmalara nəzarət həyata keçirilməlidir.

❑ Yeniyetmə və gənclər üçün məktəblərdə və ya yaradıcılıq mərkəzlərində pulsuz şəxsi, əqli və fiziki inkişaf kursları genişləndirilməli, xüsusi layihələr icra edilməlidir. Hazırda yaradıcı mərkəzlərdə bəzi xidmətlər olsa da, onların hamısı ödənişlidir, ya da formal xarakter daşıyır, keyfiyyəti aşağıdır.

❑ Müasir informasiya-texnologiyaları dövrünün tələblərini nəzərə alsaq, uşaq proqramları hazırlayacaq yutuberlərin yetişdirilməsinə ehtiyac var. Onlar tərəfindən materialları internet resurslarında yerləşdiriləcək layihələr həyata keçirilməlidir. Hazırda Azərbaycanda bu sektoru rus, türk və ingilis yutuberləri zəbt edib.

❑ Məktəblərdə (və bağçalarda) psixoloji işin düzgün və yüksək səviyyədə təşkilinə böyük ehtiyac var. Məktəbin tədris və tərbiyə müəssisəsi olduğunu və vətəndaş yetişdirdiyini nəzərə alsaq, psixoloqların təhsil prosesində nə qədər əhəmiyyətli rol oynadığını və onların üzərinə çox çətin, məsuliyyətli iş düşdüyünü deyə bilərik. Məktəbdə psixoloji işin yüksək səviyyədə təşkili üçün psixoloqlar tərəfindən vaxtaşırı psixoloji testlər keçirilməli, il boyu məktəb şagirdlərinin (I sinifdən başlayaraq) psixoloji pasportları yaradılmalı, şagirdlərin psixi sağlamlığının profilaktikası üçün psixi-profilaktik işlər aparılmalı, müəllim-şagird münasibətlərinin vəziyyətini öyrənmək məqsədilə vaxtaşırı psixoloji sorğular keçirilməli, şagirdlərin emosional davranışlarının və tədris "pozuntuları"nın zərərsizləşdirilməsi üçün psixoprofilaktik iş aparılmalı, görülən işlərlə bağlı qeydiyyat aparılmalı, çətin tərbiyə olunan və həssas qrupa daxil olan uşaqlarla bağlı zəruri məlumatlar toplanmalı, siniflərdə müxtəlif mövzularda söhbətlər aparılmalı, məktəbin müəllimləri və valideynlərlə də geniş əlaqələr qurulmalı, hətta şagirdlərə peşə və ixtisas seçimində yaxından köməklik göstərilməlidir. Məktəb psixoloqu təkcə şagirdləri deyil, dərs deyən müəllimləri də nəzarətdə saxlamalı, lazım gələrsə, onlara da psixoloji dəstək göstərməlidir. Problemi olan müəllim, təbii ki, keyfiyyətli dərs deyə bilməz. Bu baxımdan pedaqoji kollektiv də daim nəzarətdə saxlanılmalıdır.

❑ Məktəb psixoloqlarının funksiyaları aydın şəkildə işlənməlidir. Problemin kökündən və sistemli şəkildə həlli üçün, ilk növbədə, psixologiya ixtisası mövcud olan ali təhsil müəssisələrində çalışan müəllim heyətinə psixologiya elminin müasir dövrdə tələbləri və yeniliklər barədə məlumatlı olmaları üçün mütəmadi olaraq təlim kursları, treninq və seminarlar təşkil olunmalıdır. Ali məktəblərdə psixologiya elminin qanunauyğunluqları və günümüzün tələblərinə cavab verə biləcək tədrisin təşkili üçün ciddi addımlar atılmalıdır. Bu işin təşkili məktəb psixoloqlarının və sosial işçilərin yetişməsində çox böyük təsir gücünə malikdir. Belə olan halda, məktəbə gələn psixoloq peşəkar kompetensiyaya malik olacaq və işini dövrün tələblərinə uyğun şəkildə qura biləcək.

❑ Ailə uşaqların intellektual inkişafında təsirli rola sahibdir. Uşaqların mədəni səviyyəsi, ictimai dəyərlərə sayğısı, şəxsi motivasiya və əzmi də ailədən birbaşa asılıdır. Valideynlər təhsil sisteminin vacib halqasına daxildir. Məhz onların köməyi və iştirakı ilə ailənin təsirini müsbətə doğru və daha yüksəyə çatdırmaq olar. Ona görə də məktəb və müəllim üçün valideynin etimadını qazanmaq və onu müttəfiqə çevirmək çox vacibdir. İndi bütün dünyada

valideynlərlə məktəb arasında münasibətlərin yenidən qurulması ilə bağlı axtarışlar gedir. Ölkəmiz də bu istiqamətdə axtarışlara qədəm qoyub. Məsələn, “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”nda məktəb-valideyn əlaqələrinin tənzimlənməsində təhsil müəssisəsinin idarə edilməsində, təlim-tərbiyə prosesinin təşkili ilə bağlı problemlərin aradan qaldırılmasında, müəssisənin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində valideynlərin rolunun təmin edilməsi xüsusi vurğulanır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət trategiyası”nda isə uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədi ilə valideynlərin sistemli şəkildə pedaqoji-psixoloji maarifləndirilməsi üçün “Səriştəli valideynlər” proqramının hazırlanması, maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin edilməklə təhsil müəssisələrinin dövlət-ictimai xarakterdə (Valideyn–Müəllim Assosiasiyası, İdarəedici Şura, Qəyyumlar Şurası və s.) idarə olunmasının təmin edilməsi strateji hədəflər və tədbirlər sırasında qeyd olunur. Bu sənəddə nəzərdə tutulan “Səriştəli valideyn” proqramı həmin istiqamətdə fəaliyyətin bazasına çevrilməlidir.

❑ Valideynlərə psixoloji xidmətin göstərilməsi də vacibdir. Ailə psixoloqları ilə bağlı layihənin hazırlanmasına ehtiyac var.

❑ Aparılan müşahidələrdən belə nəticəyə gəlmək olar ki, bu gün təhsilin məzmununda, onun təşkili məsələlərində və nəhayət, qiymətləndirmə sistemində baş verən dəyişikliklərlə bağlı valideyni maarifləndirməyi, onunla düzgün münasibət qurmağı bacaran müasir müəllim, əslində, öz işinin uğrunu təmin etmiş olur. Bununla o, valideyni məharətlə tənqidçidən müttəfiqə çevirir, onun təcrübəsindən, dünyagörüşündən və bacarığından təlimdə müvəffəqiyyət əldə etmək üçün bəhrələnir. Şagirdin uğurlarında valideynin məktəblə nə qədər sıx əlaqəsinin olması çox böyük rol oynayır. Şagirdin məktəbə bağlanması da valideynlə məktəbin münasibətlərindən birbaşa asılıdır. Bu əlaqələrin dərinləşdirilməsinə ehtiyac var.

❑ Sorğulardan alınan nəticələr bu qənaətə gəlməyə əsas verir ki, ölkəmizdə distant/məsafədən təhsilin bir illik təcrübəsinə əsaslanaraq problemlər ciddi müzakirə edilməli və beynəlxalq təcrübə nəzərə alınmaqla vacib və zəruri olan qaydalar hazırlanmalıdır. Xüsusilə Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə aztəminatlı və çoxuşaqlı ailələrin sürətli və pulsuz internet paketi və texniki avadanlıqlarla təmin olunması istiqamətində konkret layihələr həyata keçirməlidir. Bütün təhsil pillələrində distant təhsil təcrübəsinin daha geniş tətbiq edilməsi, texnoloji təchizat və keyfiyyətli internet bağlantısının təmin edilməsi məsələlərinin həll edilməsi, yeni təhsilalma forması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi vacib istiqamətlərdən biridir.

❑ Pandemiyanın əsas dərslərindən biri də ondan ibarət oldu ki, həm təhsilverənlər, həm də təhsilalanlar mükəmməl rəqəmsal bacarıqlara malik olmalıdırlar. Belə bacarıqların olmaması yüksək texnologiyalardan və müasir tətbiqlərdən istifadə imkanlarını məhdudlaşdırır, təhsilə və fəaliyyətə ciddi maneələr yaradır. Bu baxımdan əsas fəaliyyət istiqamətlərindən biri də rəqəmsal bacarıqların formalaşdırılmasına xidmət edən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi olmalıdır.

❑ “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda da təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklərlə yüklənmiş kompüter-planşetlə təmin olunması; həmçinin təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması; distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması nəzərdə tutulur. Bu rəsmi dövlət sənədində qeyd olunan vəzifələri

nəzərə alıb aidiyyəti qurumlar bu istiqamətlərdə konkret addımlar atmalıdırlar.

❑ Məktəbdə səmimi, yaradıcı və sağlam mühitin formalaşdırılması birbaşa idarəetmənin düzgün təşkilindən asılıdır. Ümumi təhsil müəssisəsinin idarəolunması elə qurulmalıdır ki, orada hər kəs özünü rahat hiss etsin, məktəb rəhbərliyi, müəllim, şagird və valideynlər arasında səmimi münasibət qurulsun. Şagird müəllimlərinin onu valideyni qədər sevdiyini, gələcəyi üçün çalışdığını düşünsün. Məktəbdə şagirdin yüksək bilik əldə etməsi və müasir tələblər səviyyəsində inkişafı üçün şərait yaradılsın. Şagird təhsil aldığı məktəbə həvəslə gəlsin. Yalnız belə mühitdə bilikli, dünyagörüşlü, Vətənini, torpağını, xalqını, o cümlədən məktəbini, müəllimini və valideynini sevən şagird yetişdirmək olar.

❑ Uşaq hüquqları ilə bağlı məlumatlılıq səviyyəsinin arzuolunan səviyyədə olmaması müvafiq sahədə problemlərin səbəblərindən biri kimi çıxış etməklə uşaq hüquqlarının milli və beynəlxalq aspektlərinin təbliğinin genişləndirilməsini və tədris müəssisələrində bu istiqamətdə maarifləndirmə tədbirlərinin praktiki effektivliyinin artırılmasını, eləcə də valideynlərin xüsusi təlimlərə cəlb olunmasını (xüsusilə ali təhsili olmayanlar arasında) zərurətə çevirir.

❑ Uşaq hüquqları sahəsində regional və milli səviyyədə problemlərin səbəblərinin müəyyən edilməsinə və həllinə istiqamətlənən dövri tədqiqatların keçirilməsi alternativ tədbirlərin əsas determinantlarından biri kimi gündəmdə saxlanılmalıdır.

❑ Regionlarda qaynar xəttə dair məlumatlandırıcı və maarifləndirici tədbirlərin təşkili, xidmətin inkişaf etdirilməsi və sayının artırılması müvafiq istiqamətə adekvat sayılar.

❑ Uşaqların erkən yaşda ödənişli əməyə cəlb edilməsi hallarına nisbətdə ailə təsərrüfatlarında əməyə cəlb olunmaya görə ölkə üzrə statistik uçotun aparılması və (Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr) bu istiqamətdə genişmiqyaslı mübarizə tədbirlərinə start verilməsi, peşəkar yerli və xarici mütəxəsislərin prosesə cəlb olunması zəruri addımlardandır.

❑ Azərbaycanda yuvenal ədliyyə sisteminin inkişafını ləngidən amillərdən biri kimi bu sahədə kadr çatışmazlığının və işə təsadüfi cəlb edilmə hallarının aradan qaldırılması məqsədilə müvafiq sahə üzrə konkret bacarıqlara malik olmaq tələbənin qoyulması, peşəkar sosial işçilərin, psixoloqların bu sahədə iştirakçılığının artırılması nəinki prosesə töhfə verə bilər, eləcə də yetkinlik yaşına çatmayanların cəmiyyətə minimum risklə reinteqrasiyasını və sosiallaşmasını, ən əsası isə səmərəli mühakimə sisteminə keçidi sürətləndirə bilər.

❑ Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların ayrıca və ixtsaslaşmış təsisat kimi fəaliyyət göstərməsi üçün sözügedən sahədə profilaktik işin səmərəli qurulmasına maneə olan minimum ştat vahidlərinin artırılması, xüsusilə qadın polis uşaq inspektorlarının sayının, eyni zamanda, icra hakimiyyətlərinin fəaliyyətində prioritet istiqamət üzrə məsul katiblər və məsləhətçi-psixoloqların iş effektivliyinin artırılması, müvafiq sahə üzrə maaş azlığı, resurs çatışmazlığının aradan qaldırılması, lazımi maddi-texniki baza, həmçinin işçilərin uzaq məsafələrə səfərlər üçün nəzərdə tutulan daimi nəqliyyatla təmin olunma məsələləri diqqətdə saxlanılmalıdır.

❑ Yuvenal ədliyyə sahəsində yetkinlik yaşına çatmayanlarla işin təşkili sahəsində peşəkar mütəxəssislərin yetişdirilməsi, bacarıqlarının artırılması məqsədilə onların müvafiq beynəlxalq təlim və seminarlara cəlb olunması tövsiyə edilir.

❑ Yuvenal ədliyyə əsasında uşaq istintaqının ayrıca fəaliyyət göstərməsi, azyaşlıların hüquqi dindirilməsi zamanı birbaşa dindirilmə və ya kənardan izləmə otağında müşahidə aparan xanım psixoloqların sayının artırılması məqsədəuyğun hesab edilir.

# QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az